Xalqın qəzeti!

# Xalq qəzeti

№ 115 (31084) 3 iyul 2026-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan – Türkiyə qardaşlıq və müttəfiqlik münasibətləri ölkələrimizə tarixi uğurlar qazandırır

## Prezident İlham Əliyev Türkiyənin ədliyyə nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 2-də Türkiyə Respublikasının ədliyyə naziri Akın Gürleki qəbul edib.**

Qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən Akın Gürlek Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Qonaq ortaq tarixə, mədəniyyətə və qardaşlığa əsaslanan əlaqələrimizin Azərbaycan və Türkiyə prezidentləri arasında mövcud olan səmimi münasibətlər sayəsində daha da inkişaf etdiyini vurğuladı.

Türkiyənin ədliyyə naziri dövlətimizin başçısının güclü liderliyi ilə ölkəmizin inkişaf etdiyini deyərək, bu xüsusda Azərbaycanın iqtisadi tərəqqisinə, beynəlxalq nüfuzunun daha da artmasına və tarixi Qarabağ Zəfərinə toxundu.

Akın Gürlek, həmçinin Azərbaycanın bölgədə enerji, bağlantılar, o cümlədən Zəngəzur dəhlizi kimi strateji layihələrin həyata keçirilməsində önəmli rolunu vurğuladı və Türkiyənin bundan sonra da ölkəmizin yanında olacağını dedi.

Söhbət zamanı bütün sahələri əhatə edən Azərbaycan-Türkiyə qardaşlıq və müttəfiqlik münasibətlərinin uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı. Ölkələrimizin Ədliyyə nazirlikləri arasında səmərəli tərəfdaşlığın qurulduğu bildirilərək, əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

## Sülh və əməkdaşlıq mənfi yanaşmaları “dəfn edir”



Səhifə ⇨ 3

## Azərbaycan Avropa İttifaqının regionda əsas tərəfdaşıdır

### *Ticarətin 70 faizi ölkəmizlə aparılır*

**Azərbaycan dövləti çoxvektorlu xarici siyasət kursunda Avropa Komissiyası ilə münasibətlərin inkişafına xüsusi önəm verir. Eyni zamanda, bu qurumun da Azərbaycanla əməkdaşlığa marağı getdikcə artır.**



Bu il Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta, Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas, iyulun 1-də isə Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin Azərbaycana səfərləri Bakı–Brüssel münasibətlərinin dinamik inkişaf etdiyini və qarşılıqlı marağın gücləndiyini nümayiş etdirir.

*(ardı 7-ci səhifədə)*

## Vaşinqtonun Cənubi Qafqaz strategiyasında yeni mərhələ

### *Azərbaycanın yüksələn geosiyasi çəkisinə baxış*



**Son aylar Ağ Evin Azərbaycanla bağlı verdiyi siyasi mesajlar göstərir ki, Vaşinqtonun Cənubi Qafqaza baxışında dəyişiklik baş verir. Əvvəllər münasibətlərin dayağı rolunda enerji əməkdaşlığı çıxış edirdisə, indi gündəlik daha geniş geosiyasi və iqtisadi çərçivəyə keçib. Regional təhlükəsizlik, nəqliyyat-kommunikasiya dəhlizləri, rəqəmsal iqtisadiyyat, yüksək texnologiyalar və strateji tərəfdaşlıq ABŞ-ın prioritet istiqamətləri kimi ön plana çıxıb. Bu isə Azərbaycanın Qərb üçün yalnız enerji tərəfdaşı deyil, Avrasiya məkanının yeni geosiyasi və təhlükəsizlik arxitekturasında əsas aktorlardan biri olduğunu göstərir.**

ABŞ-ın Azərbaycandakı müvəqqəti işlər vəkili Emi Karlonun ölkəsinin müstəqilliyinin 250 illiyi münasibətilə keçirilən qəbulda səsləndirdiyi fikirlər təsadüfi diplomatik bəyanat deyil. Onun Cənubi Qafqazı Şərqlə Qərbi birləşdirən, qlobal iqtisadiyyata inteqrasiya olunmuş və təhlükəsizlik baxımından sabit region kimi təsvir etməsi, əslində, Vaşinqtonun uzunmüddətli hədəflərini ifadə edir. Burada söhbət yalnız Azərbaycanla ikitərəfli münasibətlərdən getmir. Məsələ Cənubi Qafqazın qlobal ticarət, enerji və logistika sisteminin ayrılmaz hissəsinə çevrilməsindən gedir. Bu isə faktiki olaraq regionun qlobal nəqliyyat və iqtisadi şəbəkəyə sıx bağlanması deməkdir.

*(ardı 3-cü səhifədə)*

## İrəvanda seçki qalmaqalı bitmir

### *Konstitusiya Məhkəməsi şikayətləri araşdırdı*

**Ermənistan Konstitusiya Məhkəməsi dünən parlament seçkilərinin nəticələrinin etibarsız elan olunması tələbi ilə təqdim edilmiş apelyasiya şikayətlərinə baxışı başa çatdırıb. Məhkəmənin iclaslarında seçkinin nəticələrindən narazı qalan yeddi siyasi qüvvənin müraciətləri araşdırılıb. Sonradan “Yeni qüvvə” partiyası prosesdə iştirakdan imtina etdiyindən məhkəmə digər 6 siyasi qüvvənin iddialarını dinləyib. Cavabdeh qismində Ermənistan Mərkəzi Seçki Komissiyası (MSK), həmçinin Daxili İşlər Nazirliyi, Baş Prokurorluq və Korrupsiyaya Qarşı Mübarizə Komitəsi çıxış edib. Hakim “Mülki müqavilə” partiyası isə prosesə üçüncü tərəf kimi cəlb olunub.**

*(ardı 4-cü səhifədə)*



## Aleni inqilab “yedi”?



Səhifə ⇨ 4

## Erməni terrorizminin unudulmaz üz qaralığı



Səhifə ⇨ 6

# Azərbaycanda Türk Dünyası Həftəsi

Səhifə ⇨ 9

# Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 5, maddə 411 (Cild I); 2024, № 3, maddə 262, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddə 647, № 12 (II kitab), maddə 1369; 2025, № 5, maddə 458, № 7, maddə 641) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə”nin 13-cü bəndinin birinci abzasında “üç” sözü “dörd” sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 iyul 2026-cı il**

# Baş prokurorun Türkiyənin ədliyyə naziri ilə görüşü



**İyulun 1-də Baş prokuror Kamran Əliyev ölkəmizdə işgüzar səfərdə olan Türkiyə Respublikasının ədliyyə naziri Akın Gürleklə görüşüb.**

Görüş zamanı qeyd edilib ki, ölkələrimiz arasında strateji müttəfiqlik və qardaşlıq münasibətləri ümummilli lider Heydər Əliyevin irəli sürdüyü “bir millət, iki dövlət” ideyasına əsaslanaraq, bu gün Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında mövcud olan səmimi dostluq münasibətləri, qarşılıqlı etimad və qəti siyasi iradə sayəsində bütün sahələr üzrə uğurla inkişaf edir.

Bildirilib ki, dövlətlərimiz arasında formalaşmış yüksək səviyyəli münasibətlər hüquq sahəsində də səmərəli əməkdaşlığın genişlənməsinə, o cümlədən prokurorluq, ədliyyə və digər hüquq-mühafizə orqanları arasında qarşılıqlı fəaliyyətin daha da möhkəmləndirilməsinə, hüquqi yardım mexanizmlərinin təkmilləşdirilməsinə, transmilli cinayətkarlıqla mübarizədə birgə səylərin gücləndirilməsinə və beynəlxalq hüquqi əməkdaşlığın inkişafına mühüm töhfə verir.

Bundan başqa, Baş prokuror prokurorluq və ədliyyə orqanları arasında qarşılıqlı etimada əsaslanan əlaqələrin yüksək səviyyədə inkişaf etdiyini və bu əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini ifadə edib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Akın Gürlek Azərbaycan ilə Türkiyə arasında bütün istiqamətlər üzrə, xüsusilə prokurorluq, məhkəmə və ədliyyə sahələrində əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayaraq, həyata keçirilən birgə fəaliyyətin hər iki ölkənin hüquq sistemlərinin inkişafına və hüquqi əməkdaşlığın daha da möhkəmləndirilməsinə mühüm töhfə verdiyini qeyd edib.

**XQ**

# BMT Baş katibinin elçisi XİN-də

**İyulun 2-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan BMT Baş katibinin yol təhlükəsizliyi üzrə xüsusi elçisi Jan Todt ilə görüşüb.**



Görüş zamanı Azərbaycan ilə BMT arasında mövcud əməkdaşlıq gündəliyi, yol təhlükəsizliyi sahəsində beynəlxalq əməkdaşlıq məsələləri, habelə bu istiqamətdə qlobal təşəbbüslər ətrafında fikir mübadiləsi aparılıb.

Ceyhun Bayramov ölkəmizin Dayanıqlı İnkişaf Məqsədlərinin icrası, təhlükəsiz, dayanıqlı və müasir nəqliyyat sisteminin inkişafı, eləcə də yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirdiyi ardıcıl islahatlar barədə məlumat verib. Nazir, həmçinin bütün ölkə ərazisində, xüsusilə də işğaldan azad edilmiş ərazilərimizdə yüksəksəviyyəli yol və infrastruktur layihələrinin həyata keçirildiyini diqqətə çatdırıb.

Jan Azərbaycanın yol təhlükəsizliyi sahəsində həyata keçirdiyi tədbirləri və əldə olunan irəliləyişi yüksək qiymətləndirib, bu istiqamətdə əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətini vurğulayıb.

**XQ**

# YAP heyətinin Çinə səfəri başa çatıb

**Çin Kommunist Partiyasının dəvəti ilə bu ölkəyə səfər edən Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Şanxayda “Çinin sosial-iqtisadi inkişafına dair 15-ci beşillik proqram və Çin xüsusiyyətli modernləşmə”, həmçinin “Kadrların hazırlanması və partiyanın gənclər siyasəti” mövzularında keçirilən seminarlarda iştirak edib.**



Səfər çərçivəsində nümayəndə heyəti Pekində Çin Kommunist Partiyası Beynəlxalq əlaqələr şöbəsinin Avrasiya departamenti direktorunun müavini Syu Çinsian və şöbə müdirinin müavini Sun Haiyan ilə görüşüb.

Görüşlərdə Azərbaycan–Çin münasibətlərinin yüksələn xətt üzrə inkişaf etdiyi vurğulanıb, hakim partiyalar arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri müzakirə olunub.

Nümayəndə heyəti, həmçinin Çin Kommunist Partiyası üzvlərinin təltifetmə mərasimində iştirak edib.

# Azərbaycan–Pakistan mühəndislik təhsili əməkdaşlığı

**Azərbaycan Mühəndislik Akademiyası ilə Pakistan Mühəndislər İnstitutu arasında mühəndislik sahəsində əməkdaşlığın inkişafına dair memorandum imzalanıb. Sənədi Azərbaycan tərəfindən Akademiyanın prezidenti, akademik Arif Paşayev, Pakistan tərəfindən isə İnstitutun prezidenti Farhat Adil imzalayıb.**

Memorandumun məqsədi mühəndislik sahəsində elmi, texniki və peşəkar əməkdaşlığın inkişaf etdirilməsi, beynəlxalq əlaqələrin gücləndirilməsi, bilik və təcrübə mübadiləsinin təşviq edilməsidir.

Sənədə əsasən, tərəflər elmi və texniki informasiya mübadiləsi aparacaq, beynəlxalq konfrans, seminar və simpoziumların təşkilində əməkdaşlıq edəcək, mühəndislər və tədqiqatçılar arasında əlaqələrin genişləndirilməsi, həmçinin birgə elmi və innovativ layihələrin həyata keçirilməsi istiqamətində fəaliyyət göstərəcəklər.

Bildirilib ki, memorandum Azərbaycan və Pakistanın mühəndislik təşkilatları arasında əlaqələrin genişlənməsinə, beynəlxalq təşəbbüs və layihələrin həyata keçirilməsinə, eləcə də mühəndislik sahəsində təcrübə mübadiləsinin gücləndirilməsinə töhfə verəcək.

**XQ**

# Xalqa və dövlətə xidmətin təntənəsi





**Azərbaycan polisinin yaranmasının 108-ci ildönümü münasibətilə daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov və nazirliyin rəhbər heyəti Fəxri xiyabana gələrək ulu öndər Heydər Əliyevin abidə kompleksi önünə əklil qoyublar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi ehtiramla yad edilib.**

Respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş mərd mübarizlərin uyuduğu Şəhidlər xiyabanı da ziyarət olunub.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasında “Polis Günü”nə və 2025-2026-cı tədris ilinin buraxılışına həsr olunmuş





təntənəli mərasim keçirilib.

Məclisdə xalqımızın ümummilli lideri Heydər Əliyevin, habelə respublikamızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalmış və xidməti vəzifələri yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının xatirəsi yad olunub.

Peşə bayramı münasibətilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təbriklərini və ən xoş arzularını şəxsi heyətə çatdıran general-polkovnik Vilayət Eyvazov ötən 108 ildə polisin keçdiyi şərəfli və zəngin xidmət yolundan, yaratdığı ənənələrdən, xüsusən ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrlərdə daxili işlər orqanlarının fəaliyyətinin təşkili, milli ruhlu vətənpərvər kadrlarla möhkəmlənməsi sahəsində görülən mühüm işlərdən danışıb.

Nazir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində Daxili İşlər Nazirliyində güclü və müasir maddi-texniki baza yaradıldığını, müasir dövrün çağırışlarından irəli gələn struktur dəyişiklikləri aparıldığını, şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi, peşə hazırlığının artırılması sahəsində sistemli tədbirlərin həyata keçirildiyini və əməliyyat-xidməti fəaliyyətin vətəndaş məmnunluğunun təmini prinsipləri üzərində qurulması ilə bağlı həyata keçirilmiş tədbirləri vurğulayıb.

Vətəndaşların ərizə və şikayətlərinin obyektiv və həssaslıqla araşdırılması, qanunçuluğun qorunması, şəxsi heyətin etik davranış qaydalarına riayət etməsi kimi mühüm vəzifələrin səmərəli icrasının vacibliyinə toxunan nazir xidməti vəzifələrin dəqiq və qüsursuz yerinə yetirilməsində dürüstlük, prinsipiallıq və məsuliyyət kimi keyfiyyətlərin böyük önəm kəsb etdiyini bildirib.

Cinayətkarlığa, onun transmilli növlərinə qarşı mübarizədə, asayişin və təhlükəsizliyin təmin olunmasında polis orqanlarının hər bir şəxsin qanuni mənafeyini, hüquq və azadlığının müdafiəsini yüksək səviyyədə təmin etdiyi qeyd olunub.

İşğaldan azad edilmiş ərazilərdə Böyük Qayıdışın sürətlənməsi üçün polis orqanlarının, o cümlədən Daxili Qoşunların fəaliyyətinin mövcud vəziyyətə uyğunlaşdırıldığı, asayişin və təhlükəsizliyin etibarlı təmin edildiyi, xidmətin böyük əzm və peşəkarlıqla davam etdirildiyi vurğulanıb.

Cinayətlərin açılmasının yüksək səviyyədə saxlanılmasının, hüquqpozmaların profilaktikasının daha da yaxşılaşdırılmasının, bütövlükdə xalqa xidmət funksiyalarının daha təkmil icrası üçün əlavə tədbirlərin həyata keçirilməsinin başlıca vəzifələr olduğu şəxsi heyətin diqqətinə çatdırılıb.

Xidməti vəzifələrin icrasında daxili işlər orqanlarına hər zaman yardımçı olan, polisin peşə bayramının sevincini bölüşən vətəndaşlara, daxili işlər orqanlarının veteranlarına, dövlət qurumlarının rəhbərlərinə və əməkdaşlarına, qeyri-hökumət təşkilatlarına və media nümayəndələrinə təşəkkür ifadə olunub.

General-polkovnik Vilayət Eyvazov təntənəli mərasimin iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevi əmin edib ki, öz andına həmişə sadiq olan daxili işlər orqanları bundan sonra da Vətənə və xalqa şərəflə xidmət edəcək, bu yolda qüvvə və bacarığını əsirgəməyəcək.

Azərbaycan polisinin müasir dünyagörüşlü yeni nəslini Vətənə, dövlətə, xalqa sevgi və xidmət ruhunda yetişdirən Polis Akademiyasının qazanılan uğurlardakı rolunu xüsusi vurğulayan daxili işlər naziri məzunları təhsili başa vurmaları münasibətilə təbrik edib, eləcə də bu təhsil müəssisəsini baş leytenant rütbəsi ilə bitirmiş məzunlara fərqlənmə diplomlarını təqdim edib.

Təntənəli mərasim şəxsi heyətin mətin addımlarla tribuna qarşısından keçidi ilə yekunlaşıb.

**XQ**

# Sülh və əməkdaşlıq mənfi yanaşmaları "dəfn edir"

## *Ursula Fon der Lyayenin Bakı səfəri ilə bağlı qeydlər*



**Azərbaycan Avropa İttifaqının (Aİ) strateji tərəfdaşıdır. Bu fikir Prezident İlham Əliyevin Bakıda səfərdə olan Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenlə istər geniş tərkibdəki görüşünün, istərsə də dövlətimizin başçısının Aİ rəsmisi ilə mətbuata bəyanatının başlıca qayəsini təşkil etdi. Strateji tərəfdaşlığı doğuran səbəblər, həmçinin ona Azərbaycanın öz yanaşması var ki, birinci cəhət barədə yazımızın gedişində, ikinci barədə isə sonda söz açacağıq.**

Bəli, xanım Fon der Lyayen dilə gətirdiyi fikirlərlə ölkəmizin "köhnə qitə" üçün əhəmiyyətini son dərəcə parlaq şəkildə ifadə etdi və onun dedikləri bir məqamı ortaya çıxarır: Azərbaycan–Aİ münasibətlərində dönüş nöqtəsi yaranıb ki, əslində, bunu Aİ Şurasının Prezidenti Antoniu Koştanın, habelə Aİ-nin Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallasın Bakıya bir müddət əvvəlki səfərlərindən sonra da duymaq olurdu. Deməli, AK Prezidenti "bu gün mən Avropa İttifaqı üçün olduqca əhəmiyyətli tərəfdaşlığı dərinləşdirmək məqsədilə buradayam" deməklə, əvvəlki iki səfərdən qaynaqlanmış inamımızı daha da möhkəmləndirdi. Prezident İlham Əliyevin mətbuata bəyanatındakı fikirləri isə əminlik yaratdı: "Beləliklə, deyərdim ki, əməkdaşlığımızı genişləndirmək və tərəfdaşlığımızı gücləndirmək məqsədilə hər iki tərəfin qarşılıqlı iradəsini əks etdirən münasibətlərimizdə görünməmiş dinamika müşahidə olunur. Biz Avropa Komissiyası ilə münasibətləri yüksək dəyərləndiririk. Bu gün xanım Prezident və nümayəndə heyəti ilə birgə çox böyük təəssürat bağışlayan gündəliyi geniş şəkildə müzakirə etdik".

Prezident İlham Əliyevin də vurğuladığı kimi, hazırda hər ölkə üçün enerji təhlükəsizliyi milli təhlükəsizliyin ən mühüm amilidir. Təhlükəsizlik isə asayişdən, dinclikdən və əmin-amanlıqdan asılıdır. Bu baxımdan Azərbaycan özünəməxsus modelə malikdir. Ölkəmiz təhlükəsizliyi dərin düşünülmüş dövlət siyasəti və mövcud siyasətin nəticəsi olaraq qazandığı güc sayəsində əldə edib. Söhbət gücdən sülh naminə yararlanan siyasətdən gedir. Elə buna görə də xanım Fon der Lyayen mətbuata bəyanatında ilk növbədə belə dedi: "İcazə verin, Ermənistanla tarixi sülh müqaviləsini başlatmağınız münasibətilə Sizi təbrik edim. Siz regionda sülhün və əməkdaşlığın təşviq olunmasında şəxsi liderlik keyfiyyətlərini nümayiş etdirdiniz. Bu, sabitlik, etimad və ortaq rifah üçün yeni imkanlar yaradır. Aİ bu prosesi qəti şəkildə dəstəkləyir. Biz bunu davam etdirəcəyik. Biz kağız üzərində sülhü birlikdə real sülhə çevirə bilərik. Məhz buna görə biz bu gün burada birlikdə çalışırıq".

AK Prezidenti, eyni zamanda, bildirdi ki, Azərbaycan öz strateji coğrafiyasını artan iqtisadi, siyasi və regional nüfuzu ilə düşünülmüş şəkildə birləşdirir. Təkcə xanım Fon der Lyayen yox, ümumən, Aİ siyasi düşüncə industriyasının təmsilçiləri yaxşı dərk edirlər ki, ölkəmizin bu vəhdət trayektoriyası bütövlükdə region naminə təəssübkeşlik paradiqmasına əsaslanır. Təəssübkeşlik isə son dərəcə vacibdir. Çünki Prezident İlham Əliyev dəfələrlə Cənubi Qafqazın tarixən qanlı müharibə və qarşıdurmalar meydanına çevrildiyini, regionun nəhayət ki, rahat nəfəs almasının vacibliyini önə çəkib.

Tam qətiyyətlə deyə bilərik ki, hazırda məhz Azərbaycanın sayəsində rahatlıq var. Elə bir rahatlıq ki, Cənubi Qafqazın potensialını Avropa, həmçinin dünya üçün səmərəli istifadə şansı yaradır. Şansdan isə tam mənada, vaxt itirmədən yararlanmaq şərtdir. Məhz buna görə də sülh kağız üzərində qalmamalıdır. Sevindirici haldır ki, məsələ Avropanın ən böyük təsisatı tərəfindən yetərincə dərk edilməkdədir.

Azərbaycan, öz növbəsində, barış mühitinə kağız üzərində deyil, gündəlik həyatda hiss edilən obraz qazandırır. Belə bir obraz sülhü hiss olunan məfhuma çevirir ki, bu da regionun əmin-amanlıq şəraitində yaşamaq vərdişlərinə yiyələnməsi baxımından son dərəcə vacibdir. Prezident İlham Əliyevin vurğuladığı kimi: "Sülhü təkcə kağız üzərində deyil, gündəlik həyatda hiss etdiyimizi nümayiş etdirmək üçün bir çox birtərəfli addımlar atdıq. Azərbaycan öz ərazisi ilə Ermənistana daşınan yüklərin tranzitinə bütün məhdudiyyətləri aradan qaldırıb. Həmin məhdudiyyətlər beynəlxalq səviyyədə tanınmış ərazilərimizin Ermənistan tərəfindən işğalı səbəbindən tətbiq edilmişdi. Biz, həmçinin çox mühüm yanacağı, xüsusən də benzin və dizeli Ermənistana təchiz etməyə başlamışıq".

Prezident İlham Əliyev, habelə Cənubi Qafqazdakı dinamikanı gücləndirməyin mühüm məqsədinə toxunaraq bəyan etdi ki, "region hər hansı ərazi iddialarından, hər hansı münaqişədən azad, tərəfdaşlıq, əməkdaşlıq və sülh regionuna çevirəcək". Elə bir regiona ki, özündə əhəmiyyəti get-gedə artan geosiyasi vəziyyətin mənfi təsirlərinə sinə gərmək immunitetini daşısın. Məhz buna görə indiki de-fakto sülh mühiti möhkəmlənməlidir. U.Fon der Lyayenin şəxsində Aİ-nin prosesə dəstək göstərmək əzmi isə son dərəcə vacibdir.

Mövcud trayektoriyada Azərbaycanın oynadığı rol, daha dəqiq desək, Prezident İlham Əliyevin prinsipial yanaşmaları sülhə dəstəyin səmimi motivlərini formalaşdırıb. Avropa, ümumən, dünya hazırda yaxşı anlayır ki, səmimiyyət nümayiş etdirmədən, hansısa alt məqsədlər güdərək, Cənubi Qafqaz coğrafiyasına yanaşmaq, siyasi spekulyasiyalara baş vurmaq heç bir nəticə verməyəcəyək. Yanaşma konkret necə olmalıdır, bunu açıqlayan da dövlətimizin başçısıdır: "Bir sözlə, sülh artıq reallıqdır. Lakin biz onu gücləndirmək, uzunmüddətli və əbədi etmək üçün ürəkdən çalışmalıyıq".

Bəli, Azərbaycanın kritik regionda coğrafiyanı və özünün üstün infrastruktur imkanlarını birləşdirən, regional sabitliyi təmin edən güclü dövlət olduğu Aİ tərəfindən qəbul olunur ki, qurumun ölkəmizə münasibətində, eləcə də rəsmi Bakının regional əməkdaşlıq müstəvisindəki təşəbbüslərinə dəstək xətti var. Ona görə xanım Fon der Lyayen Cənubi Qafqazda sülhü daha da irəliyə aparmaq məqsədindən söz açır, diqqəti bu məqsədin əlahiddəliyinə yönəldir.

Yəni Aİ bütünlüklə regional barışa köklədiyini göstərir. Nəzərə alaq ki, 44 günlük müharibədən sonra – 2020-2025-ci illərdə yaşanan bir sıra proseslər, o cümlədən Ermənistana təəssübkeşlik halları ortaya sözügedən köklənişə zidd təmayülləri çıxarırdı. Məsələyə bu prizmadan yanaşsaq, Azərbaycan öz siyasəti ilə ənənəvi mənfi stereotipləri sıradan çıxarıb. O stereotipləri ki, məğzində dayanan hay təəssübkeşliyi həm də "köhnə qitə"nin strateji siyasətini təşkil edir, ikili standartları normaya çevirir, ədalətsizlik və haqsızlığa legitimlik qazandırırdı.

Sonda bir daha əvvəldə diqqətə çatdırdığımız və Azərbaycanın Avropanın strateji tərəfdaşı olmasına dair xanım Fon der Lyayenin səsləndirdiyi fikrə diqqət yetirərək deyək ki, bu gün sözügedən strateji tərəfdaşlıq günün tələbidir. Açıq desək, hazırda Aİ-nin timsalında Avropa buna ehtiyac duyur. Amma necə deyərlər, bu günün sabahı var.

Məsələ ondadır ki, Prezident İlham Əliyevin şəxsində Azərbaycan dövlətinin təklif etdiyi əməkdaşlıq modeli məhz gələcəyin təminatıdır. Bu, bütövlükdə Cənubi Qafqazı təminat altına alan, onu vahid orqanizm kimi vurğulayan strateji xətdir. Elə bir xətt ki, Avropa məkanında kimlərin, hansı qüvvələrin idarəedicilər kürsüsündə təmsilçiliyindən asılı olmayaraq, regionun "köhnə qitə" üçün əhəmiyyətini qoruyacaq.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Vaşinqtonun Cənubi Qafqaz strategiyasında yeni mərhələ



**(əvvəli 1-ci səhifədə)**



Səfir səviyyəsində səsləndirilən açıqlamalar göstərir ki, Vaşinqtonun Cənubi Qafqaz strategiyasında Azərbaycan kənar element deyil, formalaşmaqda olan yeni regional modelin təməllərindən biridir. Bu tendensiyanın davam etməsi ABŞ–Azərbaycan münasibətlərini ikitərəfli əməkdaşlıq çərçivəsindən çıxararaq regionun geosiyasi və iqtisadi gələcəyini müəyyən edən amillərdən birinə çevirir.

O da qeyd olunmalıdır ki, ABŞ ilə Azərbaycan arasında münasibətlər son illər siyasi, iqtisadi və təhlükəsizlik müstəvilərində yeni dinamika qazanıb. Bu kontekstdə 2025-ci il avqustun 8-də Vaşinqtonda ABŞ, Azərbaycan və Ermənistan liderlərinin iştirakı ilə keçirilmiş görüş xüsusi siyasi əhəmiyyət daşıyır. ABŞ yaxşı anlayır ki, regionda uzunmüddətli sülh olmadan nə iri nəqliyyat layihələri, nə investisiya axını, nə də iqtisadi inteqrasiya tam şəkildə reallaşa bilər. Buna görə də Vaşinqton sülh prosesini təkcə diplomatik uğur kimi deyil, həm də Avrasiyanın yeni iqtisadi xəritəsinin formalaşmasının əsas şərtlərindən biri kimi qiymətləndirir. Diplomat deyib: "ABŞ Prezidenti Donald Trampın və beynəlxalq ictimaiyyətin iştirakı ilə Bakı və İrəvan onilliklər boyu davam edən münaqişəni geridə qoymaq imkanı əldə etdilər. Onlar qarşıdurmaya deyil, qarşılıqlı əlaqəyə, əməkdaşlığa və rifaha əsaslanan gələcək qurmaq öhdəliyini öz üzərlərinə götürdülər".

Məhz bu yanaşmanın tərkib hissəsi kimi Vaşinqton "Beynəlxalq sülh və rifah naminə Tramp marşrutu" (TRIPP) təşəbbüsünü və ABŞ–Azərbaycan Strateji Tərəfdaşlıq Xartiyasını əsas platformalar kimi irəli sürüb. Regional bağlantılar, investisiyalar, innovasiya və təhlükəsizlik sahələrini əhatə edən bu sənədlər ABŞ-ın Cənubi Qafqaza yanaşmasında siyasi risklərdən çox iqtisadi imkanların ön plana çıxdığını göstərir. ABŞ Azərbaycanla energetika, süni intellekt sahəsi, verilənlərin emalı mərkəzlərinin yaradılması və digər qabaqcıl texnologiyalar sahəsində əməkdaşlığı inkişaf etdirmək niyyətini göstərir.

Vaşinqton Azərbaycanı yeni texnologiyalar və yüksək əlavə dəyər yaradan iqtisadiyyatın strateji tərəfdaşı kimi görür. Bunu ABŞ-ın Azərbaycandakı müvəqqəti işlər vəkili Emi Karlon da səsləndirib. Onun sözlərinə görə, Bakı Enerji Həftəsi və ABŞ–Azərbaycan İqtisadi Dialoqu çərçivəsində Amerika şirkətləri azərbaycanlı tərəfdaşlarla müasir materiallar, süni intellekt, bulud hesablamaları və digər yeni nəsil texnologiyalar sahəsində ümumi dəyəri 8 milyard dollardan çox olan sazişlər imzalayıblar. Bu göstərici ikitərəfli əməkdaşlığın artıq ənənəvi enerji sektorunun hüdudlarını aşaraq yüksək texnologiyalar və innovasiya iqtisadiyyatı mərhələsinə keçdiyini nümayiş etdirir. "Bunlar uzaq gələcəyin planları deyil - biz onları artıq bu gün həyata keçiririk", – deyə o bildirib.

Bu transformasiya yalnız ikitərəfli əlaqələrin keyfiyyətcə yeni mərhələyə keçdiyini göstərmir, eyni zamanda, Azərbaycanın regionun innovasiya və texnoloji mərkəzlərindən birinə çevrilməsi istiqamətində formalaşan beynəlxalq maraqdan qaynaqlanır.

ABŞ Konqresinin üzvü Abraham Hamadehin "Newsmax" nəşrində dərc olunan məqaləsi də məhz bu reallığın Amerika siyasi dairələrində getdikcə daha çox qəbul olunduğunu göstərir. Onun fikrincə, ABŞ-ın qlobal maraqları etibarlı tərəfdaşlarla daha sıx əməkdaşlıq tələb edir və Azərbaycan bu baxımdan strateji əhəmiyyət daşıyan ölkədir.

Konqresmenin diqqət çəkdiyi məqamlar təsadüfi deyil. Rusiya və İranla həmsərhəd olan, Avropa ilə Asiyanın qovşağında yerləşən, enerji və logistika imkanlarına malik Azərbaycan faktiki olaraq Avrasiya geosiyasətinin əsas düyün nöqtələrindən birinə çevrilib. Bu amil təkcə ABŞ üçün deyil, Avropa İttifaqı, Mərkəzi Asiya dövlətləri və bütövlükdə Qərb üçün strateji əhəmiyyət kəsb edir.

Ağ Evin son bəyanatları yalnız diplomatik nəzakət çərçivəsində qiymətləndirilə bilməz. Onlar Vaşinqtonun regional strategiyasının dəyişən prioritetlərini əks etdirir. Azərbaycan isə bu strategiyada təkcə enerji təminatçısı deyil, Avrasiyanın yeni iqtisadi və geosiyasi arxitekturasının formalaşmasında mühüm tərəfdaşdır. Məhz buna görə ABŞ–Azərbaycan münasibətlərində müşahidə olunan canlanma iki ölkə arasında əməkdaşlığın növbəti mərhələsi olmaqla yanaşı, Cənubi Qafqazın gələcək inkişaf modelinə dair mühüm siyasi mesajdır. Qarşıdakı dövr göstərəcək ki, bu siyasi iradə konkret layihələrə və dayanıqlı regional əməkdaşlıq mexanizmlərinə nə dərəcədə çevrilə biləcək. Lakin indidən aydındır ki, Azərbaycanın geosiyasi çəkisi artıq yalnız regionun deyil, qlobal güclərin strateji hesablamalarının da mühüm elementinə çevrilməkdədir.

**İqtisadçı-ekspert Mahir Zeynalov** bildirdi ki, ABŞ-ın Azərbaycan siyasətində müşahidə olunan müsbət dinamika Vaşinqtonun Cənubi Qafqaz strategiyasının yenidən formalaşdığını göstərir. Onun sözlərinə görə, Donald Tramp administrasiyası dövründə Bakı ilə münasibətlər ideoloji yanaşmadan daha çox geosiyasi və iqtisadi maraqlar üzərində qurulur: "Əgər əvvəlki mərhələdə münasibətlərin əsasını enerji layihələri təşkil edirdisə, indi əməkdaşlıq yüksək texnologiyalar, süni intellekt, rəqəmsal infrastruktur və innovasiya istiqamətlərini də əhatə edir".

Ekspert hesab edir ki, Ermənistanla sülh prosesinə ABŞ-ın verdiyi dəstək də eyni geoiqtisadi məntiqdən irəli gəlir: "Təsadüfi deyil ki, son aylar iki ölkənin münasibətlərində siyasi bəyanatları konkret əməkdaşlıq mexanizmləri əvəz edir. Strateji Tərəfdaşlıq Xartiyası, ABŞ–Azərbaycan İqtisadi Dialoqu və iri investisiya layihələri göstərir ki, Vaşinqton Azərbaycanı Cənubi Qafqaz siyasətinin əsas tərəfdaşlarından biri kimi görür. İnanıram ki, bu əməkdaşlıq yeni mərhələyə qədəm qoyacaq, regionda davamlı sülhə səbəb olacaq. Bu isə yalnız iki tərəfin deyil, bütün regionun maraqlarına xidmət edir".

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycanda rəqəmsal keçid sürətlənir

## *Strateji idarəetmə modelinin hədəfi dövlət xidmətlərini daha əlçatan etmək və şəffaflaşdırmaqdır*

**Azərbaycanda rəqəmsal transformasiya son illər dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib və bu sahədə həyata keçirilən islahatlar artıq konkret nəticələrlə müşahidə olunur. 2026-cı il fevralın 11-də Prezident İlham Əliyevin sədrliyi ilə "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədə bu prosesin ardıcıl və sistemli şəkildə həyata keçirildiyi bir daha təsdiqlədi, bununla bağlı görüləcək işlərin miqyası və xarakteri müəyyənləşdirildi.**

Dövlət başçısının sədrliyi ilə keçirilən müşavirə, əslində, Azərbaycanın innovasiya əsaslı inkişafını təmin etməkdən ötrü möhkəm təməl üzərində qurulacaq dayanıqlı gələcəyin inşasına xidmət edirdi. Həmin müşavirənin məntiqi davamı olaraq Prezident İlham Əliyev tərəfindən fevralın 27-də imzalanan fərmanla Rəqəmsal İnkişaf Şurası yaradıldı. İyunun 29-da isə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclası keçirildi. Birinci vitse-prezident iclasda qeyd etdi ki, cari ilin fevralında Prezident İlham Əliyevin sədrliyi ilə ölkənin yeni rəqəmsal inkişaf strategiyasına həsr olunmuş müşavirədə verilən tapşırıqlara uyğun olaraq Rəqəmsal İnkişaf üzrə Fəaliyyət Planı təsdiqlənib.

Rəqəmsal İnkişaf Şurasının Mehriban Əliyevanın sədrliyi ilə keçirilən ilk iclası Azərbaycan dövlətinin bu yeni istiqamətə strateji yanaşmanın formalaşdığını bir daha nümayiş etdirdi. Müzakirə olunan məsələlər dövlətin rəqəmsal xidmətlərin genişləndirilməsinə verdiyi önəmi, eyni zamanda, vətəndaş məmnunluğunun artırılması və idarəetmədə çevikliyin təmin olunması məqsədlərini aydın şəkildə ortaya qoydu. Son 3 ayda əldə olunan nəticələr, eləcə də növbəti 3 il üçün müəyyənləşdirilən hədəflər vahid konsepsiya çərçivəsində təqdim olunaraq rəqəmsal dövlət modelinə keçidin artıq sistemli xarakter aldığını əyani şəkildə göstərir.

***

Rəqəmsallaşma strategiyasının əsas istiqamətlərindən biri dövlət qurumlarının ayrı-ayrı fəaliyyət göstərən portal və mobil tətbiqlərinin vahid ekosistemə inteqrasiya olunmasıdır. Bu yanaşma mövcud parçalanmış xidmət modelinin aradan qaldırılmasını və daha səmərəli, istifadəçiyönümlü platformanın formalaşdırılmasını hədəfləyir. Sadə dildə desək, planlaşdırılan modelə əsasən, vətəndaşlar və biznes subyektləri dövlət xidmətlərinə çıxış üçün bir neçə fərqli tətbiqdən istifadə etmək məcburiyyətində qalmayacaq. Bütün xidmətlərin "mygov" və "mygov biznes" platformaları üzərindən təqdim olunması həm vaxt itkisini minimuma endirəcək, həm də xidmətlərin əlçatanlığını əhəmiyyətli dərəcədə artıracaq.

Artıq bu istiqamətdə konkret addımlar atılıb və bir sıra mühüm dövlət xidmətləri vahid platformaya qoşulub. "e-Sosial", "e-Təbib" və "e-Su" tətbiqləri tam şəkildə "mygov" sisteminə inteqrasiya edilib. Bununla yanaşı, "e-Polis", "Mobil Notariat", "Azərişıq", "Resep-tim", "e-Səhiyyə", "MigAz" və "ASAN Müraciət" kimi platformaların bir çox xidmətləri artıq inteqrasiya prosesindən keçib. İlin sonunadək bu xidmətlərin tam şəkildə vahid platforma üzərindən təqdim olunması planlaşdırılır.



Hökumətin start verdiyi bu inteqrasiya prosesi dövlət xidmətlərinin mərkəzləşdirilməsi ilə yanaşı, məlumat mübadiləsinin sürətlənməsinə və idarəetmədə şəffaflığın artmasına da xidmət edir.

***

Fəaliyyət planı rəqəmsallaşma, süni intellekt, innovasiya ekosistemi və kibertəhlükəsizlik istiqamətləri üzrə, ümumilikdə, 58 təşəbbüsü əhatə edir. Rəqəmsallaşma istiqamətində 40 dövlət qurumu ilə yol xəritələri hazırlanıb və onlardan 13-ü artıq təsdiqlənib və ya təsdiq mərhələsindədir. Eyni zamanda, son dövrlərdə "mygov" platformasının funksionallığı və əhatə dairəsi genişləndirilib. Son 3 ay ərzində istifadəçi sayı 2,7 milyondan 3,5 milyona yüksəlib. Rəqəmsal dövlət idarəçiliyinin əsas alətlərindən biri kimi çıxış edən "mygov" platforması müxtəlif dövlət qurumlarının elektron xidmətlərini vahid məkanda birləşdirərək vətəndaşlar üçün daha çevik, daha təhlükəsiz və istifadəçiyönümlü xidmət mühiti yaradır.

Vətəndaşların gündəlik həyatını asanlaşdıracaq digər rəqəmsal yeniliklər də nəzərdə tutulur. Şəxsiyyət vəsiqəsi, pasport və sürücülük vəsiqəsinin etibarlılıq müddətinin başa çatması ilə bağlı əvvəlcədən avtomatik bildirişlərin göndərilməsi planlaşdırılır. Bu mexanizm sənədlərin vaxtında yenilənməsini təmin edəcək və inzibati gecikmələrin qarşısını alacaq. Eyni zamanda, səfərbərlik üzrə hərbi xidmətə tibbi müayinəyə çağırışların da rəqəmsal formada həyata keçirilməsi nəzərdə tutulur. Bu proses dövlət informasiya sistemləri üzərindən təşkil ediləcək və vətəndaşların vaxtında məlumatlandırılması təmin olunacaq ki, bu da şəffaflıq və operativliyi artıracaq.

Ümumilikdə, həyata keçirilən və planlaşdırılan bu tədbirlər Azərbaycanın rəqəmsal dövlət modelinə keçidində mühüm mərhələ təşkil edir. Qarşıya qoyulan əsas məqsəd dövlət xidmətlərini daha əlçatan, şəffaf və effektiv etmək, eyni zamanda, vətəndaş məmnunluğunu maksimum səviyyəyə çatdırmaqdır. Rəqəmsal İnkişaf Şurasının müəyyən etdiyi strateji istiqamətlər və fəaliyyət planı göstərir ki, yaxın 3 il ərzində bu sahədə daha dərin islahatlar həyata keçiriləcək və nəticədə Azərbaycan regionda rəqəmsal idarəetmə sahəsində qabaqcıl ölkələrdən birinə çevriləcək.

***Tacir SADIQOV***
***XQ***

# Azərbaycan – Aİ: münasibətlər strateji yön alır



**Azərbaycan–Avropa İttifaqı (Aİ) münasibətləri müasir dövrdə Azərbaycanın balanslaşdırılmış və çoxvektorlu xarici siyasət konsepsiyasının ən mühüm istiqamətlərindən biri kimi çıxış edir. Müstəqillik dövründən etibarən rəsmi Bakı xarici siyasətini müxtəlif güc mərkəzləri arasında milli maraqlara əsaslanan çevik əməkdaşlıq modeli üzərində formalaşdırıb. Məhz bu baxımdan Aİ ilə əməkdaşlıq Azərbaycanın həm Qərb institutları ilə siyasi dialoqunun, həm də qlobal iqtisadi sistemə inteqrasiyasının əsas platformalarından birinə çevrilib.**

Azərbaycanın Aİ ilə münasibətlərini fərqləndirən əsas cəhət ondan ibarətdir ki, bu əməkdaşlıq qarşılıqlı maraqlara əsaslanan funksional strateji tərəfdaşlıq xarakteri daşıyır. Rəsmi Bakı heç vaxt Aİ-yə üzvlüyü xarici siyasətin məqsədi kimi müəyyənləşdirməyib, münasibətləri suveren bərabərlik, qarşılıqlı fayda və milli maraqlar prinsipləri üzərində qurmağa üstünlük verib. Belə bir yanaşma Azərbaycanın həm Aİ, həm ABŞ, həm Çin, həm də digər qlobal və regional güclərlə paralel şəkildə əməkdaşlıq etməsinə imkan yaradıb. Son illər formalaşan yeni geosiyasi reallıqlar bu siyasətin effektivliyini daha aydın nümayiş etdirir. Bir tərəfdən Azərbaycan ABŞ ilə enerji təhlükəsizliyi, terrorizmlə mübarizə, regional sabitlik və təhlükəsizlik məsələlərində strateji tərəfdaşlığını inkişaf etdirir. Digər tərəfdən, Çin ilə 2024-cü ildə "Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələrinin Qurulması haqqında Birgə Bəyanat"ın, 2025-ci ildə isə bu münasibətlərin daha da dərinləşdirilməsi istiqamətində qəbul edilən sənədlərin imzalanması Bakı–Pekin əlaqələrini keyfiyyətcə yeni mərhələyə çıxarıb. Eyni zamanda, Aİ Azərbaycan üçün əsas ixrac bazarlarından biri, ən böyük investisiya tərəfdaşı və enerji təhlükəsizliyi sahəsində strateji tərəfdaş olaraq qalmaqdadır. Azərbaycan–Aİ münasibətlərinin formalaşması tarixi, hüquqi və geosiyasi amillərin qarşılıqlı təsiri nəticəsində yaranmış mürəkkəb tərəfdaşlıq modelidir. Bu model Azərbaycanı Aİ-nin Cənubi Qafqaz siyasətində xüsusi əhəmiyyət kəsb edən tərəfdaşa çevirib. Bununla belə, Azərbaycanın Aİ ilə münasibətlərinin digər Şərq Tərəfdaşlığı ölkələrindən prinsipial fərqi mövcuddur. Gürcüstan, Moldova və Ukrayna münasibətlərini Avropa inteqrasiyası və Assosiasiya Sazişi modeli üzərində qurduğu halda, Azərbaycan əməkdaşlığı heç vaxt üzvlük perspektivi ilə əlaqələndirməyib. Rəsmi Bakı Aİ ilə münasibətlərdə milli suverenliyin qorunmasını, xarici siyasətdə qərarvermə müstəqilliyini və qarşılıqlı maraqlara əsaslanan bərabərhüquqlu tərəfdaşlığı prioritet hesab edib. Məhz bu səbəbdən Azərbaycan Assosiasiya Sazişi əvəzinə yeni, daha çevik və tərəflərin maraqlarını əks etdirən hərtərəfli əməkdaşlıq sazişi üzrə danışıqlar aparmağa üstünlük verib. Siyasi baxımdan bu yanaşma Azərbaycanın xarici siyasət fəlsəfəsinin əsas xüsusiyyətini əks etdirir.

***

Hüquqi baxımdan Azərbaycan–Aİ münasibətləri beynəlxalq hüququn fundamental prinsiplərinə əsaslanan müqavilə-hüquqi çərçivə üzərində qurulub. Rəsmi Bakı Aİ ilə əməkdaşlığın bütün mərhələlərində dövlətlərin suveren bərabərliyi, ərazi bütövlüyünə hörmət, daxili işlərə qarışmamaq və qarşılıqlı fayda prinsiplərini dəyişməz siyasi xətt kimi müdafiə etdib. Hazırda Azərbaycan ilə Aİ arasında yeni hərtərəfli çərçivə sazişi üzrə aparılan danışıqlar da bu hüquqi bazanın XXI əsrin geosiyasi və iqtisadi reallıqlarına uyğun yenilənməsini hədəfləyir. İkitərəfli hüquqi münasibətlərdə dönüş nöqtələrindən biri 18 iyul 2022-ci ildə Bakıda Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen və Prezident İlham Əliyev tərəfindən imzalanmış "Enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" oldu. Həmin il Avropada yaranmış enerji böhranı və Rusiya-Ukrayna müharibəsinin yaratdığı geosiyasi dəyişikliklər Aİ-nin enerji mənbələrinin şaxələndirilməsi strategiyasını sürətləndirdi. Belə şəraitdə Azərbaycan etibarlı, siyasi riskləri minimum olan və uzunmüddətli öhdəliklərə sadiq enerji tərəfdaşı kimi ön plana çıxdı. Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin Bakıda Azərbaycanı "etibarlı tərəfdaş" adlandırması məhz bu strateji yanaşmanın siyasi ifadəsidir.

Siyasi dialoq da institusional mexanizmlər vasitəsilə davamlı xarakter almışdır. Son illərdə Prezident İlham Əliyevin Aİ rəhbərliyi ilə keçirdiyi müntəzəm görüşlər, Avropa Komissiyasının rəhbərliyinin Bakıya səfərləri və COP29 çərçivəsində aparılan siyasi dialoq da göstərir ki, Azərbaycan–Aİ münasibətləri artıq Avrasiyanın enerji, nəqliyyat və geosiyasi təhlükəsizlik arxitekturasının mühüm komponentlərindən birinə çevrilib.

2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ildə Azərbaycanın öz suverenliyini bütün ərazisində tam bərpa etməsi Cənubi Qafqazın geosiyasi arxitekturasını əsaslı şəkildə dəyişdirdi. Yeni regional reallıqlar Azərbaycan–Aİ münasibətlərinə də fərqli siyasi məzmun qazandırdı. Məhz bu reallıqlar fonunda Brüssel platforması Azərbaycan və Ermənistan arasında normallaşma prosesinin əsas diplomatik formatlarından birinə çevrildi. 2021–2023-cü illərdə Aİ Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə Brüsseldə keçirilən çoxtərəfli görüşlər regionda sülh sazişi üzrə danışıqların davam etdirilməsi, sərhədlərin delimitasiyası, nəqliyyat-kommunikasiya xətlərinin açılması və humanitar məsələlərin müzakirəsi baxımından mühüm siyasi platforma rolunu oynadı. Bununla yanaşı, Azərbaycan bütün danışıqlar prosesində öz mövqeyini beynəlxalq hüququn fundamental prinsipləri – dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı əsasında formalaşdırdığını ardıcıl şəkildə bəyan etmişdir. Azərbaycanın yanaşmasına görə, regionda uzunmüddətli sülh yalnız beynəlxalq hüququn selektiv deyil, universal tətbiqi əsasında mümkün ola bilər. Azərbaycan–Aİ münasibətlərinin ən mühüm strateji istiqaməti enerji təhlükəsizliyi sahəsində əməkdaşlıqdır. Bu əməkdaşlığın əsasını Cənub Qaz Dəhlizi təşkil edir. Təxminən 3500 kilometr uzunluğa malik olan bu inteqrasiya olunmuş enerji sistemi "Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəməri, Trans-Anadolu Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəməri (TAP) layihələrini birləşdirir. Layihənin ümumi investisiya dəyəri təxminən 40 milyard ABŞ dolları təşkil etmişdir. 2020-ci ilin sonunda TAP-ın kommersiya istismarına verilməsi ilə Azərbaycan qazı ilk dəfə birbaşa Aİ bazarına çıxarıldı. Hazırda Azərbaycan qazı İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya, Slovakiya və digər ölkələrə ixrac olunur. Xəzər dənizinin böyük külək enerjisi potensialı, Azərbaycanın "yaşıl enerji" zonaları konsepsiyası, Qara dənizin dibi ilə çəkilməsi nəzərdə tutulan Azərbaycan–Gürcüstan–Rumıniya–Macarıstan "yaşıl enerji" kabeli layihəsi, "yaşıl hidrogen" istehsalı perspektivləri və bərpaolunan enerji texnologiyalarının inkişafı münasibətləri enerji keçidi mərhələsinin strateji tərəfdaşlığına çevirir.



Son olaraq qeyd edək ki, Prezident İlham Əliyevin həyata keçirdiyi çoxvektorlu xarici siyasət kursu Azərbaycanın ABŞ ilə strateji tərəfdaşlıq, Çin ilə hərtərəfli strateji tərəfdaşlıq və Avropa İttifaqı ilə strateji xarakter daşıyan əməkdaşlığı paralel şəkildə inkişaf etdirməsinə imkan vermişdir. Məhz bu çoxvektorlu diplomatik model Azərbaycanın qlobal güclər arasında etibarlı, müstəqil və praqmatik tərəfdaş kimi beynəlxalq mövqeyini daha da möhkəmləndirən əsas amillərdən biri kimi qiymətləndirilə bilər.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# İrəvanda seçki qalmaqalı bitmir



*(əvvəli 1-ci səhifədə)*

Məhkəmədə ən diqqətçəkən çıxışlardan birini "Birlik qanadları" partiyasının nümayəndəsi, hüquqşünas Liparit Drmeyan edib. O bildirib ki, seçki günü qeydə alınmış çoxsaylı pozuntuların miqyası səsvermənin nəticələrinə təsir göstərə biləcək səviyyədə olub. Onun sözlərinə görə, müxtəlif seçki məntəqələrində aşkar edilən uyğunsuzluqlar və texniki səhvlər seçkinin nəticələrinin ləğvi üçün kifayət qədər əsas yaradır. Drmeyan MSK-nın və digər cavabdeh tərəflərin "pozuntular nəticələrə təsir edəcək həddə olmayıb" arqumentini də qəbul etməyib. O, məhkəməyə müraciətlə sual edib ki, nəticələrin etibarsız sayılması üçün konkret neçə pozuntu baş verməlidir və belə bir meyar mövcuddursa, niyə açıqlanmır. Hüquqşünas vurğulayıb ki, məhkəmə prosesində pozuntuların baş vermədiyini sübut edən hər hansı tutarlı əks-arqument səsləndirilməyib, yalnız onların izahına cəhd göstərilib. Onun fikrincə, Konstitusiya Məhkəməsinin seçkilərin nəticələrini etibarsız hesab etməsi cəmiyyətin bir hissəsində yaranmış şübhələrin aradan qaldırılması və seçki institutuna inamın bərpası baxımından mühüm əhəmiyyət daşıyacaq.

"Çiçəklənən Ermənistan" partiyasının nümayəndəsi Elinar Vardanyan isə əsas ittihamlarını MSK-ya yönəldib. O bildirib ki, ilkin nəticələr hesablanarkən partiyanın topladığı səslər sistemə düzgün daxil edilməyib. Vardanyanın sözlərinə görə, əgər məlumatlar düzgün qeydə alınsaydı, partiya 4 faizlik seçki baryerini keçmiş hesab olunacaq və bəzi seçki məntəqələrində nəticələrin etibarsız sayılması halında təkrar səsvermənin keçirilməsi zərurəti yaranacaqdı. Vardanyan iddia edib ki, MSK məhz sonradan manevr imkanını qorumaq üçün bu məlumatları düzgün əks etdirməyib. O, seçki administrasiyasının pozuntuların miqyasını kiçiltməyə çalışdığını, bunun isə seçki sisteminə ictimai etimadı daha da sarsıtdığını bildirib. Partiya təmsilçisi Konstitusiya Məhkəməsinin qərarının vətəndaşların seçki prosesinə inamının bərpası üçün mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Məhkəmə tərəflərin yekun çıxışlarını dinlədikdən sonra müşavirə otağına çəkilib. Konstitusiya Məhkəməsinin sədri Arman Dilanyan qərarın iyulun 4-də günün sonunadək açıqlanacağını bildirib.

***

Konstitusiya Məhkəməsinin verəcəyi qərar təkcə seçkilərin hüquqi taleyi ilə bağlı deyil, həm də Ermənistanda seçki institutuna etimadın hansı səviyyədə qorunub saxlanılması baxımından mühüm əhəmiyyət daşıyır. Məhkəmə iclaslarında səsləndirilən iddialar göstərir ki, müxalifət əsas diqqəti ayrı-ayrı texniki pozuntulardan daha çox, seçki prosesinin bütövlüyünün şübhə altına alınmasına yönəldib. Buna qarşılıq olaraq MSK və digər dövlət qurumları pozuntuların mövcudluğunu tam inkar etməsələr də, onların səsvermənin yekun nəticələrinə təsir edəcək miqyasda olmadığını bildiriblər.

Mövcud vəziyyət göstərir ki, Konstitusiya Məhkəməsinin seçkiləri tamamilə etibarsız hesab etməsi ehtimalı yüksək qiymətləndirilmir. Çünki bunun üçün yalnız prosedur pozuntularının mövcudluğu deyil, həmin pozuntuların mandat bölgüsünə və seçkinin yekun nəticəsinə birbaşa təsir göstərdiyini təsdiqləyən hüquqi əsaslar tələb olunur. İndiyədək ictimaiyyətə açıqlanan materiallar isə belə nəticəyə gəlmək üçün kifayət qədər güclü hüquqi baza formalaşdırmır.

Prosesin diqqətçəkən cəhətlərindən biri də odur ki, məhkəmə araşdırmaları davam etdiyi günlərdə hakim komandanın daxilində də müəyyən kadr dəyişiklikləri baş verir. Parlamentin sədri Alen Simonyanın deputat mandatından imtina etməsi və onun yerinə Ruben Rubinyanın irəli sürülməsi hakimiyyətin seçkidən sonrakı mərhələdə idarəetmə modelini yeniləməyə çalışdığını göstərən addım kimi qiymətləndirilir. Simonyan qərarın partiya rəhbərliyinə məxsus olduğunu bildirsə də, bu dəyişikliklər seçkilərdən sonra hakim komandanın yeni siyasi konfiqurasiya formalaşdırmaq niyyətindən xəbər verir.

Eyni zamanda, hakimiyyətin seçki qanunvericiliyinə təklif etdiyi yeni dəyişikliklər də müzakirələri daha da gücləndirib. Xaricdə uzun müddət yaşayan Ermənistan vətəndaşlarının səsvermə hüququnun məhdudlaşdırılmasını nəzərdə tutan layihə müxalifət tərəfindən Konstitusiyaya zidd addım kimi qiymətləndirilir. **"Maariflənmiş Ermənistan" partiyasının lideri Edmon Marukyan** hesab edir ki, bu təşəbbüs hüquqi zərurətdən deyil, siyasi məqsədlərdən irəli gəlir. Onun fikrincə, hakimiyyət gələcəkdə Konstitusiyaya dəyişikliklərlə bağlı referendum keçiriləcəyi halda seçici bazasını məhdudlaşdırmaqla tələb olunan səs həddini faktiki olaraq aşağı salmağa çalışır. Siyasətçi "Sputnik Ermənistan"a müsahibəsində deyib: "Ermənistanda uzun müddət yaşamayan vətəndaşların seçki hüququnun məhdudlaşdırılmasını nəzərdə tutan qanun layihəsi təkcə ölkə Konstitusiyasına deyil, həm də beynəlxalq təcrübəyə və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququna ziddir. Vətəndaşın aktiv seçki hüququ, yəni səsvermədə iştirak etmək hüququ onun müəyyən müddət ölkədə yaşamamasına görə heç bir halda məhdudlaşdırıla bilməz". O qeyd edib ki, passiv seçki hüququ, yəni seçilmək hüququ ilə bağlı yaşayış senzi artıq qanunvericilikdə mövcuddur: "Məsələn, son 4 ildə daimi olaraq Ermənistanda yaşamayan şəxs deputatlığa namizəd ola



bilməz. Lakin aktiv seçki hüququna gəldikdə, Ermənistan Konstitusiyasının 2-ci maddəsinə əsasən, hakimiyyət xalqa məxsusdur və xalq bu hakimiyyəti seçkilər və referendumlar vasitəsilə həyata keçirir. Buna görə də 18 yaşına çatmış hər bir vətəndaş səsvermə hüququna malikdir və bu hüquq son altı ay ərzində harada yaşamasından asılı olaraq məhdudlaşdırıla bilməz".

Göründüyü kimi, Ermənistan Konstitusiya Məhkəməsinin qarşısında yalnız seçki mübahisəsini hüquqi müstəvidə həll etmək vəzifəsi dayanmır. Veriləcək qərar ölkədə seçki institutlarına inamın, siyasi rəqabətin və hüquqi legitimliyin gələcək inkişafına da təsir göstərə bilər. Seçkilərin nəticələrinin qüvvədə saxlanılması hakimiyyət üçün hüquqi baxımdan mühüm üstünlük yaratsa da, müxalifətin qaldırdığı məsələlər göstərir ki, seçki prosesinin şəffaflığı və seçki administrasiyasına etimad mövzusu yaxın dövrdə də Ermənistanın siyasi gündəmində qalacaq. Bu baxımdan iyulun 4-də açıqlanacaq qərar təkcə hüquqi sənəd deyil, həm də ölkədə seçkidən sonrakı siyasi atmosferin istiqamətini müəyyənləşdirəcək mühüm qərar kimi qiymətləndirilir.

Xatırladaq ki, iyunun 7-də keçirilmiş parlament seçkilərinin rəsmi nəticələrinə əsasən, yalnız üç siyasi qüvvə parlamentə düşüb. Hakim "Mülki müqavilə" partiyası səslərin 49,74 faizini toplayaraq 64 mandat əldə edib. "Güclü Ermənistan" bloku 23,27 faiz səslə 29, "Ermənistan" bloku isə 9,92 faiz səslə 12 mandat qazanıb. "Çiçəklənən Ermənistan" partiyası 3,98 faiz səslə parlamentdən kənarda qalıb. Bununla hakim partiya parlament çoxluğunu qorusa da, Konstitusiyaya təkbaşına dəyişiklik etmək üçün tələb olunan konstitusion çoxluğu əldə edə bilməyib.

*Səxavət HƏMİD*
*XQ*

*Replika*

# Aleni inqilab "yedi"?

## *Yaxud Simonyanın mandatdan imtinası ilə bağlı 6 səbəb*



**"İnqilab öz övladlarını yeyir". Tarixə nəzər salsaq, bu ifadənin ilk dəfə XVIII əsrin Fransa inqilabına nəzərən istifadə edildiyini söyləyə bilərik. Həmin vaxt sözügedən inqilabın aparıcı simaları edam kürsüsünə çıxarılmışdılar.**

Ümumən, müxtəlif paralellər aparmaq mümkündür. Məsələn, 1917-ci ilin inqilabından sonra Rusiyadakı bolşevik liderləri İosif Stalin dövründə repressiyalara məruz qalmış, 1979-cu ildə İrandakı İslam inqilabının ardınca isə böyük dəyişikliklərdə mühüm rol oynamış şəxslər təmsil olunduqları hakim komanda tərəfindən sıxışdırılmış və "aradan götürülmüşdülər".

Günümüzə gəldikdə, bəzi siyasi müşahidəçilər Gürcüstandakı "Qızıl gül" inqilabının liderlərindən olan və ölkənin baş naziri postunu tutmuş Zurab Jvaniyanın 2005-ci ilin fevralında öz mənzilində ölü tapılmasını da "inqilabın öz övladını yeməsi" ilə əlaqələndirirlər. Əlqərəz, keçək mətləbə.

Mövzumuz Ermənistan Parlamentinin spikeri Alen Simonyanın deputat mandatından imtinasıdır. Elə təəssürat yarandı ki, o, şəxsi həyatını qaydaya salmaq üçün, həmçinin ötən çətin və məsuliyyətli zaman kəsiyindəki fəaliyyəti dövründə xeyli yorulduğundan, yüksək vəzifə tutmaq istəmir.

Ancaq durum fərqli görünür və bunu Simonyanın fikirləri də təsdiqləyir. Axı o, mandatdan imtinası barədə söz açarkən, özündə inciklik hissinin yoxluğunu, iş proseslərinin dəyişiklikləri nəzərdə tutduğunu bildirir. Düşünmək mümkündür ki, Alenin imtina qərarı və müvafiq olaraq spikerlikdən uzaqlaşması hakim "Vətəndaş sazişi" partiyasının müştərək qərarıdır. Partiyanın rəhbəri isə Baş nazir Nikol Paşinyandır. O Paşinyan ki, Simonyan gələcək fəaliyyətini onun siyasi düşərgəsində gördüyünü də açıqlayıb. Amma...

"Əmma" yox, "əmmalar" yetərincədir. Nəzərə alaq ki, A.Simonyan 2018-ci il inqilabından sonra formalaşmış erməni siyasi elitasının ən parlaq simasıdır. Paşinyandan fərqli olaraq, onun, belə demək mümkünsə, dövlət sifəti var. Zahirən də elədir, ayrı-ayrı məsələlərə münasibət tərzi baxımından da eyni fikri söyləmək mümkündür.

İkincisi, gördüyümüz qədərilə, Simonyan təzyiqlərin qarşısında arqumentləşdirilmiş şəkildə dayanmağı bacaran fiqurdur. Halbuki, Nikol bir çox hallarda reaksiyasını emosiyaları ilə bildirir. Bu, kənardan gülünc mənzərə yaradır. Yəni birincinin dövlət siması ikincidən üstündür, özü də qat-qat.

Üçüncüsü, Paşinyan hökumət rəhbəridir, ölkənin lideridir, Ermənistanda isə Simonyandan başqa bu ampluaya yaraşan hansısa başqa obraz yoxdur. Yəni Alen kimi birinə rast gəlinmir. Hətta Prezident Vaaqn Xaçaturyan belə onun kölgəsində qalır.

Dördüncüsü, Simonyanın ritorikasında, ümumən, tipik ermənilik anlayışı yoxdur. O anlayış ki, əslində, böyük ölçüdə xəstəlikdir və sabiq spiker fikirləri ilə mahiyyətcə mərəzdən uzaq durulmasını təlqin edib. Onu da nəzərə alaq ki, bu təbliğat baxımından Alenə çatan kimsə yoxdur. Çünki o, erməni siyasətinin və idarəçiliyinin intellektual təmsilçisi qiyafəsindədir.

Beşinci məqam kimi, bilavasitə Paşinyanla Simonyanın müqayisəsi üzərində dayanaq. Nikol 2018-ci ildən indiyədək dövlət idarəçiliyində nə qədər təcrübə toplasa da, mahiyyətcə küçədən gəlmə siyasətçilikdən çıxa bilmir. Əksinə, Simonyan ciddi simadır və bu cəhət onu, istər-istəməz, Paşinyana alternativə çevirir. Tam mümkündür ki, Alen qarşıdakı müddətdə daha çox nüfuz toplayacaqdı.

Tarix isə göstərir ki, inqilab liderliyi bölüşməyən xarakterə malikdir. Tarixdən o da məlumdur ki, inqilablar ideallar uğrunda başlayır, lakin çox vaxt hakimiyyət uğrunda mübarizə ilə başa çatır. Bu mənada, Simonyan, məsələn, Jvaniyanın, daha əvvələ getsək, Trotskinin, Maratın və ya Robespyerin taleyini yaşamayıbsa, şükr etməlidir.

Altıncısı və ən vacibi budur ki, artıq sabiq olan spiker erməni hakim komandasının Azərbaycanla sülhü və barışı ən qızğın müdafiə edən fiquru statusundadır. Bu mənada, onun bəzən, hətta Paşinyanın özünü də geridə qoyduğunu söyləmək mümkündür. Alenin tutduğu mövqeyə görə Ermənistandakı revanşist və şovinist kəsimin hədəfinə çevrildiyini də vurğulamalıyıq. İndi, o aktiv siyasətdən uzaqlaşırsa, ortaya sual çıxır: Bəlkə Ermənistan daha sülhün təbliğatına ehtiyac duymur?

Bəli, Simonyan ritorikası və özünü ifadə tərzi ilə erməni cəmiyyətinə indiyədək sülhün olmamasına görə, bir növ, utanc hissi aşılayır, habelə, barış mühitinin qaçılmazlığını səlis formada izah edir. Bu izah sadə və son dərəcə təsirlidir.

Qeyd edək ki, ötən ay keçirilmiş parlament seçkilərindən əvvəl A.Simonyanın yeni hakimiyyətdə, hətta prezident postunu tutacağı da bildirilirdi. Onun özü isə dünənki açıqlamasında bunu qəti şəkildə istisna etdi. Belədə daha bir sual yaranır: Simonyan "Vətəndaş sazişi"ndə kölgədə qalmaqla razılaşacaq?

Sonda bir daha "inqilabın öz övladlarını yeməsi" barədə söz açaq. XX əsr ingilis ədəbiyyatının tanınmış şəxsiyyətlərindən biri Corc Oruel deyirdi ki, "bütün inqilablar uğursuz olur, amma hər biri başqa cür uğursuz olur". Yazıçının fikrincə, inqilablar çox vaxt vəd etdikləri azadlığı deyil, yeni hakimiyyət münasibətlərini doğururlar. XIX əsrin fransız diplomatı və tarixçisi Aleksis de Tokvil isə bildirirdi ki, inqilablar bəzən dağıtmaq istədikləri nizamın ən güclü xüsusiyyətlərini miras alırlar. Onun deyimi inqilabdan sonra yaranan hakimiyyətlərin çox vaxt əvvəlki rejimin idarəçilik üsullarını təkrarlaması ideyasını ifadə edir.

Əslində, inqilab romantiklərin arzusu, praqmatiklərin hakimiyyətidir. Daha bir məşhur ifadə inqilabın meydanda qələbə qazanması, kabinetlərdə isə öz qəhrəmanlarını itirməsi ilə bağlıdır. Elə buna görə də prosesin ilk qurbanının köhnə rejim, son qurbanının onun öz liderləri olduğunu bildirirlər. Simonyanın qurban olub-olmadığını isə əlahəzrət zaman göstərəcək.

*Ə.RÜSTƏMOV*
*XQ*

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Yevlaxda

## Abadlaşdırılmış məhəllə istifadəyə verilib



**Yevlax şəhərində abadlaşdırılmış yaşayış məhəlləsi iyulun 1-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə sakinlərin istifadəsinə verilib.**



Prezidentin müvafiq Sərəncamına əsasən həyata keçirilən “Sağlam məhəllə” layihəsi çərçivəsində Gənclər və İdman Nazirliyi tərəfindən məhəllədə idman zonaları yaradılıb. Ərazidə süni örtüklü minifutbol və basketbol meydançaları salınıb. Müxtəlif idman qurğuları, stolüstü tennis və şahmat masaları quraşdırılıb.

Həmçinin Yevlax Şəhər İcra Hakimiyyəti tərəfindən həyətyanı sahədə söhbətgahlar, çoxsaylı oturacaqlar və yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasad və blokları təmir olunub, asfalt örtüyü, elektrik xətləri yenilənib. Həyətin ərazisində ağac, mövsümi gül, eləcə də kol bitkilərindən yaşıllıq zolağı salınıb.

Leyla Əliyeva məhəllədə aparılmış abadlıq işləri ilə tanış olub, IDEA könüllüləri ilə birlikdə mövsümi güllər əkib. Məhəllənin balaca sakinlərinə hədiyyələr təqdim olunub, onlarla şəkillər çəkdirilib.

*XQ*

## Cümə məscidini ziyarət



**İyulun 1-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Yevlax şəhərinə səfəri çərçivəsində Cümə məscidini ziyarət edib.**



Leyla Əliyeva məsciddə dini ayinlərin icrası və ibadət üçün yaradılmış şəraitlə yaxından tanış olub.

Məscidin imamı bildirib ki, Cümə məscidi 1998-ci ildə istifadəyə verilib. Məsciddə eyni anda 600-ə yaxın şəxs ibadət edə bilər. Azad edilmiş ərazilərdə məscidlərin bərpasının din xadimlərini, ibadət əhlini xüsusilə sevindirdiyini bildirən imam Cümə məscidinin də dövlət qayğısı ilə əhatə olunduğunu diqqətə çatdırıb, ölkə rəhbərliyinə minnətdarlığını ifadə edib.

Ziyarətin sonunda Leyla Əliyevaya “Qurani-Kərim” hədiyyə edilib.

*XQ*

## “Gənc arıçı”larla görüş

**İyulun 1-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Yevlaxa səfəri çərçivəsində “Gənc arıçı” layihəsinin iştirakçısı Süleyman Süleymanovun ailəsini ziyarət edib.**

Leyla Əliyeva gənc arıçının ailə üzvləri ilə səmimi söhbət edib, onların yaşayış şəraiti, arıçılıq sahəsindəki fəaliyyəti, əldə etdikləri ilk nəticələr və gələcək planları ilə yaxından maraqlanıb, həmçinin təsərrüfatda pendirin hazırlanması prosesində iştirak edib, ailəyə hədiyyələr təqdim edib.

Görüş zamanı “Gənc arıçı” layihəsi çərçivəsində yaradılmış arıçılıq təsərrüfatı, arı ailələrinin saxlanılması, bal istehsalı və təsərrüfatın gələcək inkişaf imkanları barədə məlumat verilib. Ailə göstərilən diqqət və dəstəyə görə Leyla Əliyevaya minnətdarlığını bildirib, ona arıçılıq məhsulları hədiyyə edib.

Xatırladaq ki, layihə iştirakçısı Süleyman Süleymanov 44 günlük Vətən müharibəsi və antiterror tədbirlərində iştirak edib. O, “Suqovuşanın azad olunmasına görə”, “Cəsur döyüşçü” və “Vətən müharibəsi iştirakçısı” medalları ilə təltif olunub.





*XQ*

## Məktəb binasının açılışı



**İyulun 1-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Yevlax şəhərinə səfəri çərçivəsində Səməd Vurğun adına 5 nömrəli tam orta ümumtəhsil məktəbinin yeni binasının açılışında iştirak edib.**

Elm və təhsil naziri Emin Əmrullayev Leyla Əliyevaya məktəbin tarixi, burada yaradılmış şərait və tədris imkanları barədə məlumat verib. Bildirilib ki, 2024-cü ilin yanvarında köhnə inzibati bina sökülüb və yerində yeni məktəb binasının tikintisinə başlanılıb. Yeni məktəb binası 528 şagird yerlikdir.

Leyla Əliyeva məktəbin kitabxanası, informatika, biologiya və kimya kabinetləri, texnologiya, məktəbə hazırlıq qrupu otaqları, yeməkxana və idman zalında yaradılmış şəraitlə yaxından tanış olub.

Yeni məktəb binasında yaradılmış müasir tədris infrastrukturu şagirdlərin keyfiyyətli təhsil almasına, onların bilik və bacarıqlarının inkişafına, həmçinin müəllimlərin fəaliyyətinin daha səmərəli təşkilinə imkan verəcək.



Məktəbin kollektivi ilə görüşən Leyla Əliyeva onlara uğurlar arzulayıb və xatirə şəkilləri çəkdirib.

*XQ*

## Sahibsiz Heyvanlara Qayğı Mərkəzi regional bölməsinin açılışı

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Yevlax şəhərində yeni yaradılmış Sahibsiz Heyvanlara Qayğı Mərkəzinin regional bölməsinin açılışında iştirak edib.**

Leyla Əliyeva Mərkəzin ərazisində yaradılmış şəraitlə tanış olub, sahibsiz heyvanların qəbulu, müayinəsi, müalicəsi, peyvəndlənməsi, sterilizasiyası və reabilitasiyası üçün nəzərdə tutulan müvafiq sahələrə baxış keçirib.

Qeyd edək ki, Leyla Əliyevanın təşəbbüsü ilə yaradılmış regional bölmənin əsas məqsədi sahibsiz heyvanlara qayğının göstərilməsi, sanitar-epidemioloji sabitliyin təmin olunması, heyvanların uçotunun aparılması, müayinə və müalicəsinin təşkili, eləcə də profilaktik və digər baytarlıq-sanitariya tədbirlərinin həyata keçirilməsidir.

Ümumi ərazisi 2,5 hektar olan kompleksdə müasir avadanlıqla təchiz olunmuş klinika binası, heyvanların müşahidə və müalicəsi üçün xüsusi bölmələr, inzibati və yardımçı binalar, o cümlədən karantin binası inşa edilib.





Qeyd edək ki, Yevlaxda yaradılmış yeni mərkəz Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində “Sahibsiz Heyvanlara Qayğı Mərkəzi”nin regional bölməsi kimi fəaliyyət göstərəcək. Yeni bölmənin Yevlaxda yaradılması şəhərin əlverişli coğrafi mövqeyi və müxtəlif regionları birləşdirən əsas nəqliyyat yollarının qovşağında yerləşməsi nəzərə alınmaqla müəyyənləşdirilib.

*XQ*

# TDT: ortaq humanitar məkan



## II MƏQALƏ

### Strateji məqam

Türk dünyasının inteqrasiyasından bəhs edəndə tərəddüdsüz strateji aspekti düşünmək gərəkdir. Çünki türklər, sadəcə, etnik-mədəni və ya keçmiş tarixi gerçəkliklərə görə bir araya gəlmirlər – əsas hədəf çağdaş dünyanın dərin ziddiyyətlərinin, görünməmiş çağırışlarının mövcud olduğu zamanda davamlı inkişafa nail olmaqdan ibarətdir.

Bu çərçivədə türk dövlətlərinin qonşu regionlarda yerləşən ölkələrlə sülh, sabitlik, təhlükəsizlik və qarşılıqlı paylaşma əsasında münasibətlər qurması ayrıca önəm daşıyır. Hər kəs anlayır ki, bu kimi məqsədlər istər-istəməz dünya miqyasında müstəqil mütərəqqi, birləşdirici və dayanıqlı inkişafın cazibə məkanı olmaq kimi faktorların geosiyasi proyeksiyasını nəzərdə tutur. Onun ümumi ifadəsi isə TDT-nin dünyanın güclü geosiyasi mərkəzlərindən birinə çevrilməsində tapmalıdır.

TDT-yə olan ümid və qəbuledilməzliklərin kökündə bu strateji məqam dayanır. Lakin bunu kimsə açıq demir – müxtəlif üsullarla TDT-ni gücləndirmək planları və proqramlarına qarşı təxribatlar törətməyə çalışırlar. Bu konteksti unutmayaq və "Türk Dünyası Həftəsi" nümunəsində mühüm strateji məqsədə nəzər salaq.

### Ortaq zaman dinamikası

Prezident İlham Əliyev müraciətində türk qövmünə səslənmişdir: "Əminliklə söyləyə bilərik ki, Türk Dövlətləri Təşkilatının ortaq humanitar məkan formalaşdırmaq üçün müasir mərhələdə uğurla gerçəkləşdirdiyi layihələrin bünövrəsində Birinci Türkoloji Qurultayın vaxtilə irəli sürdüyü mütərəqqi fikirlər dayanır".

...Və məqsədə çatmağa böyük inam, əminlik və ümidin ifadəsi: "Türk Dünyası Həftəsi müxtəlif formatda silsilə tədbirləri ilə parlaq tarixi-mənəvi irsimizin yaşadılmasına, öyrənilməsinə və təbliğinə töhfələr verəcək, mədəni həyatımızın əlamətdar hadisələri sırasında özünəməxsus layiqli yer tutacaq və yaddaşlarda silinməz iz qoyacaqdır".

Müraciətin semantik və funksional baxımdan bir-birini tamamlayan bu iki fraqmenti özündə bir neçə vacib məqamı ehtiva edir. Burada ortaq humanitar məkanın yaradılması məharətlə və realpolitika kontekstində qoyulur, türk qövmü ilə dünyanın ortaq Zaman dinamikasında mühüm tərəfləri göstərilir, türklərin proqramları həyata keçirməsi mexanizmlərinin ünvanlarına işarələr edilir! Bunların hər biri o dərəcədə əhəmiyyətlidir ki, üzərlərində xüsusi dayanmağa ciddi ehtiyac vardır.

### Ortaq humanitar məkan

Fəlsəfi, psixoloji, kulturoloji və politoloji ədəbiyyatlara "ortaq humanitar məkan" ifadəsi yad deyildir. Ümumi anlamda ortaq humanitar məkan dövlətlər və toplumlar arasında əlaqələrin elə inkişafını nəzərdə tutur ki, mədəniyyət, tarix, ideya, ideologiya, elm, təhsil, idman və turizm sferaları üzrə ölkələr birləşə bilsinlər. Onu da vurğulayırlar ki, ortaq humanitar məkan etimad və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə xidmət edir. Bu keyfiyyətdə ortaq humanitar məkanın yaradılmasını mədəniyyət diplomatiyası və "yumşaq güc"ün vacib alətlərindən biri kimi qiymətləndirirlər.

Digər tərəfdən, tədqiqatçılar ortaq humanitar məkan anlayışının semantik hüdudlarının dəyişkən olduğunu vurğulayırlar. Yəni müəyyən qrup ölkələr üçün ortaq humanitar məkanın əsas istiqamətlənmə fokusu başqa regionlardan fərqlənə bilər. Bu da ortaq humanitarlığı müəyyən edən faktorların xüsusi mexanizm və məqsədəuyğun seçilməsi anlamına gəlir.

Məsələn, tarixi və geosiyasi xarakterli faktorlara üstünlük verilə bilər. O cümlədən Türk dünyası üçün tarixi köklər, dil və ənənə xüsusi aktuallıq kəsb edir. Bu baxımdan ortaq əlifba və ortaq dil məsələləri vacibliyini saxlamaqdadırlar. Aydındır ki, bu özəllik Türk dünyası üçün yaradıcı və elmi ziyalı camiyələr arasında dialoqu olduqca əhəmiyyətli edir. Humanitar məkan yaradıcılığa canatmada insanları birləşdirir. Hətta siyasi, sosial, ideoloji və digər praqmatizm duyğusal (emosional) paylaşmanı istisna etmir.

Bunlardan TDT kontekstində olduqca aktual bir nəticə hasil etmək olar – Türk dünyası üçün "ortaq humanitar məkan" anlayışı xüsusi anlama, məzmuna və məqsədə malikdir. Qürurvericidir ki, bu məqamı gündəmə Azərbaycan Prezidenti gətirmiş və onun konseptual ifadəsini ərz etmişdir. Bu əsasda "ortaq humanitar məkan" anlamı TDT üçün özəl məna kəsb edir. Qısaca, "Türk Dünyası Həftəsi" fonunda onun üzərində dayanaq.

### Türk dünyasına daxildən baxış

Ulu öndər Heydər Əliyevin məşhur "bir millət, iki dövlət" kəlamında ifadə olunan məna ilə, onun praktiki reallaşmasının potensial faydası arasındakı optimal nisbət özünün tarixi, siyasi və geosiyasi yaşarlılığını artıq sübut etmişdir. Bu kəlamda Türk dünyasına daxili tarixi, siyasi, geosiyasi, mədəni və dövləti "tale" məsələsinə çağdaş dünyanın çağırışlarının qarşılıqlı əlaqəsində məharətli yanaşma ifadə edilmişdir.

Bir tərəfdən, kəlamda türklərin cəmiyyət və dövlət olaraq bir olmalarının zəruriliyi lakonik ifadə edilmişdir (kəlamın "bir millət" qismində), digər tərəfdən isə müasir qlobal mühitin şərtlərinin "türk dövlətçilik maraqları" ilə sıx surətdə nəzərə alınması ("iki dövlət" qismi) dəqiq əks olunmuşdur. Yəni bir millətin etnik, tarixi, dini, mədəni, mənəvi, əxlaqi tamlığı fonunda iki dövlətinin mövcudluğu real siyasi və geosiyasi birliyə aparan yol axtarışlarını aktuallaşdırmalıdır. TDT bu axtarışların birbaşa siyasi ifadəsidir.

Buradan məsələyə "xaricdən siyasi baxış"ın təhlilinə keçmək olar.

### Türk dünyasına xaricdən baxış

Etiraf etməliyik ki, müasir mərhələdə bu aspekt olduqca əhəmiyyətlidir. İndi dünya miqyasında güclü dövlətlərin maraqları mürəkkəb şəbəkə formasında özünü göstərir ki, dövlətlər qrupunun ona reaksiyası müstəqillik və suverenlik baxımından prinsipial məna kəsb edir.

Təcrübə göstərir ki, bu şərtlər daxilində dünyada təsirli güc olmaq niyyətində olan dövlətlər qrupu xeyli mürəkkəb, riskli və ziddiyyətli təsir mexanizmləri ilə rastlaşırlar. Xüsusilə, qlobal dünya üçün bir neçə əsrdən sonra türklərin tarix, mədəniyyət, ideologiya və siyasətdə (dövlət olaraq) bir araya gəlməsini, dirçəlməsini, sürətli inteqrasiya mərhələsinə yüksəlməsini həzm etmək asan deyildir. TDT türklər üçün ümid, sülh və inkişafdırsa, bir sıra dairələr üçün ciddi rəqibdir. Bu məqam "xaricdən siyasi baxışda" geniş surətdə özünü göstərir. Əlamətləri hansılardır?

### İnformasiya həmlələri

Bu həmlələr çox müxtəlif forma və məzmunda hər şeydən öncə türklərin ortaq humanitar məkanının formalaşması qarşısını almağa yönəldilir. Artıq həmin istiqamətdə xaricdən təsirlər sistemli, davamlı və amansız informasiya səviyyəsinə yüksəlmişdir. Hədəf hər bir türk dövləti və cəmiyyətində layiqsizlik sindromu yarada bilən informasiyaların dəfələrlə təkrarlanmasından ibarətdir. Cəmiyyətin elitasından tutmuş ziyalı və bütövlükdə yaradıcı təbəqəsinə qədər, fəhləsindən başlamış gənc kəsiminədək müxtəlif aspektlərdə çaşqınlıq, yayğınlıq, antidövləti əhvali-ruhiyyə, saxta azərbaycançılıq ideya yönünü formalaşdırma cəhdlərinə kimi geniş çeşiddə dağıdıcı təsirləri hiss edirik. Bu sırada Azərbaycanın ailə institutuna həm fərdi birgəyaşam, həm də sosial institut olaraq layiqsizlik sindromunu aşılamaq cəhdləri xüsusi yer tutmaqdadır. Bu zaman, adətən adi məişət hadisələrini "heyrətedici statistik göstəricilər" işığında "faktlara əsaslanaraq" izah etmək cəfəngiyyatı aparıcı yer tutur.

Bunun fonunda xüsusi olaraq təşkil edilmiş qruplar vasitəsilə ləkələmə, qarayaxma və dezinformasiya xarakterli fəaliyyətlər daha təhlükəli həddə çatmışdır. Nəticədə hər bir türk dövləti və bütövlükdə TDT üçün bu dağıdıcı informasiya və ideologiya fəaliyyətinə qarşı səmərəli mübarizə aparmaq ön sıraya çıxır.

### Dezinformasiya

Həqiqətə uyğun olmayan, süni intellekt vasitəsilə quraşdırılmış və təbii kimi görünən informasiyaların genişlənməsi narahatlıq doğurur. Türk dövlətləri və cəmiyyətlərinin hər birində bütövlükdə türk mədəniyyəti, siyasəti, ideologiyası, idarəetmə üsulları ilə bağlı yalan informasiyalar yayırlar. Sosial şəbəkələrdə bu yalanlar "cilalanır", "daha inandırıcı və faktlara əsaslanan məlumat" formasına salınır və ictimai rəy dövriyyəsinə buraxılır. Saxta profillər "peşəkar ekspert" stasusunda dezinformasiyanı gerçək fakt kimi təqdim etməyə çalışırlar. Hətta son vaxtlar bir sıra analitik saytlarda bu əlamət özünü göstərir. Yazı manerası və təhlil üslubundan, metaforaların istifadə qaydası və məntiqindən bilinir ki, onlar hansı "mətbəx"də hazırlanmışdır. Ancaq bunun üçün xüsusi yanaşma gərəkdir. Adi oxucu üçün çətin bir işdir.

### Kibertəhlükəsizlik

Bütün bunlarla uğurlu mübarizə dəqiq, ən müasir üsul və metodlara əsaslanan, süni intellektin imkanlarından geniş istifadə edən fəaliyyət əsasında mümkün ola bilər. Bu baxımdan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə keçirilən Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclasında irəli sürdüyü aşağıdakı tezis çox ciddi əhəmiyyət kəsb edir.

Mehriban xanım Əliyeva ifadə etmişdir: "Süni intellekt artıq gələcəyin deyil, bu günün əsas inkişaf amilidir. Eyni zamanda, süni intellektin dövlətlərin təhlükəsizliyinin təmin edilməsində rolu artmaqdadır və artıq mərkəzi yer tutur. Sirr deyil ki, dünyanın aparıcı dövlətlərində süni intellektin inkişafı gözlənilən proqnozlardan daha sürətli gedir və bu, öz növbəsində, həm yeni imkanlar, eyni zamanda, yeni təhlükələr yaradır. Biz yeni çağırışlara, xüsusilə kibertəhlükəsizlik və informasiya təhlükəsizliyi sahəsində olan və yaranan risklərə hazır olmalıyıq".

Vurğulanan iki istiqamətdə Azərbaycanın uğurlu olması məsələsi strateji anlam daşıyır və həmin istiqamətdə Rəqəmsal İnkişaf Şurasının səmərəli addımlar atacağına qətiyyən şübhə yoxdur!

### Sivilizasiya amili

TDT üçün sivilizasiya faktorunun çox mühüm rol oynadığını ayrıca qeyd etmək lazımdır. Xüsusilə ortaq humanitar məkan formalaşdırmaq prosesində sivilizasiyalılıq çox aktuallıq daşıyır.

Türk sivilizasiyası anlamı uzun müddət bir sıra dairələr tərəfindən qəbul edilmirdi. Müxtəlif qondarma "elmi arqumentlərlə", ümumiyyətlə, türklərin sivil toplum yaratmaq potensialının və praktikasının olmadığı cəfəngiyyatı gözə üfürülürdü. Onların sırasında "sivilizasiyaları tarixin məhkəməsi qarşısına çıxaran" Arnold Toynbi kimi alimlər də vardı. Alman tarixçisi F.V.Radloff və fransız tarixçisi J.P.Roux bu mövqeyə yaxın idilər.

Lakin bu mümkün yanaşmalardan biri idi. Digər sanballı və nüfuzlu tədqiqatçılar türk qövmünün özünəməxsus sivilizasiya yaratdığını və hətta onun yaxın ərazilərdəki fərqli sivilizasiya nümunələrinə ciddi təsir göstərdiyini vurğulamışlar. Onların sırasında yunan tarixçisi və filoloqu, Macarıstan Akademiyasının həqiqi üzvü (1913-cü ildə) olmuş J.Darkonu göstərə bilərik. "Vyana məktəbi"nin görkəmli nümayəndələrindən olan C.V.Findley, V.Koppers, O.Menghin və digərləri "Turan mədəniyyət mühiti"nin başqa sivilizasiyalara təsirindən bəhs etmişlər.

Bütün bunlara görə, TDT-nin mövcudluğunda və fəaliyyətində sivilizasiya faktoru fundamental dəyərlərdən biri kimi qəbul edilməlidir. Azərbaycan Prezidenti İlham Əliyevin aşağıdakı tezisləri həmin prizmada çox aktual və strateji mənası olan məqamı ifadə edir. Ölkə rəhbəri müraciətində demişdir: "Türk dünyası ailəsi böyük bir sivilizasiya yaratmış əcdadlarımızın şəninə yaraşan tərzdə əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən biri olmaq yolundadır. Biz bu ailənin möhkəmliyi və sarsılmazlığı naminə var qüvvəmizi bundan sonra da əsirgəməyəcəyik".

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Şirvanda şəhid ailələri ilə görüş



**Şirvan Şəhər İcra Hakimiyyətində şəhid ailələri ilə görüş keçirilib. Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov Prezident İlham Əliyevin ərazi bütövlüyümüzün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş hərbi qulluqçuların və mülki işçilərin təltif edilməsi haqqında imzaladığı sərəncamın Vətən uğrunda canından keçmiş qəhrəmanların xatirəsinə göstərilən yüksək ehtiramın növbəti təzahürü olduğunu bildirib.**

Qeyd edilib ki, şəhidlərin əziz xatirəsi xalqımızın qəlbində daim yaşayacaq. Onların qəhrəmanlığı gələcək nəsillər üçün örnəkdir. Ölkəmizdə şəhidlərin müqəddəs xatirəsinin əbədiləşdirilməsi, qəhrəmanlıq irsinin yaşadılması və onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi daim diqqət mərkəzində saxlanılır.

Çıxış edən digər natiqlər dövlət təltifi münasibətilə şəhid valideynlərini və ailə üzvlərini təbrik edərək şəhidlərin qəhrəmanlığının hər zaman böyük ehtiramla anılacağını vurğulayıblar.

Görüşdə şəhid ailələrinin müraciət və təkliflərini dinlənilib, qaldırılan məsələlərin həlli ilə bağlı müvafiq tapşırıqlar verilib.

Şəhid ailələri adından çıxış edənlər göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirərək övladlarının qəhrəmanlığının dövlət tərəfindən yüksək qiymətləndirilməsini böyük qürur hissi ilə qarşıladıqlarını söyləyiblər.

***Mikayıl NƏRİMANOĞLU,***
***XQ-nin bölgə müxbiri***

*Təqvimin qara səhifəsi*

# Erməni terrorizminin unudulmaz üz qaralığı

*Qanlı aksiya 13 insanın həyatına son qoymuşdu*



**1994-cü il iyulun 3-də Bakı Metropolitenində törədilən terror hadisəsi Azərbaycanın Qarabağ münaqişəsi fonunda ağır ictimai-siyasi vəziyyət yaşadığı dövrə təsadüf edirdi. Həmin illərdə ölkəmizdə sabitliyi pozmağa, cəmiyyətdə qorxu və panika yaratmağa yönəlmiş terror hadisələri baş verirdi. Bakı metrosu kimi insanların sıx toplaşdığı nəqliyyat sisteminin hədəf seçilməsi xüsusilə böyük narahatlıq yaratmışdı.**



Həmin il martın 19-da "20 Yanvar" stansiyasında baş vermiş dəhşətli partlayışdan cəmi bir neçə ay sonra iyulun 3-də səhər saat metronun "28 May" və "Gənclik" stansiyaları arasında hərəkət edən elektrik qatarının ikinci vaqonunda güclü partlayış baş verdi. Platformaya, təxminən 500 metr qalmış məsafədə qəfil partlayış və vaqonları bürüyən güclü yanğın nəticəsində 13 nəfər sərnişin həlak oldu, 58 nəfər isə ağır bədən xəsarətləri aldı.

Terror cinayətinin arxasındakı dəhşətli faktlar və xain plan istintaq və məhkəmə araşdırmaları zamanı bütün çılpaqlığı ilə üzə çıxdı. Erməni terrorizminin mahiyyəti təkcə ideoloji şovinizmlə deyil, həm də beynəlxalq səviyyədə sistemləşdirilmiş və müxtəlif dövrlərdə icra edilmiş qanlı metodlarla həyata keçirilib. 1970-1980-ci illərdə ASALA kimi terror təşkilatlarının yaradılması bu ideologiyanın dövlətlərarası münasibətlərə qarşı terroru birbaşa silah kimi istifadə etdiyinin əyani sübutudur.

Xalqımız dəfələrlə erməni terror təşkilatının üzvlərinin törətdikləri amansız qətliamlara məruz qalıb. Tarix boyu yetərli siyasi və hərbi gücü olmayan ermənilər vahid yaşayış məkanının əldə edilməsi üçün ərazilərimizdə bütün yollara əl atıblar. Müxtəlif terror aktları törətmək dünyanın hər yerinə səpələnmiş ermənilər üçün effektiv alət idi. İfrat millətçilik əhvali-ruhiyyəsindən doğan və "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni terrorizmi daim ermənilərin dəyişən siyasi məqsədlərinə uyğunlaşırdı.

1980-ci illərdə Ermənistanın Qarabağ bölgəsinə qarşı qanunsuz və əsassız ərazi iddialarının ortaya çıxması ilə erməni terror təşkilatlarının fəaliyyəti Azərbaycana yönəldi. Həmin dövrlərdə erməni terrorçularının ölkəmizin ərazisində, əsasən, sərnişin avtobuslarının və metro qatarlarının partlayışları ilə müşahidə olunan terror aktları qeydə alınmışdı.

XX əsrin əvvəllərindən başlayan etnik təmizləmə siyasətinin davamı kimi 1990-cı illərdə Qarabağ və ətraf rayonlarda törədilən qanlı cinayətlər, Xocalı soyqırımı, Qaradağlı və Başlıbel qətliamları kimi vəhşiliklər erməni hərbi-siyasi dairələrinin mülki insanlara qarşı necə amansız və qəddarlığını dünya tarixinə qanlı hərflərlə yazmışdır.

Erməni terrorizmi nəsildən-nəslə ötürülən və "erməni məsələsi" adı altında törədilən cinayətləri "qəhrəmanlıq" kimi təqdim edən köklü, destruktiv bir mahiyyətdir ki, bu da beynəlxalq hüququn norma və prinsiplərinə, habelə bəşəri əxlaq dəyərlərinə qarşı ən böyük təhdidlərdən biridir. 1994-cü ildə Bakı metrosunda baş vermiş faciə yalnız insan itkisi ilə deyil, həm də cəmiyyətin yaddaşında yaratdığı izlərlə yadda qaldı.

***Mustafa KAMAL***
***XQ***

*Günün şərhi*

# Azərbaycan Avropa İttifaqının regionda əsas tərəfdaşıdır



**(əvvəli 1-ci səhifədə)**

Bu xüsusda Prezident İlham Əliyev Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə mətbuata birgə bəyanatla çıxışı zamanı bildirdi: "Əməkdaşlığımızı genişləndirmək və tərəfdaşlığımızı gücləndirmək məqsədilə hər iki tərəfin qarşılıqlı iradəsini əks etdirən münasibətlərimizdə görünməmiş dinamika müşahidə olunur. Biz Avropa Komissiyası ilə münasibətləri yüksək dəyərləndiririk".

Qeyd edək ki, ticarət, enerji və nəqliyyat bağlantıları Azərbaycan–Avropa İttifaqı əməkdaşlığının əsas istiqamətlərini təşkil edir. Dövlət başçısı qeyd etdi ki, Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır: "Ticarətimizin 40 faizdən çoxu üzv dövlətlərlə aparılır və Azərbaycan Avropa İttifaqı üçün Cənubi Qafqazda əsas ticarət tərəfdaşıdır. Cənubi Qafqazda ticarətin təxminən 70 faizi Azərbaycanla aparılır".

Məlumat üçün bildirək ki, 2025-ci ildə Azərbaycan ilə Aİ-yə üzv ölkələr arasında ticarət dövriyyəsinin həcmi 19,770 milyard ABŞ dollarına çatıb. Bu, 2024-cü illə müqayisədə 177,4 milyon ABŞ dolları və ya 0,9 faiz çoxdur. Hesabat ilində Azərbaycanın Aİ ölkələrinə ixracı 0,8 faiz artaraq 16,9 milyard ABŞ dolları, Aİ ölkələrindən idxalı isə 1,6 faiz artaraq 2,826 milyard ABŞ dolları təşkil edib. Həmin dövrdə Aİ ölkələrinin Azərbaycanın ümumi ixracında payı 67,66 faiz, idxalında isə 11,59 faiz olub.

Cari ilin yanvar–mart aylarında isə Azərbaycan ilə Aİ-yə üzv ölkələr arasında ticarət dövriyyəsinin həcmi 4,104 milyard ABŞ dolları olub. Aİ ölkələrinin Azərbaycanın ümumi ixracında payı 65,53 faiz, idxalında isə 14,09 faiz olub. Ölkənin Aİ bazarına ixracında əsas yeri neft və təbii qaz məhsulları tutur. Avropa İttifaqından ölkəmizə isə əsasən maşınqayırma məhsulları, nəqliyyat avadanlıqları, kimya sənayesi məhsulları və digər yüksək texnologiyalı məhsullar idxal edilir.

***

Məlum olduğu kimi, enerji əməkdaşlığı Bakı–Brüssel münasibətlərinin əsas hərəkətverici qüvvələrindən biri olmaqla yanaşı, tərəfdaşlığın strateji istiqamətini müəyyənləşdirən başlıca sahə hesab edilir. Hazırda Azərbaycan Avropa İttifaqının 10 üzv dövlətinə təbii qaz ixrac edir.

Bu əməkdaşlıqda mühüm dönüş nöqtəsi 2022-ci il iyulun 18-də Azərbaycan Respublikası ilə Avropa Komissiyasının təmsil etdiyi Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması oldu. Həmin dövrdə Rusiya qazından asılılığın yaratdığı çətinliklərlə üzləşən Aİ enerji təchizatının şaxələndirilməsi məqsədilə Azərbaycana üz tutdu.

O vaxtdan Azərbaycan Aİ-yə təbii qaz ixracını 65 faiz artırıb. Əslində isə enerji tərəfdaşlığının əsası daha əvvəl qoyulub. Bu sahədə əməkdaşlıq artıq 20 ilə yaxındır ki, davam edir. Belə ki, 2006-cı ildə tərəflər arasında Anlaşma Memorandumu, 2011-ci ildə isə Cənub Qaz Dəhlizinə dair Birgə Bəyannamə imzalanıb. Bu sənədlər Azərbaycan–Aİ enerji əməkdaşlığının möhkəm təməl üzərində qurulduğunu və zamanla strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini göstərir.

Əldə olunan nəticələr də bunu təsdiqləyir. Cənub Qaz Dəhlizi vasitəsilə son bir il və 2026-cı ilin ilk dörd ayı ərzində Azərbaycan Avropaya 16,7 milyard kubmetr təbii qaz ixrac edib. 2025-ci ildə ölkənin ümumi qaz ixracı 25,2 milyard kubmetr təşkil edib ki, bunun da yarıdan çoxu Avropa İttifaqı ölkələrinin payına düşüb.

Azərbaycanı Avropa üçün cəlbedici edən əsas amillərdən biri də onun əlverişli coğrafi mövqeyidir. Region geosiyasi baxımdan mürəkkəb və həssas mövqedə yerləşsə də, Azərbaycan uzun illər ərzində nəqliyyat infrastrukturuna yönəltdiyi iri investisiyalar hesabına bu üstünlüyü iqtisadi imkana çevirə bilib. Nəticədə ölkə nəqliyyat, logistika və tranzit sahəsində rəqabətqabiliyyətli mövqe qazanaraq beynəlxalq yükdaşımalarında etibarlı tərəfdaş kimi möhkəmlənib. Azərbaycanın regional nəqliyyat-logistika mərkəzinə çevrilməsi, Şərq–Qərb və Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizlərində oynadığı aparıcı rol ölkəmizin strateji əhəmiyyətini daha da artırıb.

Bu gün Azərbaycan artıq yalnız enerji ixracatçısı deyil, həm də Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən mühüm nəqliyyat qovşağıdır. Orta Dəhlizin inkişafı, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının genişləndirilməsi, müasir dəmir yolu şəbəkəsinin qurulması və azad edilmiş ərazilərdə həyata keçirilən infrastruktur layihələri ölkənin tranzit potensialını əhəmiyyətli dərəcədə gücləndirib. Məhz bu strateji üstünlüklər Avropa İttifaqının da Azərbaycana marağını artırır. Təsadüfi deyil ki, ölkəmiz Aİ-nin irəli sürdüyü "Qlobal Qapılar" (Global Gateway) təşəbbüsünün əsas tərəfdaşlarından biridir.

Bununla yanaşı, Azərbaycan və Ermənistan arasında de-fakto sülhün əldə olunmasından sonra regionda yeni nəqliyyat imkanları formalaşmağa başlayıb. Azərbaycanın Ermənistana yönələn yüklərin öz ərazisindən tranzitinə qoyduğu məhdudiyyətləri aradan qaldırması və Zəngəzur dəhlizi ilə bağlı əldə olunan razılaşmalar bölgənin nəqliyyat xəritəsinə müsbət təsir göstərib. Avropa İttifaqı da Bakı ilə İrəvan arasında nəqliyyat bağlantılarının genişlənməsini uzunmüddətli sülhün möhkəmləndirilməsi baxımından mühüm amil hesab edir.

Bu baxımdan Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayen bildirib: "Biz "Qlobal Qapılar" Sərmayə Proqramımız vasitəsilə Cənubi Qafqazda nəqliyyata, enerjiyə və rəqəmsal keçidlərə 200 milyon avroya qədər qrant şəklində sərmayə yatıracağıq. Bunun dövlət və özəl sərmayələr formasında 2 milyard avroya qədər vəsaitləri cəlb etmək potensialı var. Layihələrə Naxçıvandan keçən dəmir yolu bağlantısı və ya Bakı limanının inkişaf etdirilməsi daxil ola bilər".

O, Cənubi Qafqazın Avropa, Xəzər regionu və Mərkəzi Asiyanı birləşdirən mühüm geostrateji məkan olduğunu vurğulayaraq bildirib: "Regional əməkdaşlığı və sabitliyi irəli aparmaq üçün çox az sayda ölkənin sizin ölkəniz kimi yerləşməsi var. Azərbaycan öz strateji coğrafiyasını artan iqtisadi, siyasi və regional nüfuzu ilə düşünülmüş şəkildə birləşdirir. Məhz buna görə biz Avropa İttifaqı-Azərbaycan Bağlantı Tərəfdaşlığının başlanılmasını təklif edirik. Bu, nəqliyyat, enerji və rəqəmsal bağlantını əhatə etməklə Yüksəksəviyyəli Bağlantı Dialoqu ilə sıx bağlıdır. Həmçinin yaxşı olardı ki, burada - Bakıda Regional Bağlantı Sərmayə Konfransının təşkil edilməsi üzərində də işləyək. Beləliklə Avropanı, Cənubi Qafqazı və Mərkəzi Asiyanı bir araya gətirəcəyik".

Qeyd edək ki, Ursula Fon der Lyayenin irəli sürdüyü "Aİ–Azərbaycan Bağlantı Tərəfdaşlığı" təşəbbüsü Aİ-nin Azərbaycanı yalnız etibarlı enerji təchizatçısı kimi deyil, həm də Avropa, Cənubi Qafqaz və Mərkəzi Asiyanı birləşdirən geostrateji bağlantı mərkəzi kimi qiymətləndirdiyini nümayiş etdirir. Bu yanaşma Bakı-Brüssel əməkdaşlığının gələcəkdə nəqliyyat, logistika, rəqəmsal infrastruktur və investisiya sahələrində daha da genişlənə biləcəyinə işarə edir.

Aİ ilə Azərbaycan arasında əməkdaşlığı dərinləşdirən əsas istiqamətlərdən biri də "yaşıl enerji" sahəsidir. Azərbaycanın zəngin günəş, külək və su elektrik enerjisi potensialı ölkəyə gələcəkdə Avropanın bərpaolunan enerji təchizatında mühüm rol oynamaq imkanı yaradır. Məhz bu baxımdan Avropa Komissiyası Azərbaycanı Avropa İttifaqı ilə birləşdirəcək "Yaşıl Enerji Dəhlizi"nin yaradılması təşəbbüsünü dəstəkləyir və bu istiqamətdə əməkdaşlığı strateji prioritetlərdən biri kimi qiymətləndirir.

***Musa BAĞIRLI***
***XQ***

# Qara Dəniz Ticarət və İnkişaf Bankının Bakı Forumu



**Dünən Bakıda Azərbaycan Respublikasının sədrliyi ilə keçirilən Qara Dəniz Ticarət və İnkişaf Bankının (QDTİB) Rəhbərlər Şurasının 28-ci illik toplantısı çərçivəsində "Bazarların əlaqələndirilməsi və iqtisadiyyatların şaxələndirilməsi: Azərbaycan regional qovşaq rolunda" mövzusuna həsr olunmuş biznes-forumu keçirilib.**

QDTİB və AZPROMO-nun birgə təşkilatçılığı ilə keçirilən toplantıda Azərbaycanın iqtisadi inkişaf prioritetləri, regional əməkdaşlığın genişləndirilməsi, bankın ölkəmizdə həyata keçirdiyi layihələr, eləcə də inkişafın maliyyələşdirilməsi sahəsində mövcud tendensiyalar və çağırışlar ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycanın maliyyə naziri, QDTİB-in Azərbaycan üzrə rəhbəri Sahil Babayev çıxış edərək ölkəmizin Avropa ilə Asiyanı birləşdirən mühüm iqtisadi və nəqliyyat qovşağı kimi strateji əhəmiyyətindən bəhs edib. Qeyd olunub ki, dayanıqlı iqtisadi inkişafın təmin olunması üçün nəqliyyat bağlantılarının inkişafı ilə yanaşı, iqtisadiyyatın şaxələndirilməsi, güclü özəl sektorun formalaşdırılması, rəqabətqabiliyyətli şirkətlərin inkişafı və regional, eləcə də qlobal dəyər zəncirlərinə inteqrasiyanın gücləndirilməsi əsas prioritetlərdəndir.

Qara Dəniz Ticarət və İnkişaf Bankı ilə əməkdaşlığın Azərbaycan üçün xüsusi əhəmiyyət daşıdığını vurğulayan nazir xüsusilə kiçik və orta sahibkarlığın dəstəklənməsi istiqamətində tərəfdaşlığın daha da genişləndirilməsində maraqlı olduqlarını bildirib. O, prioritet inkişaf istiqamətlərinin maliyyələşdirilməsində yerli maliyyə institutlarının və özəl investorların rolunu da diqqətə çatdırıb: "Yeni imkanların reallaşdırılması üçün hökumətlər, beynəlxalq maliyyə institutları, kommersiya bankları və biznes dairələri arasında sıx tərəfdaşlığın davam etdirilməsi mühüm əhəmiyyət kəsb edir".

Qara Dəniz Ticarət və İnkişaf Bankının prezidenti Sərhat Köksal isə bildirib ki, Azərbaycan bazarların əlaqələndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi və əməkdaşlıq vasitəsilə dayanıqlılığın möhkəmləndirilməsi istiqamətində ardıcıl və məqsədyönlü siyasət həyata keçirir. Karbohidrogen ehtiyatlarından asılılığın azaldılması, qeyri-neft sektorunun inkişafı, sahibkarlığın təşviqi və regional bağlantıların gücləndirilməsi istiqamətində görülən işlər investisiya və əməkdaşlıq üçün yeni imkanlar yaradır.

Sərhat Köksal onu da bildirib ki, bankın Azərbaycanla əməkdaşlığı artıq 20 ildən çoxdur qarşılıqlı etimad, ortaq məqsədlər və özəl sektorun inkişafının transformativ roluna əsaslanan tərəfdaşlıq prinsipləri üzərində inkişaf edib. Bank rəhbəri bu müddət ərzində QDTİB maliyyə institutları, istehsal, ticarət, energetika və digər sahələri əhatə edən çoxsaylı layihələri dəstəkləməklə yeni iş yerlərinin yaradılmasına, rəqabətqabiliyyətliliyin artırılmasına və dayanıqlı iqtisadi artımın təşviqinə mühüm töhfə verdiyini diqqətə çatdırıb.

Bank rəhbəri biznes-forumun Azərbaycanın gələcək inkişafının dəstəklənməsi baxımından əhəmiyyətini vurğulayaraq tədbirin yeni tərəfdaşlıqların qurulması, investisiya imkanlarının dəyərləndirilməsi və işgüzar əlaqələrin genişləndirilməsi üçün əlverişli platforma olduğunu qeyd edib.

Sonra QDTİB ilə Azərbaycan arasında əməkdaşlığın inkişaf yolunu əks etdirən videoçarx nümayiş etdirilib.

Forum öz işini gündəliyə panel sessiyalar və maliyyə institutlarının nümayəndələri arasında ikitərəfli (B2B) görüşlərlə davam etdirib.

***XQ***

*Unudulmaz tarixlər*

# Cənubi Qafqaz Kəməri "Şahdəniz"i Türkiyəyə qovuşdurub

## *Bu boru xətti indiyədək 278 milyard kubmetr "mavi yanacaq" nəql edib*

**Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağından çıxarılan təbii qazın Türkiyəyə çatdırılmasından 19 il ötür. 2006-cı il mayın 21-də Səngəçal terminalında Cənubi Qafqaz boru kəmərinə vurulan "mavi yanacaq növbəti ilin iyul ayının 3-də Gürcüstan sərhədini aşaraq qardaş ölkənin qaz kəmərləri sisteminə daxil olub. Bununla da iki ölkə arasında enerji əməkdaşlığı yeni mərhələyə qədəm qoyub.**




Azərbaycan qazının Qərb istiqaməti ilə nəqli ideyasını ilk dəfə ulu öndər Heydər Əliyev irəli sürüb. Belə ki, 1999-cu il iyulun 12-də "Şahdəniz" yatağında aparılan qazma-kəşfiyyat işləri üzrə əldə edilmiş nəticələrin təqdimatına həsr olunmuş mərasimdə iştirak etmiş Ümummilli lider ilkin nəticələrdən məmnunluğunu ifadə edərək təbii qazın ixracı məsələsinə də münasibət bildirib. Azərbaycanın karbohidrogen ehtiyatlarının daha çox Qərb istiqaməti ilə ixracına üstünlük verən Heydər Əliyev qardaş Türkiyənin "Şahdəniz" qazı üçün ən əlverişli bazar olduğunu vurğulayıb. Bununla da Azərbaycan qazının hansı istiqamətdə ixrac olunması məsələsi öz həllini tapıb.

Həmin il avqustun 17-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Şahdəniz" yatağından təbii qazın dünya bazarlarına ixracının təşkil edilməsi ilə əlaqədar məsələlərin həll olunması üçün işçi qrupunun yaradılması haqqında" sərəncam imzalayıb. Sənəddə Azərbaycan qazının dünya bazarlarına çıxarılması üçün potensial imkanların araşdırılması, qazın nəqli və bununla əlaqəli məsələlərin öyrənilməsi mühüm vəzifə kimi qarşıya qoyulub.

2000-ci il fevralın 15-də "BP Amoco" şirkəti "Şahdəniz" konsorsiumu iştirakçıları adından "Şahdəniz" yatağının mərhələli şəkildə işlənilməsinə dair açıqlama yayıb. Konsorsium iştirakçıları ilkin mərhələdə ildə 5 milyard kubmetr həcmində qazın hasilatı, sonrakı mərhələdə isə bu həcmlərin 16 milyard kubmetrədək artırılmasını elan ediblər.

Bundan əlavə, məlumatda qazın ixracı üçün Türkiyəyə qədər həm mövcud qaz infrastrukturundan istifadə edilməsi, həm də yeni boru kəmərinin tikilməsi planı açıqlanıb. Konsorsium iştirakçıları "Şahdəniz" yatağının işlənilməsinin birinci mərhələsində çıxarılacaq qazın Türkiyə bazarına ixrac edilməsi üçün optimal marşrutun Gürcüstan üzərindən keçən boru kəməri ola biləcəyi ehtimalını irəli sürüblər.

Nəhayət, 2001-ci il fevralın 21-də əvvəlcə Azərbaycan Respublikası hökuməti ilə "Şahdəniz" konsorsiumunun iştirakçıları arasında qazın nəqli ilə bağlı saziş imzalanıb. Martın 12-də isə Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyəyə səfəri çərçivəsində Ankarada Türkiyə və Azərbaycan hökumətləri arasında "Şahdəniz" yatağının birinci mərhələsi layihəsi üzrə ixrac edilən qazın alqı-satqısına dair sazişə imza atılıb. Həmin il sentyabrın 29-da isə Bakı şəhərində Azərbaycan və Gürcüstan prezidentləri tərəfindən "Təbii qazın Azərbaycan Respublikası və Gürcüstan ərazilərində və bu ərazilərin hüdudlarından kənarda Cənubi Qafqaz Boru Kəməri sistemi vasitəsilə tranzit, nəql edilməsi və satışına dair Azərbaycan Respublikası və Gürcüstan arasında Saziş" imzalanıb. Yeri gəlmişkən, Azərbaycan qazının gələcəkdə Avropa ölkələrinə nəql edilməsi məsələsi də məhz ilk dəfə həmin sənəddə öz əksini tapıb.

2003-cü il fevralın 23-də Azərbaycan hökuməti tərəfindən "Şahdəniz" sazişi üzrə "Mərhələ-1" layihəsinin və Cənubi Qafqaz boru kəməri layihəsinin həyata keçirilməsi ilə əlaqədar sənədlər imzalanıb. 2004-cü ilin oktyabr ayında Cənubi Qafqaz Boru Kəmərinin Azərbaycan ərazisində tikinti işlərinə start verilib. Nəhayət, 2006-cı ilin sonlarında istismara verilən kəmərlə təbii qazın əvvəlcə Azərbaycan və Gürcüstana, 2007-ci ilin ayından isə Türkiyəyə çatdırılmasına başlanılıb.

Bakı şəhərinin yaxınlığında yerləşən Səngəçal terminalından başlayan kəmərin uzunluğu 692 kilometr təşkil edir. Bunun da 443 kilometri Azərbaycan, 249 kilometri isə Gürcüstan ərazisindən keçir. Hər iki ölkənin ərazisində 42 düymlük borularla çəkilən kəmərin illik nəqletmə gücü 7,41 milyard kubmetr təşkil edir. Azərbaycanın 13 rayonundan (Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz, Ağstafa), Gürcüstanın isə 7 bölgəsindən keçir.

Marşrut boyunca 1 kompressor stansiyası (Azərbaycan), 3 təmizləyici tərtibatın buraxılma kamerası (Azərbaycanda 1, Gürcüstanda 2), 2 təmizləyici tərtibatın qəbulu kamerası (Gürcüstanda) və digər çoxsaylı quğular inşa olunub. Gürcüstan bazarına qaz Azərbaycan–Gürcüstan sərhədində yerləşən boru kəmərindən ayrılan qol vasitəsilə çatdırılır. Son nöqtədə isə boru kəməri Türkiyədə bu ölkənin qazpaylama sisteminə qoşulub.

Ətraf mühitə və sosial sahəyə təsirlərin minimuma endirilməsi, eləcə də layihələrin birləşdirilməsi sayəsində əsaslı və əməliyyat xərclərinə qənaət edilməsinə nail olmaq məqsədilə boru kəməri BTC ilə birlikdə və eyni tikinti dəhlizində inşa olunub. Boru kəmərinin istismar əməliyyatlarına və tikintisinə Cənubi Qafqaz Boru Kəməri Şirkəti cavabdehdir.

"Şahdəniz" yatağının işlənilməsinin ikinci mərhələsi çərçivəsində hasilatın artması Cənubi Qafqaz boru kəmərinin də genişləndirilməsinə zərurət yaradıb. Qeyd edək ki, Genişləndirilmiş Cənubi Qafqaz Boru Kəməri (GCQBK) "Şahdəniz-2" layihəsinin əsas tərkib hissələrindəndir. Bu barədə investisiya qərarı 2013-cü ilin dekabr ayında qəbul olunub. Genişləndirmə nəticəsində Cənubi Qafqaz boru kəməri sisteminin ötürmə qabiliyyəti 24 milyard kubmetr səviyyəsinə çatdırılıb. Bununla da kəmərlə ümumi qaz nəqletmə qabiliyyəti 3,2 dəfə artırılıb. Sonrakı genişləndirilmə mərhələsində isə boru kəməri sisteminin ötürmə qabiliyyəti 31 milyard kubmetrədək artırıla bilər. GCQBK sistemi ilə kommersiya qaz həcmlərinin Türkiyəyə çatdırılmasına 2018-ci ilin iyun ayında, Avropaya isə 2020-ci ilin dekabrında başlanıb.

Cənubi Qafqaz Boru Kəmərinin ərsəyə gəlməsi Azərbaycanın enerji sektorunda yeni inkişaf mərhələsinə daxil olan qaz sənayesinin XXI əsrdə gerçəkləşdirdiyi ən böyük nailiyyətdir. Bu irimiqyaslı layihənin həyata keçirilməsi həm Azərbaycan, həm də layihədə təmsil olunan şirkətlər, o cümlədən Cənub Qaz Dəhlizinin əsas ehtiyat mənbəyi hesab olunur.

2026-cı ilin yanvar-may aylarında Cənubi Qafqaz boru kəməri ilə 9 milyard 507,2 milyon kubmetr təbii qaz nəql edilib. Bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,5 faiz artım deməkdir. Bütövlükdə isə, istismara verildiyi vaxtdan bu il may ayının sonunadək Cənubi Qafqaz boru kəməri və onun genişləndirilmiş sistemi vasitəsilə, təxminən, 278 milyard kubmetr qaz nəql olunub. Bunun da 125 milyard kubmetrdən çoxu bilavasitə Türkiyə bazarına və ya kəmərin son nöqtəsi olan Türkiyə sərhədinə çatdırılıb.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Ağdam Sənaye Parkına yatırımlar artır

**Ağdam Sənaye Parkına indiyədək 171,68 milyon manat investisiya yatırılıb. İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına görə, ötən müddətdə ölkənin ikinci ən böyük sənaye parkında fəaliyyət göstərən müəssisələr 1,86 milyard manatlıq məhsul satışı həyata keçiriblər. Bunun isə 82,33 milyon manatlıq hissəsi ixracın payına düşür.**

Ötən müddətdə sənaye parkında 31 sahibkarlıq subyektinə rezident, 4 sahibkara isə qeyri-rezident statusu verilib. Parkda indiyədək 1000-dən çox daimi iş yeri yaradılıb. Bölgədə məşğulluğun artmasında mühüm rol oynayan parkda işə qəbul zamanı Ağdam və ətraf rayonlarda yaşayanlara daha çox üstünlük verilir.

Ərazisi 190 hektar təşkil edən parkda hazırda tikinti materiallarının istehsalı, qida sənayesi, yüngül sənaye və yüksək texnologiyalı avadanlıqların yığılması kimi müxtəlif istiqamətlər üzrə 13 müəssisə fəaliyyət göstərir. Həmin müəssisələr, həm də işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı tikinti-quruculuq işlərini yerli xammal və məhsullarla təmin edərək xərclərin optimallaşdırılmasına töhfə verir. Burada istehsal olunan məhsullar daxili bazarda satılmaqla yanaşı, həm də ixrac edilir.

Xatırladaq ki, Ağdam Sənaye Parkı Prezident İlham Əliyevin 2021-ci il 28 may tarixli fərmanı ilə yaradılıb. Parkın yaradılmasında məqsəd işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının inkişaf etdirilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının təşkil edilməsi, eləcə də əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasından ibarətdir.

***XQ***

*Rəqəmsal inkişafın yeni mərhələsi*

**Müasir dövrdə rəqəmsallaşma dövlət idarəçiliyində səmərəliliyi artıran, iqtisadi yüksəlişi sürətləndirən, milli təhlükəsizliyi möhkəmləndirən və ölkələrin qlobal rəqabət qabiliyyətini müəyyənləşdirən əsas strateji amillərdən birinə çevrilib. Süni intellekt, böyük verilənlər (Big Data), bulud texnologiyaları, kibertəhlükəsizlik və rəqəmsal xidmətlər artıq iqtisadi inkişafın yeni lokomotivləri sırasında yer alıb.**

masının, startap ekosisteminin genişlənməsi, innovasiya mərkəzlərinin yaradılması və rəqəmsal hökumət modelinin formalaşdırılması gələcək inkişaf üçün möhkəm baza yaradır. İndi isə həmin baza üzərində daha mürəkkəb və yüksək texnologiyalı mərhələyə keçid başlanır.

# Azərbaycanın texnoloji suverenlik və süni intellekt strategiyası



Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatlar çərçivəsində rəqəmsal transformasiya milli inkişaf strategiyasının prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Bu baxımdan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə iyunun 29-da keçirilən Rəqəmsal İnkişaf Şurasının ilk iclası respublikanın rəqəmsal gələcəyinin formalaşdırılması sahəsində mühüm siyasi və institusional hadisə kimi qiymətləndirilib.

## Yeni inkişaf platforması

Rəqəmsal İnkişaf Şurasının yaradılması, əslində, dövlət idarəçiliyində yeni idarəetmə fəlsəfəsinin formalaşdırılması deməkdir. Çünki rəqəmsallaşma yalnız bir nazirliyin və ya konkret qurumun fəaliyyəti ilə həyata keçirilə biləcək proses deyil. Bu, eyni zamanda, bütün dövlət institutlarının vahid məqsəd ətrafında koordinasiyalı fəaliyyətini tələb edən kompleks transformasiya modelidir. Şuranın əsas missiyası da məhz müxtəlif dövlət qurumlarının fəaliyyətini sıx əlaqələndirmək, vahid strateji yanaşma formalaşdırmaq və qəbul olunan qərarların operativ icrasını təmin etməkdir.

Bu yanaşma inkişaf etmiş ölkələrin təcrübəsinə tam uyğun gəlir. Belə ki, dünyanın rəqəmsal liderləri hesab olunan Sinqapur, Estoniya, Cənubi Koreya, Birləşmiş Ərəb Əmirlikləri və Finlandiyada da rəqəmsal transformasiya bir qurumun deyil, dövlət idarəçiliyinin bütün sahələrinin koordinasiyalı fəaliyyəti əsasında həyata keçirilir. Məhz belə bir koordinasiya nəticəsində rəqəmsallaşma iqtisadiyyatın bütün sektorlarına sirayət edir, dövlət xidmətlərinin keyfiyyətini yüksəldir və biznes mühitinin inkişafını sürətləndirir.

## 3 illik Yol xəritəsi

Birinci vitse-prezident Mehriban Əliyevanın Rəqəmsal İnkişaf Şurasının iclasında vurğuladığı ən mühüm məqamlardan biri qarşıdakı 3 il üçün konkret Yol xəritəsinin müəyyən edilməsidir. Belə ki, əvvəlki mərhələlərdə rəqəmsallaşma daha çox ayrıca layihələrin həyata keçirilməsi formasında inkişaf edirdisə, artıq 2026–2028-ci illər üçün qəbul olunan Fəaliyyət Planı vahid milli strategiyanın icra mexanizminə çevrilir.

Planın 58 təşəbbüsü 4 əsas istiqaməti – rəqəmsallaşma, süni intellekt, innovasiya ekosistemi və kibertəhlükəsizlik məsələlərini əhatə edir. Burada ən diqqətçəkən məqamlardan biri isə ondan ibarətdir ki, artıq 40 dövlət qurumu üzrə Yol xəritələri hazırlanıb, onların 13-ü təsdiqlənib və ya təsdiq mərhələsindədir. Bu fakt onu göstərir ki, rəqəmsal transformasiya nəzəri konsepsiya olmaqla bərabər, həm də icra edilən konkret dövlət proqramıdır.

Dünyada hazırda ən sürətlə inkişaf edən texnologiya süni intellektdir. Son illər bu sahəyə qoyulan investisiyalar yüz milyardlarla dolları ötüb. Beynəlxalq qiymətləndirmələrdə süni intellektin 2030-cu ilədək dünya iqtisadiyyatına 15-20 trilyon dollardan artıq əlavə dəyər qazandıracağı proqnozlaşdırılır. Azərbaycanın bu sahə üzrə yeni Fəaliyyət Planında isə süni intellektin əsas prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilməsi ölkənin gələcək inkişafı baxımından uzaqgörən siyasət həyata keçirdiyi göstərilir.

Artıq "mygov" platformasında və digər dövlət qurumlarında süni intellekt həllərinin tətbiqi genişləndirilib, virtual vətəndaş köməkçisi istifadəyə verilib. Bu yeniliklər dövlət xidmətlərinin daha sürətli, şəffaf, əlçatan və fərdiləşdirilmiş şəkildə təqdim edilməsinə imkan yaradır. Gələcək mərhələdə isə süni intellektin təkcə vətəndaş xidmətlərində deyil, həmçinin səhiyyə, təhsil, kənd təsərrüfatı, nəqliyyat, energetika, maliyyə və hüquq-mühafizə sistemlərində də qərar qəbuletmə proseslərini əhəmiyyətli dərəcədə təkmilləşdirəcəyi gözlənilir.

## "Mygov" – rəqəmsal dövlət modeli

Azərbaycanın rəqəmsal transformasiya strategiyasında "mygov" platforması xüsusi yer tutur. Bu baxımdan son 3 ay ərzində istifadəçi sayının 2,7 milyondan 3,5 milyona yüksəlməsi vətəndaşların elektron xidmətlərə artan etimadını göstərir. Platformaya artıq müxtəlif dövlət tətbiqləri inteqrasiya olunub və ilin sonunadək daha 7 dövlət tətbiqinin istifadəyə verilməsi planlaşdırılır.

Bu proses vətəndaşın dövlətlə münasibətlərində tamamilə yeni model formalaşdırır. Başqa sözlə, proses ənənəvi kağız sənəd dövriyyəsinin azalmasını sürətləndirir, vaxt itkisinin qarşısını alır, korrupsiya risklərini minimuma endirir, xidmətlərin keyfiyyətini artırır və dövlət idarəçiliyində şəffaflığı gücləndirir. Estoniya təcrübəsi də göstərir ki, tam rəqəmsal dövlət modeli büdcə xərclərinin azalmasına, dövlət xidmətlərinin sürətlənməsinə və biznes mühitinin yaxşılaşmasına ciddi töhfə verir.

Azərbaycan da bu istiqamətdə mühüm irəliləyiş nümayiş etdirir. Bu baxımdan Milli Məlumat Hövzəsi rəqəmsal iqtisadiyyatın əsas infrastrukturu kimi daha çox diqqət çəkir. Çünki rəqəmsal dövlətin ən vacib elementlərindən biri məhz etibarlı məlumat infrastrukturudur. Milli Məlumat Hövzəsinin yaradılması da məhz bu məqsədə xidmət edir.

Dövlət informasiya sistemlərinin hökumət buluduna miqrasiyası və yeni data mərkəzinin tikilməsinə gəldikdə isə, bu, bir neçə mühüm üstünlük yaradır. Məsələn, məlumatların təhlükəsiz saxlanılması, dövlət qurumları arasında operativ məlumat mübadiləsinin aparılması, xidmətlərin fasiləsiz fəaliyyət göstərməsi və idarəetmədə operativliyin gücləndirilməsi kimi məsələləri reallaşdırır. Ekspertlər bildirirlər ki, mərkəzləşdirilmiş məlumat bazası gələcəkdə süni intellekt sistemlərinin daha səmərəli işləməsinə də imkan yaradacaq. Çünki müasir AI həllərinin əsas resursu keyfiyyətli məlumat bazasıdır.

## Texnoloji suverenlik

Son illərdə dünya geosiyasətində texnoloji suverenlik anlayışı daha çox önə çəkilib. Yarımkeçiricilər, bulud texnologiyaları, süni intellekt, kibertəhlükəsizlik və proqram təminatı dövlətlərin milli təhlükəsizlik məsələsi olaraq yüksək dəyərləndirilib. Bu baxımdan Azərbaycan Dayanıqlılıq Klasterinin yaradılması strateji əhəmiyyətə malik olub.

**İqtisadçı-ekspert Aydın Ələsgərovun** sözlərinə görə, klaster yüksək texnologiya şirkətlərini bir araya gətirəcək, innovativ layihələrin inkişafını sürətləndirəcək, yerli texnoloji həllərin yaradılmasını təşviq edəcək və milli innovasiya ekosistemini gücləndirəcək. Bu yanaşma, eyni zamanda, ölkənin xarici texnoloji asılılığını azaltmaqla yanaşı, rəqabət qabiliyyətli rəqəmsal sənayenin formalaşmasını da şərtləndirəcək.

Yeri gəlmişkən, bu gün beynəlxalq aləmdə rəqəmsallaşmanın genişlənməsi kibertəhlükələrin də artmasına şərait yaradır. Dünyada hər gün milyonlarla kibertəhlükəsizlik insidentinin qeydə alınması məhz bunun bariz ifadəsidir. Bu baxımdan Milli Təhlükəsizlik Əməliyyatları Mərkəzi, Milli Kiber İnsidentlərə Qarşı Mübarizə Təşkilatı və Rəqəmsal Təhqiqat Mərkəzi kimi qurumların yaradılması Azərbaycanın rəqəmsal təhlükəsizlik sistemininin inkişafını yeni mərhələyə çıxarır. Eyni zamanda, dövlət və özəl sektor arasında operativ məlumat mübadiləsini reallaşdıracaq vahid milli kibertəhlükəsizlik platformasının qurulması isə ölkədə kibermüdafiə imkanlarını əhəmiyyətli dərəcədə artırır.

Beynəlxalq təcrübə göstərir ki, kibertəhlükəsizlik təkcə texniki məsələ deyil. Bu, milli iqtisadiyyatın, enerji sisteminin, maliyyə sektorunun, nəqliyyat infrastrukturunun və dövlət idarəçiliyinin təhlükəsizliyini gerçəkləşdirən strateji istiqamətdir. Rəqəmsallaşmanın iqtisadi nəticələri isə yalnız elektron xidmətlərlə məhdudlaşmır. Bu proses həm də məhsuldarlığı artırır, investisiya cəlbediciliyini yüksəldir, innovativ sahibkarlığın inkişafını sürətləndirir, yeni yüksək maaşlı iş yerləri yaradır və ixrac potensialını genişləndirir.

Mütəxəssislər bildirirlər ki, süni intellekt, rəqəmsal xidmətlər və innovasiya ekosistemi gələcəkdə Azərbaycanın qeyri-neft iqtisadiyyatının əsas inkişaf mənbələrindən birinə çevriləcək. Xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələri isə bu strategiyanın mühüm tərkib hissəsi kimi diqqət çəkəcək.

## Regional liderlik

Rəqəmsal İnkişaf Şurasının qarşıya qoyduğu əsas məqsəd Azərbaycanı rəqəmsal inkişaf və süni intellekt sahəsində regionun aparıcı dövlətlərindən birinə çevirməkdir. Bu məqsəd real iqtisadi əsaslara söykənir. Belə ki, hazırda ölkədə genişzolaqlı internet infrastrukturunun inkişafı, dövlət xidmətlərinin elektronlaşdırılması, startap ekosisteminin genişlənməsi, innovasiya mərkəzlərinin yaradılması və rəqəmsal hökumət modelinin formalaşdırılması gələcək inkişaf üçün möhkəm baza yaradır. İndi isə həmin baza üzərində daha mürəkkəb və yüksək texnologiyalı mərhələyə keçid başlanır.

Rəqəmsal İnkişaf Şurasının ilk iclasında müəyyən olunan prioritetlər də göstərir ki, Azərbaycan rəqəmsal transformasiyanı yalnız texnologiyaların tətbiqi kimi deyil, eyni zamanda, dövlət idarəçiliyinin, iqtisadiyyatın və cəmiyyətin hərtərəfli modernləşdirilməsi strategiyası kimi qəbul edir.

"Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı"nın uğurla icrası, süni intellekt həllərinin geniş tətbiq edilməsi, "mygov" platformasının sürətli inkişaf yoluna çıxarılması, Milli Məlumat Hövzəsinin formalaşdırılması, texnoloji suverenliyi gücləndirən Azərbaycan Dayanıqlılıq Klasterinin yaradılması və milli kibertəhlükəsizlik infrastrukturunun qurulması ölkənin rəqəmsal gələcəyini sistemli şəkildə formalaşdıran əsas istiqamətlərdir.

Bu strategiyanın uğurlu icrası dövlət idarəçiliyinin daha çevik, iqtisadiyyatın daha rəqabətli, cəmiyyətin isə daha innovativ olmasına zəmin yaradacaq. Ən başlıcası isə Azərbaycan Cənubi Qafqazda və daha geniş regionda rəqəmsal inkişaf, süni intellekt və texnoloji innovasiyalar sahəsində aparıcı mərkəzlərdən birinə çevrilmək istiqamətində mühüm addımlar atacaq. Bu isə ölkənin dayanıqlı iqtisadi inkişafına, milli təhlükəsizliyinin möhkəmlənməsinə və qlobal rəqəmsal iqtisadiyyatda mövqeyinin daha da güclənməsinə xidmət edəcək.

Sonda onu da qeyd edək ki, rəqəmsallaşmanın sürətli inkişafının nəticəsidir ki, bu gün vətəndaş və bizneslər dövlət xidmətlərinə çıxış üçün mobil telefonda bir neçə mobil tətbiqdən istifadə edir və bəzən xidmətləri hansı tətbiqdən alacağını müəyyən etməkdə çətinlik çəkir. Buna görə də dövlət xidmətlərini vətəndaşlara və bizneslərə daha yaxın etmək, vətəndaş–məmur təmasını minimuma endirmək, proseslərin şəffaflığını və vətəndaş məmnuniyyətini gerçəkləşdirmək məqsədilə "mygov" və "mygov biznes" platformaları üzərində işlərin davam etdirilməsi qarşıda mühüm vəzifələr kimi durur.

Mütəxəssislərin fikrincə, fərdi portal və mobil tətbiqlərin mərhələli şəkildə vahid ekosistemə inteqrasiya edilməsi nəticəsində ayrı-ayrı dövlət qurumlarının xidmət keyfiyyəti yüksələcək və istifadəçi təcrübəsi getdikcə yaxşılaşacaq. Eyni zamanda, bütün rəqəmsal dövlət xidmətləri və elektron sənədlər vətəndaşlar üçün "mygov", sahibkarlar üçün isə "mygov Biznes" platformaları vasitəsilə təqdim olunacaq.

Artıq bu prosesə başlanılıb və qasa müddət ərzində "e-Sosial", "e-Təbib" və "e-Su" tətbiqləri tam şəkildə platformaya inteqrasiya olunub. Bundan əlavə, "e-Polis", "Mobil Notariat", "Azərişıq", "Reseptim", "e-Səhiyyə", "MigAz" və "ASAN Müraciət" tətbiqlərinin bir çox xidmətləri artıq inteqrasiya edilib və ilin sonunadək onların bütün xidmətlərinin tam şəkildə "mygov" üzərindən təqdim edilməsi planlaşdırılıb.

Onu da qeyd edək ki, hazırda həm "mygov" platforması, həm də digər dövlət qurumları üzrə tətbiq ediləcək süni intellekt həlləri müəyyənləşdirilərək onların mərhələli icrasına başlanılır. Belə ki, 2026-cı il ərzində "mygov" platformasında 4, digər dövlət qurumlarında isə 9 süni intellekt həllinin həyata keçirilməsi nəzərdə tutulur.

Artıq "mygov" platformasında vətəndaşlara 24/7 rejimində xidmət göstərəcək virtual vətəndaş köməkçisinin ilkin versiyası istismara verilib. Bununla yanaşı, səhiyyə, gömrük və təhsil sahələrini əhatə edən, digər dövlət qurumları ilə birgə həyata keçirilməsi nəzərdə tutulan potensial süni intellekt həlləri də müəyyən edilib. Bu yanaşmanın əsas məqsədi dövlət vəsaitlərindən səmərəli istifadəni gerçəkləşdirmək, bir dövlət qurumunda uğurla tətbiq olunan süni intellekt həllərinin digər dövlət qurumlarında da təkrar istifadəsini təşviq etməkdir.

***Vaqif BAYRAMOV***
***XQ***

# İqtisadi xəbərlər

## BTC-yə operatorluq SOCAR-a keçdi



**Səngəçal terminalında Bakı-Tbilisi-Ceyhan (BTC) neft ixrac boru kəmərinin 20 illiyi, BTC üzrə operatorluğun və BTC ilə Cənubi Qafqaz Boru Kəməri (CQBK) sistemləri üzrə vahid operatorluğun SOCAR-a təhvil verilməsi münasibətilə tədbir keçirilib.**

SOCAR-ın prezidenti Rövşən Nəcəf və bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli BTC üzrə operatorluğun və BTC ilə CQBK sistemləri üzrə vahid operatorluğun SOCAR-a təhvil verilməsini ifadə edən rəmzi idarəetmə düyməsini sıxıblar.

## Azərbaycan–İsveçrə bank əməkdaşlığı




**Azərbaycan Mərkəzi Bankının nümayəndə heyəti Özbəkistanın paytaxtı Daşkənddə İsveçrə Mərkəzi Bankının sədri Martin Şlegel və bu ölkənin bank-maliyyə qurumlarının rəhbərləri ilə görüşüb.**

Söhbət zamanı Azərbaycan və İsveçrə mərkəzi bankları arasında əməkdaşlıq əlaqələrinin cari vəziyyətindən məmnunluq ifadə olunub. Görüşdə qlobal və regional iqtisadi proseslər, ölkədə mövcud makroiqtisadi vəziyyət və maliyyə sektorunun inkişaf dinamikası ətrafında fikir mübadiləsi aparılıb.

## Naxçıvanda barama istehsalı artıb



**Bu il Naxçıvan Muxtar Respublikasına 50 qutu ipəkqurdu toxumu gətirilib və mövsümün yekununda 2 min 880 kiloqram yaş barama istehsal olunub. Bu isə ötən illə müqayisədə 31,1 faiz çoxdur.**

Xatırladaq ki, bölgədə 3 il əvvəl pilot layihə kimi başlanılan baramaçılıq qısa müddətdə sürətlə inkişaf edərək aqrar sahənin ən gəlirli istiqamətlərindən birinə çevrilib.

## Xəzərə 400 min nərə körpəsi buraxılıb



**Neftçala rayonu ərazisində, Kür çayının Xəzər dənizi ilə qovuşduğu hissədə nərəkimilər fəsiləsinə aid 400 min balıq körpəsi təbii mühitə buraxılıb.**

Dövlət-özəl tərəfdaşlığı çərçivəsində həyata keçirilən bu aksiya nəsli kəsilməkdə olan nərə cinsli balıq ehtiyatlarının bərpasına dəstək vermək, ekoloji tarazlığı qorumaq və su hövzələrinin biomüxtəlifliyinin daha da zənginləşdirilməsinə töhfə məqsədi daşıyır.

## Paytaxt keçidlərində eskalator və liftlər yenilənəcək



**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, payız aylarında Bakı şəhərində yerləşən yerüstü və yeraltı piyada keçidlərində istismar müddətini başa vurmuş eskalator və bəzi liftlər yenilənəcək.**

Paytaxtın 46 ünvanında yerüstü və yeraltı keçiddə 177 eskalatorun və 2 travelatorun yenilənməsi nəzərdə tutulur.

## "Kənddən şəhərə" həftə töhfəsi

**İyulun 4-5-də Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki "Aqrar Tədarük və Təchizat" ASC-nin təşkilatçılığı ilə paytaxtda, metronun "Gənclik" stansiyasının yaxınlığında növbəti "Kənddən şəhərə" həftəsonu yarmarkası keçiriləcək.**

20-yə yaxın regiondan 40-dək fermer 100 çeşiddə kənd təsərrüfatı və qida məhsulu satışa çıxaracaq.

***XQ***

# Azərbaycanda Türk Dünyası Həftəsi

## “Ortaq türk keçmişindən ortaq türk gələcəyinə”



**Dünən Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutu, UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası, UNESCO üzrə Türkiyə Respublikasının Milli Komissiyası, Türk Mədəniyyəti və İrsi Fondu və Türkiyənin Hacettepe Universitetinin birgə təşkilatçılığı ilə Mərkəzi Elmi Kitabxanada “Türkoloji folklorşünaslıq: nəzəri konteksti, praktik yönləri və təhlil perspektivləri” mövzusunda VIII “Ortaq türk keçmişindən ortaq türk gələcəyinə” beynəlxalq elmi simpoziumu işə başlayıb.**

Açılış mərasimində AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Birinci Türkoloji Qurultayın türkologiya elminin tarixində yeni mərhələnin əsasını qoyduğunu söyləyib. Akademik qeyd edib ki, Prezident İlham Əliyevin “Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında” sərəncamı bu sahəyə göstərilən dövlət qayğısının və siyasi iradənin bariz ifadəsidir. Qəbələdə keçirilmiş Türk Dövlətləri Təşkilatına üzv ölkələrin dövlət başçılarının 12-ci Zirvə görüşündə qəbul olunan Bəyannamədə də Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd edilməsinin əhəmiyyəti xüsusi vurğulanıb.

İsa Həbibbəyli bildirib ki, Azərbaycanda türkologiya elmi xüsusilə müstəqillik illərində yeni inkişaf mərhələsinə qədəm qoyub.

Türk Dünyası Həftəsinin tədbirlərinə də toxunan akademik bildirib ki, Heydər Əliyev Mərkəzində keçirilən açılış mərasimi türkologiya elminə göstərilən yüksək diqqətin təzahürü olub.

UNESCO üzrə Türkiyə Respublikasının Milli Komissiyasının İdarə Heyətinin sədri Öcal Oğuz türkologiyanın yalnız elm sahəsi deyil, Türk dünyasının tarixi yaddaşını, mədəni kimliyini və dil birliyini yaşadan ümumbəşəri dəyər olduğunu vurğulayıb. Öcal Oğuz qədim türk yazılı irsinin nadir nümunələrindən olan Bilgə Tonyukuk abidəsinin ucaldılmasının 1300 illiyinin UNESCO-nun 2020-ci il üzrə Yubileylər Proqramına daxil edilməsinin türk dövlətçilik düşüncəsinin və dilimizin ilkin yazılı qatlarının öyrənilməsi baxımından mühüm hadisə olduğunu qeyd edib.



Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova çıxışında rəhbərlik etdiyi fondun fəaliyyət istiqamətlərindən bəhs edib. Bildirib ki, fondun əsas missiyası türk xalqlarının ortaq mədəni və mənəvi irsini qorumaq, elmi şəkildə araşdırmaq və bu irsi gələcək nəsillərə ötürməkdən ibarətdir: “Məhz bu baxımdan “Ortaq türk keçmişindən ortaq türk gələcəyinə” mövzusu fondun məqsədləri ilə tam uzlaşır”.

Aktotı Raimkulova çıxışında xüsusi olaraq Azərbaycan Milli Elmlər Akademiyası ilə son illərdə qurulan səmərəli əməkdaşlıq əlaqələrinə diqqət çəkib. Bildirib ki, bu əməkdaşlıq akademik İsa Həbibbəylinin rəhbərliyi ilə ardıcıl və uğurla inkişaf edir və hər iki tərəf üçün mühüm elmi nəticələr ortaya qoyur.

UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının birinci katibi Mustafa Şabanov bugünkü simpoziumun Birinci Türkoloji Qurultayın 100 illiyi ilə bağlı keçirilən tədbirlər sırasında xüsusi əhəmiyyət kəsb etdiyini bildirib. O vurğulayıb ki, Bakıda Türk Dünyası Həftəsinin təşkili Türk dünyasının elmi, mədəni və mənəvi birliyinin keyfiyyətcə yeni mərhələyə daxil olduğunu göstərir.

Məclisdə Milli Məclisin deputatı Hikmət Babaoğlu, M.Auezov adına Ədəbiyyat və İncəsənət İnstitutunun direktoru akademik Kenjexan Matıjanov, Hacettepe Universitetinin professoru Özkul Çobanoğlu, Ege Universitetinin Türk Dünyası Araştırmaları İnstitutunun professoru Metin Ekici, Özbəkistan Elmlər Akademiyasının Özbək Dili, Ədəbiyyatı və Folklor İnstitutunun professoru Jabbor Eshonqulov, Nevşehir Hacı Bektaş Vəli Universitetinin professoru Bayram Durbilmez və AMEA-nın Folklor İnstitutunun direktoru, filologiya elmləri doktoru Hikmət Quliyev çıxış ediblər. Çıxış edənlər simpozium çərçivəsində aparılan elmi müzakirələrin ortaq türk elmi düşüncəsinin formalaşmasına və gələcək nəsillərə ötürülməsinə mühüm töhfələr verəcəyinə əminliyini ifadə ediblər.

Bu gün davam edəcək simpoziumda Azərbaycan və xarici ölkələrdən olan alimlər türkoloji folklorşünaslığın nəzəri və praktik məsələlərini, eləcə də türk xalqlarının ortaq mədəni irsinin qorunması və öyrənilməsi istiqamətlərini müzakirə edəcəklər.

## Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş nəşrlər



**Milli Kitabxanada Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş “Türk Dünyası Həftəsi” çərçivəsində “Türk Dünyası Milli Kitabxanaları” İctimai Birliyinin, “Birinci Türkoloji Qurultay: Stenoqrafik hesabat” və “Birinci Türkoloji Qurultay. Biblioqrafiya” kitablarının təqdimat mərasimi keçirilib.**

İştirakçılar əvvəlcə “Ortaq irs, zəngin xəzinə: Milli Kitabxananın qızıl fondundan” mövzusunda geniş kitab sərgisi ilə tanış olublar.

Mərasimi giriş sözü ilə açan Milli Kitabxananın direktoru, professor Kərim Tahirov tarixi-etnik köklərlə, eyni dil qrupu, ənənə və dəyərlərlə bir-birinə yaxın olan xalqların vahid ideya birliyi və həmrəyliyi ilə bağlı çoxsaylı nümunələrin olduğunu, türk dövlətləri arasında bütün sahələrdə əməkdaşlıq əlaqələrinin möhkəmlənməsinin böyük perspektivlərdən xəbər verdiyini qeyd edib.

O, 1926-cı ilin fevralında Bakı şəhərində keçirilmiş Birinci Türkoloji Qurultayın türk dilləri, mədəni irsi və elmi əməkdaşlıq perspektivləri üzərində düşünən alimləri geniş şəkildə bir araya topladığını söyləyib, qurultayın tarixi əhəmiyyətindən danışıb: “Birinci Türkoloji Qurultayın 100 illik yubileyi Prezident İlham Əliyevin sərəncamlarına əsasən həm ölkə daxilində, həm də beynəlxalq miqyasda yüksək səviyyədə qeyd edilir. Əhəmiyyətli elmi-təşkilati tədbirlər reallaşdırılır, mövzunun müxtəlif aspektlərini sistemli şəkildə işıqlandıran fundamental tədqiqatlar və elmi nəşrlər meydana çıxır. Türk Dünyası Milli Kitabxanaları İctimai Birliyinin yaradılması da Birinci Türkoloji Qurultayın ideyalarının həyata keçirilməsi istiqamətində atılmış mühüm addımlardan biridir”.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova ortaq tarixə, mədəniyyətə malik olan türk dövlətlərinin milli kitabxanalarının birliyinin məhz Milli Kitabxanada 2024-cü ilin dekabr ayında təsis edildiyini, birgə ortaq layihələrin həyata keçirilməsi istiqamətində işlərin nəzərdə tutulduğunu diqqətə çatdırıb.



AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Türk Dünyası Milli Kitabxanaları Birliyinin yaradılmasının Birinci Türkoloji Qurultayın ideyalarının həyata keçirilməsi istiqamətində atılan mühüm addımlardan biri olduğunu, bu təşəbbüsün, eyni zamanda, qurultayın müəyyən etdiyi məqsəd və prinsiplərin gələcək mərhələdə təşkilatlanmış şəkildə davam etdirilməsinə xidmət edən mühüm platforma olacağını söyləyib.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri, BDU-nun kafedra müdiri, professor Anar İsgəndərov cəmi 8 gün davam edən möhtəşəm toplantının əslində, bütöv bir əsrin düşüncə və ideya istiqamətlərinə təsir edən hadisəyə çevrildiyini, XX əsr türkoloji fikir tarixinin ən mühüm elmi hadisələrindən biri kimi qiymətləndirildiyini və ideyalarının Türk dünyasında elmi-mədəni inteqrasiyanın inkişafı baxımından aktuallığını qoruyub saxlağını bildirib.

Milli Məclisin deputatı, Mədəniyyət Komitəsi sədrinin müavini Günay Əfəndiyeva Türk dünyasının son illərdə bir-biri ilə münasibətlərinin, qarşılıqlı səfərlərinin, həmrəyliyinin möhkəmləndiyini, böyük bir gücə çevrildiyini diqqətə çatdırıb.

Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev “Türk Dünyası Həftəsi” çərçivəsində dünyanın müxtəlif ölkələrindən nüfuzlu türkoloq-alimlərin, dövlət, elm və mədəniyyət xadimlərinin iştirakı ilə beynəlxalq konfranslar, konqreslər və zəngin mədəni proqramların təşkil olunduğunu deyib.

“Birinci Türkoloji Qurultay. Stenoqrafik hesabat”ın “Ön söz” müəllifi, Azərbaycanda Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov nəşrin hazırlanması barədə məlumat verib.

Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla, AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədli, Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru, professor Mahirə Hüseynova, Xalq şairi Sabir Rüstəmxanlı, Türkiyə Milli Kitabxanasının direktoru Taner Beyoğlu, İstanbul Universitetinin professoru Osman Fikri Sertkaya və digərləri son illər türk dövlətləri arasında siyasi dialoq, iqtisadi əlaqələr, elm, təhsil, mədəniyyət və humanitar əməkdaşlığın əhəmiyyətli dərəcədə genişlənməsindən danışıb, həmçinin Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunan tədbirlərin ortaq irsin daha dərindən öyrənilməsinə, gələcək nəsillərə çatdırılmasına və Türk dünyasında inteqrasiya prosesinin daha da güclənməsinə töhfə verəcəyini söyləyiblər.

Sonra “Birinci Türkoloji Qurultay” adlı elektron məlumat bazası təqdim edilib.

Mərasimin sonunda Azərbaycandan və digər ölkələrdən bir qrup alim və mütəxəssisə Mədəniyyət Nazirliyinin təsis etdiyi “Birinci Türkoloji Qurultayın 100 illiyi (1926–2026)” xatirə nişanı təqdim olunub.

## “Türk Dünyası Milli Kitabxanaları” İctimai Birliyinin I Toplantısı

**Milli Kitabxanada “Türk Dünyası Milli Kitabxanaları” İctimai Birliyinin I Toplantısı keçirilib.**



Birliyin İdarə Heyətinin sədri, Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov açaraq üzvləri salamlayıb. O bildirib ki, iki il əvvəl məhz Azərbaycan Milli Kitabxanasında Türk Dünyası Milli Kitabxanaları İctimai Birliyinin yaradılması barədə qərar qəbul olunub və sonradan bu təşəbbüs müvafiq qaydada rəsmiləşdirilib.

Direktor birliyin fəaliyyətinin daha da genişləndirilməsinin vacibliyini qeyd edərək digər türk dövlətlərinin təşkilata qoşulmasının və birliyin beynəlxalq təşkilat kimi qeydiyyata alınmasının qarşıdakı dövrün əsas vəzifələrindən olduğunu vurğulayıb. İclasın əsas müzakirə mövzusu 2026–2027-ci illər üzrə fəaliyyət istiqamətləri və Türk dünyasının ortaq elektron məlumat bazasının yaradılması olub. Kərim Tahirov təklif edib ki, türk xalqlarının ortaq mədəni irsini əhatə edən rəqəmsal resurslar vahid portalda birləşdirilsin və üzv ölkələrin oxucularının istifadəsinə təqdim edilsin.

Müzakirələrdə iştirak edən Türkiyə Milli Kitabxanasının direktoru Taner Beyoğlu, Özbəkistan Milli Kitabxanasının direktoru Umida Teşabayeva, Qazaxıstan Akademik Milli Kitabxanasının direktoru Kumis Seitova, Qırğızıstan Milli Kitabxanasının direktoru Eldar Attokurov, Macarıstan Milli Kitabxanasının baş direktoru David Rozsa təşəbbüsü dəstəklədiklərini bildiriblər.

Birliyin İdarə Heyəti sədrinin müavini, Azərbaycan Milli Kitabxanasının Elmi işlər üzrə direktor müavini, tarix üzrə fəlsəfə doktoru Ədibə İsmayılova bildirib ki, ilk növbədə, informasiya texnologiyaları üzrə mütəxəssislərlə kitabxana rəhbərlərinin birgə müzakirələri təşkil edilməli, elektron kataloqların təkmilləşdirilməsi və müəllif hüquqlarının qorunması məsələləri diqqət mərkəzində saxlanılmalıdır.

Toplantıda kitabxanaçılar arasında peşəkar mübadilə proqramlarının həyata keçirilməsi, üzv ölkələrin milli kitabxanalarında qarşılıqlı ədəbiyyat bölmələrinin yaradılması, ortaq internet saytının hazırlanması, vahid oxucu bileti modelinin perspektivləri, eləcə də Türk dünyasının görkəmli şəxsiyyətlərinin yubileylərinin birgə qeyd olunması ilə bağlı da fikir mübadiləsi aparılıb.

Toplantının sonunda səsləndirilən təkliflər ümumiləşdirilərək 2026–2027-ci illər üzrə fəaliyyət istiqamətləri müəyyənləşdirilib, ortaq elektron məlumat bazasının yaradılması, rəqəmsal əməkdaşlığın genişləndirilməsi, birgə layihələrin həyata keçirilməsi, “Türk Dünyası Milli Kitabxanaları” İctimai Birliyinin nizamnaməsinə dəyişikliklər edilməsi və qurumun təşkilati fəaliyyətinin gücləndirilməsi ilə bağlı müvafiq qərarlar qəbul olunub.

## “Birinci Türkoloji Qurultayın elmi və mədəni mirası”

**Dünən Xankəndidə Qarabağ Universitetində Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş “Türk Dünyası Həftəsi” çərçivəsində “Birinci Türkoloji Qurultayın elmi və mədəni mirası” mövzusunda konfrans keçirilib.**



Açılış mərasimində çıxış edən universitetin rektoru Şahin Bayramov bildirib ki, Qarabağ Universiteti ölkə rəhbərliyinin xüsusi diqqət və qayğısı ilə inkişaf edən ali təhsil müəssisəsidir. Onun sözlərinə görə, Qarabağ Universitetinin qarşısında dayanan mühüm məqsədlərdən biri də Türk dünyasını təmsil edən elm və təhsil müəssisələri ilə sıx əməkdaşlığın qurulmasıdır.

Rektor qeyd edib ki, bu gün universitetdə keçirilən beynəlxalq tədbirlər həm Qarabağ Universiteti, həm də iştirakçılar üçün yeni elmi və akademik imkanlar yaradır. O vurğulayıb ki, Türk dünyası ilə bağlı birgə layihələrin həyata keçirilməsi, ortaq tarix, dil, mədəniyyət və mənəvi dəyərlərin araşdırılması Qarabağ Universitetinin əsas fəaliyyət istiqamətlərindən biri olacaq.

Mədəniyyət nazirinin müavini Fərid Cəfərov bildirib ki, Prezident İlham Əliyev tərəfindən Birinci Türkoloji Qurultayın 100 illiyinin qeyd olunması haqqında imzalanan sərəncam Azərbaycanın uzun illərdir türk birliyinin möhkəmləndirilməsinə verdiyi töhfələrin bariz göstəricisidir. O qeyd edib ki, mədəniyyət dövlətlərarası münasibətlərdə ən mühüm birləşdirici amillərdən biridir və bu sahədə əməkdaşlıq Türk dünyasının inteqrasiyasına xidmət edir.

Qarabağ Universitetinin elm şöbəsinin müdiri, dosent Elçin İbrahimovun moderatorluğu ilə panel sessiya keçirilib. Sessiyada Ankara Universitetinin Çağdaş Türk Ləhcələri və Ədəbiyyatları Bölməsinin dosenti Mehmet Rza Heyət, “Ədəbiyyat qəzeti”nin baş redaktoru, tədqiqatçı Azər Turan, AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun baş elmi işçisi, professor Solmaz Rüstəmova-Tohidi, eləcə də Rusiya Federasiyası Tatarıstan Elmlər Akademiyasının Tarix İnstitutunun professoru İsmət Zaatov çıxış ediblər. Onlar elmi-mədəni inteqrasiyasında oynadığı tarixi rol, ortaq dil və ədəbiyyatın inkişafı, elmi əməkdaşlıq ənənələrinin formalaşması və bu irsin müasir dövrdə yeni elmi yanaşmalarla yenidən dəyərləndirilməsinin vacibliyi barədə ümumi fikir mübadiləsi aparıblar. Onlar, həmçinin türk dövlətləri arasında akademik və mədəni əlaqələrin genişləndirilməsinin əhəmiyyətini vurğulayıblar.

Sonda Azərbaycandan və digər ölkələrdən bir qrup alim və mütəxəssisə Mədəniyyət Nazirliyinin təsis etdiyi “Birinci Türkoloji Qurultayın 100 illiyi (1926–2026)” xatirə nişanı təqdim olunub.

## Milli Tarix Muzeyində sərgi

**İyulun 2-də Milli Azərbaycan Tarixi Muzeyində Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş “Bakı. 1926: Dil, Fikir, Birlik” sərgisinin açılış mərasimi keçirilib.**



Türk Mədəniyyəti və İrsi Fondunun birgə təşkilatçılığı ilə ərsəyə gələn layihənin məqsədi Birinci Türkoloji Qurultayın tarixi əhəmiyyətini, türk xalqlarının ortaq elmi-mədəni irsini və türkologiya elminin inkişaf mərhələlərini geniş ictimaiyyətə təqdim etməkdir.

Mərasimi giriş sözü ilə açan Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı bildirib ki, 100 il əvvəl qurultay iştirakçılarının irəli sürdükləri ideyaların yalnız həmin dövr üçün deyil, bu gün də Türk dünyasının mədəni inteqrasiyasının əsas istiqamətlərindən biri olduğu daha aydın görünür. Əlifba və orfoqrafiya, terminologiya, tədris və metodika, ortaq ədəbiyyat kimi mühüm məsələlər üzrə qəbul edilən qərarlar və irəli sürülən təkliflər bu gün də öz aktuallığını qoruyur.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova çıxışında qeyd edib ki, 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultay təkcə Azərbaycanın deyil, bütövlükdə, Türk dünyasının elm və mədəniyyət tarixində mühüm dönüş nöqtəsi olub. Onun sözlərinə görə, qurultay ortaq dil, mədəniyyət və elm sahəsində əməkdaşlığın möhkəmlənməsinə, türkologiya elminin inkişafına mühüm töhfələr verib. O vurğulayıb ki, ortaq tarixi yaddaşı yaşadan və xalqlar arasında mədəni bağları möhkəmləndirən bu cür layihələrin həyata keçirilməsi xüsusi əhəmiyyət daşıyır.

Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova bildirib ki, Birinci Türkoloji Qurultay Türk dünyasının intellektual tarixində mühüm mərhələ olmaqla, ortaq dil, mədəniyyət və elmi əməkdaşlıq ideyalarının formalaşmasına güclü təkan verib.

Sonra iştirakçılar sərgi ilə tanış olublar.

Sərginin ekspozisiyasında türk xalqlarının ortaq mədəni kökləri, XIX–XX əsrlərdə əlifba islahatları, Azərbaycan Xalq Cümhuriyyətinin dil siyasəti, Yeni Türk Əlifbası hərəkatı, 1926-cı il Birinci Türkoloji Qurultayı, 1937–1938-ci illərin repressiyaları, eləcə də müstəqillik dövründə Türk dünyasının yenidən inteqrasiyası kimi mühüm tarixi mövzular əksini tapıb.

*Səhifəni hazırladılar:*
***T.RÜSTƏMLİ,***
***Q.ƏLİYEV***
***XQ***

# "Vətən"in yubiley nəşri

*Bugünlərdə "Vətən" uluslararası elmi-publisistik ədəbi-bədii dərgisinin I Türkoloji Qurultayın 100 illik yubileyinə həsr olunmuş xüsusi sayı işıq üzü görüb*

**Xatırladaq ki, bu nəşr 2002–2007-ci illərdə Rusiyada yayımlanmış "Vətən" qəzetinin davamı olaraq 3 ildir ki, yenidən nəşrə başlayıb və ətrafına xeyli oxucu yığa bilib.**




Bu il I Bakı Türkoloji Qurultayının 100 illiyidir. Ötən 1 əsr ərzində Türk dünyası elm, mədəniyyət, ədəbiyyat və incəsənət sahəsində ciddi nailiyyətlər əldə etmiş, ölkələrarası əlaqələr inkişaf etmiş, Türk Dövlətləri Təşkilatı yaradılmış, ortaq əlifba və ortaq dil günümüzün reallığına çevrilmişdir. Bununla yanaşı, türkologiyanın inkişafı qarşısında ciddi problemlər də var. Dərginin yeni sayında bütün bu məsələlərə işıq tutulub.

Hər sayı nəfis tərtibatda dərc olunan dərginin baş redaktoru Namik Muraddır. Nəşrin çapını Şahnaz Kamal, Ceyhun İsayev, Ziba Muradova, Fərhad Daşdızadə, Ayaz Abdulzadə, Gülnar Səfərova və başqaları gerçəkləşdirirlər. Redaksiya heyətinə isə Azərbaycan, Türkiyə, Rusiya, Qazaxıstan, Avstriya və Güney Azərbaycandan ünlü imzalar – elm xadimləri, tanınmış qələm sahibləri daxildir.

Dərginin əvvəlində "Redaktordan" qeydi verilib. Müəllif yazır ki, nəşrin əsas hədəfi dəyişən dünyanın gözəllik, həqiqət, ədalət, mərhəmət, sevgi, ləyaqət kimi əbədi dəyərlərini təcəssüm etdirməkdir. Qədim və zəngin ədəbi-fəlsəfi irsə sahib olan Azərbaycanın dünya mədəniyyəti xəzinəsinə töhfələrini, bir növ, salnamə kimi təqdim etmək başlıca amalımızdır.

"Vətən"in 3-cü sayının ilk səhifələrində 2026-cı il fevralın 26-da Azərbaycan Yazıçılar Birliyinin və Türk Dünyası Araşdırmaları Mərkəzinin təşkilatçılığı ilə keçirilən və I Bakı Türkoloji Qurultayına həsr olunan uluslararası elmi-praktik konfransa yer ayrılıb. Oxucular dərginin bu sayında həmin konfransın materialları ilə bir daha ətraflı tanış ola bilərlər.

Qeyd edək ki, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı, Türk Dövlətləri Təşkilatı, TÜRKSOY, Bakı Dövlət Universiteti, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondunun tərəfdaşlığı ilə Bakıda, eləcə də Qarabağda – Şuşa, Xankəndi və Ağdam şəhərlərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" 22 oktyabr 2025-ci il tarixli sərəncamına uyğun olaraq "Türk Dünyası Həftəsi" çərçivəsində silsilə tədbirlərində, ümumilikdə, 20 ölkənin müxtəlif elmi mərkəzlərindən 80 tanınmış türkoloq-alim, eləcə də türk beynəlxalq təşkilatlarından nümayəndələr qatılmışlar. Hər bir tədbir Azərbaycanın dirçəlişini və bütövlükdə türk xalqlarının həmrəylik ruhunu ifadə edir. Türk dünyasının ortaq tarixində əlamətdar hadisə kimi qalacaq və gələcək nəsillər üçün dəyərli irs yaradacaq əlamətdar həftə ilə bağlı materiallar "Vətən" dərgisinin növbəti sayında geniş əksini tapacaq.

Dərgidə xatırladılır ki, 2026-cı il görkəmli Azərbaycan şairi və filosofu Əfzələddin Xaqani Şirvaninin 900 illik yubileyidir. Onun daxili tənhalıq, insanın cəmiyyətlə ziddiyyəti və mənəvi böhran haqqında fikirləri bu gün də müasir insanın düşüncələri ilə həmahəng səslənir. Dərgidə Xaqani Şirvani haqqında məqalə və onun yaradıcılığından nümunələr yer alıb. Eləcə də Xorxe Luis Borxesin, Vaqif Sultanlının və Mariya Karyaqinanın bədii yaradıcılıq nümunələri, qədim türk yurdu Çuvaş Respublikası barədə reportaj və digər maraqlı məlumatlar yer alıb. Ayrı-ayrı yazılara gəlincə, "Bir millət – iki dövlət"in tarixi dərinliyi", "Qədim Çuvaşıstan – həmişəcavan Çuvaşıstan", "Azərbaycan türkcəsinin tarixin kontekstdə inkişafı və sosial dəyişimlər", "Kamasın dili" və digər məqalələr maraq kəsb edir.

***Ə.ƏLİYEV***
***XQ***

# "Zamanın naxışları" moda nümayişi





**İyulun 1-də Azərbaycan Milli Xalça Muzeyində "Xalça Muzeyi Fashion Show: Zamanın naxışları" adlı moda nümayişi keçirilib. Alyona Əliyeva tədbirdə iştirak edib.**

Tədbirdə çıxış edən Azərbaycan Milli Xalça Muzeyinin direktoru Əminə Məlikova bildirib ki, muzeyin tarixində ilk dəfə olaraq ekspozisiya və fondlarda qorunan Azərbaycan xalçalarının naxışlarından ilhamlanaraq yerli dizaynerlər tərəfindən yeni moda kolleksiyaları hazırlanıb. Direktor layihəyə qoşulan dizaynerlərə təşəkkürünü bildirərək deyib: "İlk dəvətimizdən etibarən böyük həvəslə bu təşəbbüsə qoşuldular və altı ay ərzində Azərbaycan Milli Xalça Muzeyinin kollektivi ilə çiyin-çiyinə çalışdılar". O qeyd edib ki, Prezidentin müvafiq Sərəncamına əsasən keçirilən tədbir görkəmli alim, xalçaşünas və rəssam Lətif Kərimovun anadan olmasının 120 illiyinə həsr edilib.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova çıxışında vurğulayıb ki, Azərbaycan xalçası əsrlər boyu xalqımızın estetik zövqünü, dünyagörüşünü, həyat tərzini və mənəvi dəyərlərini yaşadan nadir sənət nümunəsidir. Nazir müavini bildirib ki, milli irsin yaşadılması təkcə onun qorunması ilə deyil, həm də müasir dövrün dili ilə yenidən təqdim olunması ilə mümkündür.

Daha sonra layihə üçün xüsusi hazırlanmış videoçarx nümayiş olunub.

Moda nümayişində Azərbaycan xalçaçılıq sənətinin zəngin ənənələri, milli ornamentlər və qədim simvollar müasir estetik baxış prizmasından təqdim edilib. Layihənin əsas ilham mənbələrindən biri bu il 120 illik yubileyi qeyd olunan görkəmli alim, xalçaşünas və rəssam Lətif Kərimovun zəngin yaradıcılığı olub. Dizaynerlər onun yaratdığı xalça kompozisiyalarını, naxışlarını, rəng harmoniyasını və bədii-estetik prinsiplərini müasir geyim kolleksiyalarında yaradıcı şəkildə əks etdiriblər.

"Fashion Show" çərçivəsində 14 peşəkar modelyer-dizayner – Fəxriyyə Xələfova, Gülnarə Xəlilova, Leyla Əhmədova, Yeganə Sadıqova, Mətanət Bayramova, Xəyalə Məsimova, Səbinə Zülalova, Leyla Babazadə, Günay Əliyeva, Şəbnəm Bayramova, Əcəmi Azər, Kübra Nuriyeva, Afaq İsmayılzadə və Xəyalə Bayramovanın hazırladığı ümumilikdə 116 geyim nümayiş etdirilib.

***XQ***

*Rauf Umudov – 70*

# Anı əbədiləşdirən peşəkarın sənət qalereyası

**...Onunla hər şeydən danışmaq olar. Dostluqdan, sənətdən, həyatın dolanbaclarından, dünyanın gərdişindən. Amma bir mövzu var ki, ondan ötrü ömrünün mənası yaşam tərzidir və bu barədə danışanda çöhrəsi nurlanır, baxışları durulur, gözlərini xəfifcə qırpmağa başlayır. Eynilə fotoaparatın obyektivi kimi...**

O, Azərbaycan fotoqrafiya sənətində özünəməxsus dəst-xətti ilə seçilən, həm klassik, həm də müasir təsviri yaradıcılığın çalarlarını ağ-qara fotoşəkillərdə uzlaşdırmağı bacaran sənətkarlardandır. Söhbət Azərbaycan Fotoqraflar Birliyinin sədr müavini, bu peşədə sözünü demiş Rauf Umudovdan gedir. Bir gözqırpımlıq anı ustalıqla yaxalayan, əsərlərinə "Rauf Umud" imzasını qoyan sənətkar bugünədək çalışdığı yaradıcı kollektivlərdə özü haqqında yalnız nikbin təəssürat, xoş xatirə buraxıb.

...Rauf Umud ekstrim şəraitdə işləməyə öyrəncəli sənətkardır. Ötən əsrin 80-90-cı illərinin populyar "Gənclik" jurnalının fotomüxbiri, 34 yaşlı Rauf 1990-cı il 20 yanvar gecəsi işğalçı Sovet ordusunun dinc əhaliyə divan tutmasını, eləcə də şəhidlərin dəfn mərasimindən ürəkparçalayan səhnələri təkcə fotoobyektivin deyil, həm də tarixin yaddaşına köçürüb. Bu, sadəcə, redaksiya tapşırığı deyil, böyük cəsarət və ürək tələb edən missiya idi. Sonrakı nəsil "qırmızı imperiya"nın Azərbaycanın paytaxtında törətdiyi vandalizmin miqyasını həm də Rauf Umudun lentə aldığı müdhiş kadrlarla təsəvvüründə canlandırır.



**EPİZOD:** Onun Şəhidlər Xiyabanında 7 yaşlı qız uşağının 14 yaşlı İlqarın məzarı başında qəfildən hönkürüb ağlamasını əks etdirən "Fəryad" foto-etüdü Fransanın Nant şəhərində keçirilən müsabiqədə yüksək mükafata layiq görülüb.

Fotoqrafiya çevikliklə yanaşı, dözüm və təmkin də tələb edir. Özünün dediyinə görə, bəzən nadir təbiət hadisəsini "yaxalamaqdan" ötrü Azərbaycanın hansısa bölgəsində saatlarla deyil, günlərlə gözləməli olub. Amma sonda səbir təbiətin şıltaqlığına "qalib gəlib" və o, istədiyi anı lentə köçürüb.

Azərbaycan Fotoqraflar Birliyinin sədr müavini R.Umudov həm də təcrübəli pedaqoq, sənətinin sirlərini gənclərə səxavətlə öyrədən ustaddır. 165 yaşına çatmış Azərbaycan fotoqrafiya sənətinin görkəmli nümayəndəsi, 70 yaşını qürurla qarşılayan peşəkar, ürəyi daim vətənpərvərlik duyğusu ilə döyünən dəyərli həmkarımız belə deyir: "Fotoqrafiya sənətinə yalnız kommersiya vasitəsi kimi yox, həm də dərin fəlsəfi məna daşıyan sənət sahəsi kimi yanaşmağa ehtiyac var".

...Şəxsiyyət və sənətkar. Rauf Umudov bir çox hallarda üst-üstə düşməyən bu iki məfhumun vəhdət təşkil etdiyi nöqtədə dayanmağı bacaran peşəkarlardandır. Bunu onunla 35 ilin tanışı, yaradıcılığının bütün mərhələlərini izləmiş şahid kimi əminliklə deyirik.

Düşünürük ki, əlində fotoaparat ömrünün 70-ci epizodu ilə üz-üzə duran Rauf Umudun anın peşəkarı kimi yaradıcılığı boyu obyektivinin gözünə tuş gələn bütün kadrları avtoportret janrına aid etmək olar. Həmin ağ-qara portret-tablodan seyrçilərlə nadir anları fotoya çevirmək şövqü ilə alışıb-yanan 70 yaşlı sənətkarın xeyirxah və müdrik baxışları danışır...

***İ.HƏSƏNQALA***
***XQ***

# Qarabağ yurd sevdalılarına "gəl-gəl" deyir...

*Bərpa olunan ərazilərdən yeni turizm marşrutları keçir*

**Tanrının bəxş etdiyi ecazkar təbiət gözəlliklərini görmək, təmiz havasını udmaq, şəfalı bulaqlarından içmək məqsədilə xüsusilə yay aylarında Qarabağa üz tutanların ardı-arası kəsilmir. Zaman keçdikcə, həm əzəli sakinlərinin dönüşü ilə işğaldan azad edilmiş ərazilərimizə həyat qayıdır, həm də bu müqəddəs torpaqlar yeni turizm marşrutlarına çevrilir.**



Yenidən qurulan Ağdamın, Xocalının, Xankəndinin ruhumuza hüzur verən parklarında, Şuşanın şanına şeirlər yazılmış, nəğmələr bəstələnmiş Cıdır düzündə, İsa bulağında, Turşsuyunda, Ağdərənin möcüzəli kəndlərində, Həkərinin sahilində, Laçının, Kəlbəcərin buz kimi çeşmələrinin başında, min bir rəngli, ətirli güllərlə, çiçəklərlə bəzənmiş yaylaqlarında qələbəliyi görəndə sevinməmək, qürurlanmamaq mümkün deyil. Təsadüfi deyil ki, bəzən bu məkanları ziyarət edə bilmək üçün növbəyə durmaq lazım gəlir.

Bütün bunlar isə bölgədə turizm imkanlarının genişləndirilməsi, yerli sakinlərin turizm fəaliyyətinə cəlb olunması, nəticə olaraq kənd yerlərində məşğulluğun artırılması və kiçik sahibkarlığın dəstəklənməsi istiqamətində addımların atılmasını zərurətə çevirir. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyin dəstəyi, Qarabağ Regional Turizm İdarəsinin təşkilatçılığı ilə Ağdərə rayonunun Vəngli kəndində keçirilən "Kənd turizmi və qonaq evlərinin təşkili" mövzusunda təlim bu baxımdan xüsusi əhəmiyyət daşıyır.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən aldığımız məlumata görə, təlim işğaldan azad edilmiş ərazilərdə kənd turizminin inkişafına dəstək vermək, yerli sakinlərin turizm sahəsində bilik və bacarıqlarını artırmaq, qonaq evlərinin səmərəli idarə olunması üzrə praktiki vərdişlərin formalaşdırılması, həmçinin regionun turizm potensialından dayanıqlı şəkildə istifadəyə töhfə vermək məqsədilə keçirilib.

Təlim zamanı bildirilib ki, Kiçik Qafqaz dağlarının ətəklərində yerləşən Vəngli kəndi zəngin meşə örtüyü, dağ çayları, əlverişli təbii landşaftı, təmiz ekoloji mühiti və tarixi-mədəni irsi ilə seçilərək regionun turistlər üçün cəlbedici məkanlarından birinə çevrilib. Son illərdə kənddə aparılan bərpa və yenidənqurma işləri, yol infrastrukturunun müasirləşdirilməsi burada ekoturizm və aqroturizmin inkişafı üçün əlverişli şərait yaradıb.

Təlimçi, Qarabağ Universitetinin müəllimi, "Kənd yaşıl turizminin inkişafına dəstək" İctimai Birliyinin sədri Qəhrəman Yusubov iştirakçılara qonaq evlərində yerləşdirmə və rezervasiya prosesinin təşkili, turistlərin qarşılanması, xidmət mədəniyyəti, effektiv ünsiyyət, sanitar-gigiyena normaları və təhlükəsizlik qaydaları barədə ətraflı məlumat verib, sakinlərin bu istiqamətdə suallarını cavablandırıb.

Təlimin əhəmiyyəti barədə XQ-yə danışan Qəhrəman Yusubov bildirdi ki, işğaldan azad edilmiş ərazilərdə turizmin, xüsusilə də kənd turizminin inkişafı yerli sakinləri məskunlaşdıqları ərazi barədə daha geniş məlumat toplamağa vadar edir:

– Çünki turistləri əsas maraqlandıran məqamlar məhz səfər etdikləri məkanın tarixi, məişəti barədə maraqlı məlumat almaq və kənd sakinlərinin bələdçiliyi ilə ətraf ərazilərə yürüşlər etməkdir. Kənd turizminin inkişafı bölgənin turizm məkanı kimi tanıdılmasında xüsusi rol oynayır. "Kənd yaşıl turizminin inkişafına dəstək" İctimai Birliyinin əməkdaşları kənd qonaq evlərində xidmət keyfiyyətinin yüksəldilməsi və xidmət çeşidinin genişləndirilməsi məqsədilə layihələrdə iştirak etməyə həmişə hazırdırlar.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə turizm infrastrukturunun inkişafı, xidmət keyfiyyətinin yüksəldilməsi və yerli əhalinin bu sahədə biliklərinin artırılması məqsədilə gələcəkdə də müxtəlif təlimlərin və maarifləndirici tədbirlərin təşkili planlaşdırılır.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Ağdərə**



# Saray qəsəbəsi dünəndən sabaha boy atır



**Abşeron yarımadasında yerləşən Saray qəsəbəsi həm tarixi minillik köklərə söykənən, həm də artıq "göydələn" kompleksləri olan böyük yaşayış məntəqəsidir. Bu kəndin əhalisi hələ orta əsrlərdən də əvvəl ticarətlə məşğul olub.**

Saray adının mənşəyi çox maraqlıdır. Kənd əvvəllər "Karvansara" adlanıb, yəni karvanların dayanıb istirahət etdiyi, tacirlərin nəfəs dərdiyi yer. Böyük İpək yolunun bir qolu buradan keçib. Zamanla "Karvansara" adı qısaldılıb və "Saray" formasını alıb.

Rəsmi sənədlərdə məntəqənin adı ilk dəfə 1774 cü ildə qeyd olunub. Əslində, burada daha qədim yaşayış izləri – arxeoloji və memarlıq abidələri qalır. Köhnə Cümə məscidi və digər daş tikililər bu qəbildəndir. Yeni Sarayda isə yaraşıqlı binalar, meyvəli bağlar, zəruri infrastruktur, müasir istirahət guşələri, çeşidli xidmət sahələri var.

Bu sətirlərin müəllifi Sumqayıtda yaşadığı üçün, demək olar ki, hər gün Saraydan keçərək Bakıya işə gəlib-gedir. Bir vaxtlar "Badam bağları" deyilən ərazi ilə üzbəüzdə balaca bir torpaq sahəm də vardı. Yəni orada ev tikə bilsəydim, mən də saraylı ola bilərdim, amma, necə deyərlər, hünərim çatmadı...

Qədim qəsəbənin inkişafı gözlərimizin önündəcə baş verir. İnişil Məhəmməd Əsədov küçəsində dəmiryol xətti və Samur–Abşeron kanalı üzərində yerləşən körpü yenilənib. Özü də ardıcıl 2 dəfə. Məsələ burasındadır ki, ilk əsaslı təmirdən sonra körpünün giriş və çıxış hissələrində qalmış bəzi obyektlər darısqallıq yaradırdı, buna görə də abadlıq işləri daha da genişləndirilib və sıxlıq aradan qaldırılıb. İndi orada avtomobillərin və piyadaların rahat hərəkəti tam təmin edilib. Qəsəbənin digər yolları da abadlaşdırılır, yaşıllıqlar artırılır, bağlar genişlənir, təmizlik işləri müntəzəm aparılır.

Sarayda maraq doğuran yerlərdən biri Şah İsmayıl Xətai küçəsi, görkəmli təbib və ictimai-siyasi xadim, akademik Vəli Axundovun büstü olan ərazidir. Bir neçə il əvvəl Prezident İlham Əliyevin sərəncamı ilə onun 100 illik yubileyi qeyd edilib. Bir vaxtlar tez-tez görüşüb maraqlı söhbətlərini dinlədiyim qəsəbə icra nümayəndəsi Baba müəllim də məşhur Axundovlar nəslindən idi. Ziyalı kimi el-oba arasında böyük hörməti vardı.

Sarayın sakinləri bu torpağın yetirdiyi digər tanınmışlarla da fəxr edirlər. Kimyaçı alim Vahab Əliyev, Sovet İttifaqı Qəhrəmanı Mikayıl Ələkbərov, Xalq artistləri Səyavuş Aslan və Gülşən Qurbanova, kinorejissor Muxtar Dadaşov, məşhur pəhləvan İbrahimpaşa Dadaşov ehtiramla yad olunurlar.

Tanınmışlardan biri də Abşeron ədəbi mühitinin yetirdiyi, sabiranə tərzdə cəsarətli, axıcı şeirlər yazıb oxuyan şair-qəzəlxan Rəhim Saraylı idi. Əliağa Vahidin layiqli ardıcılının çıxışlarını alqışlamaqdan yorulmazdıq:

**Bu böhran, ay da, baş alıb hey gedir,**
**Varlıların evində "ley-pey" gedir,**
**Yoxsul acından gecə şaxsey gedir,**
**Çox çətin günləri salır yadına,**
**Qoy, Allah çatsın kasıbın dadına.**

Sumqayıt ədəbi birliyinin sevimli üzvlərindən olan Rəhim Saraylı "istiotlu" yazılarına görə bəzən incidilsə də, dediyindən dönməyən satirik idi. Onun bacısı Xanımana (Xalmana) da bədahətən şeirlər deyərdi. Rəhim Saraylı görüşlərdə, toylarda, dost məclislərində baş tərəfdə əyləşdirilərdi. Salam Qədirzadə "Kirpi" jurnalında, Xasay Cahangirov "Sumqayıt" qəzetində onu həvəslə çap etdirərdilər. Şeirləri çıxanda əl-əl gəzərdi. Beş il əvvəl bir qış günü şair haqqa qovuşdu. Yaşasaydı, indi 90 yaşı olacaqdı.

Böyük Zəfərlə başa çatmış 44 günlük Vətən müharibəsi zamanı Sarayın məşhurlarının sırasına şəhidlər Rauf İbadov, Hətəmxan Quliyev, İlkin Məmmədov və başqalarının da adları qoşulub. Yüksək abadlığı ilə seçilən "Şəhidlər" kompleksi vətənsevər gənclərin əsas ziyarət ünvanına çevrilib.

...Ötən ay şəhid rəssam Rauf İbadovun 30 illik yubileyinə biz də dəvət olunmuşduq. Rayon rəhbərliyi, Milli Məclisin deputatları, ictimai təşkilatların nümayəndələri, şəhid ailələri, qazilər onun məzarı üstündə bir araya gələrək xatirəsinə ehtiram duyğularını ifadə etdilər. Sonra ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmiş şəhidin mövludu qeyd edildi. Atası – Abşeron Rayon Ağsaqqallar Şurasının sədri Məhərrəm İbadov böyük sayğıya görə hər kəsə minnətdarlığını bildirdi. İştirakçılara şəhid rəssamın adına çıxarılmış "Haqq rəssamı" kitabının nüsxələri hədiyyə edildi.

Bəli, Abşeronun Saray qəsəbəsində əzəli ənənələr yaşadılmaqla bərabər, yeniləri də həyata vəsiqə qazanır. Eyni zamanda, qəsəbə böyüməkdə, daha da gözəlləşməkdədir.

***Ə.DOSTƏLİ***
***XQ***

# “Azəristiliktəchizat” ASC-nin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

manatla

| Aktivlər | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il (yenidən bəyan olunmuş) | 1 yanvar 2025-ci il (yenidən bəyan olunmuş) |
|---|---|---|---|
| Əmlak, tikili, avadanlıq və qeyri-maddi aktivlər | 128,948,253 | 128,875,648 | 130,368,459 |
| **Cəmi uzunmüddətli aktivlər** | **128,948,253** | **128,875,648** | **130,368,459** |
| **Qısa müddətli aktivlər** | | | |
| Mal-material ehtiyatları | 6,192,491 | 5,054,653 | 4,017,324 |
| Ticarət və digər debitor borcları | 13,462,675 | 14,570,595 | 13,393,261 |
| Digər aktivlər | 7,955,266 | 6,909,754 | 4,379,817 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 7,217,063 | 7,851,320 | 4,433,282 |
| **Cəmi qısamüddətli aktivlər** | **34,827,495** | **34,386,322** | **26,223,684** |
| **Cəmi aktivlər** | **163,775,748** | **163,261,970** | **156,592,143** |
| Borc öhdəlikləri | 11,025,210 | 15,510,420 | 19,995,630 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | **11,025,210** | **15,510,420** | **19,995,630** |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Borc öhdəlikləri | 26,735,099 | 28,570,785 | 23,753,125 |
| Ticarət və digər kreditor borcları | 37,983,429 | 43,165,425 | 34,634,302 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **64,718,528** | **71,736,210** | **58,387,427** |
| **Cəmi öhdəliklər** | **75,743,738** | **87,246,630** | **78,383,057** |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 136,684,980 | 136,684,980 | 136,684,980 |
| Dövlət tərəfindən kapital qoyuluşu | 66,203,677 | 61,536,054 | 58,218,329 |
| Yığılmış zərər | (114,856,646) | (122,205,694) | (116,694,22) |
| **Cəmi kapital** | **88,032,011** | **76,015,340** | **78,209,086** |
| **Cəmi öhdəliklər və kapital** | **163,775,749** | **163,261,970** | **156,592,143** |

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

Biz, “HESABAT” MMC kimi cəmiyyətin 2025-ci il dekabrın 31-nə konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə konsolidə edilmiş mənfəət, zərər və digər məcmu gəlir, konsolidə edilmiş kapitalda dəyişikliklər və konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu prinsiplərinin icmalı da daxil olmaqla konsolidə edilmiş maliyyə hesabatlarına dair qeydlərdən ibarət olan konsolidə edilmiş maliyyə hesabatlarının auditini apardıq.

Cəmiyyətdə tətbiq edilən mühasibat uçotu qaydalarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS-lərə) və Mühasibat Uçotunun Beynəlxalq Standartlarına (MUBS-lara) uyğunluğunun dəyərləndirilməsini apararaq tətbiq olunan cari uçot siyasətinə uyğun gələn yeni MHBS-lər və MUBS-lar üzrə tövsiyələrin verilməsini təmin etdik.

**Şərti müsbət rəy üçün əsas**

**Mal-material ehtiyatları:**

Biz cəmiyyətin kənar auditoru kimi cəmiyyətdə 2025-ci il dekabrın 31-nə mal-material ehtiyatlarının fiziki sayılması prosesini müşahidə etməmişik. Bu səbəbdən Konsolidə edilmiş maliyyə hesabatlarının tərkibində 31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixlərinə müvafiq olaraq, 6,192,491 AZN və 5,054,653 AZN dəyərində göstərilmiş mal-material qalıqları üzrə maliyyə məlumatlarının tamlığı ilə bağlı rəy verə bilmirik.

**Digər aktivlər:**

Apardığımız audit zamanı müəyyən edilmişdir ki, 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatın “Digər aktivlər” maddəsində 7.955.266 (yeddi milyon doqquz yüz əlli beş min iki yüz altmış altı manat (2024-cü il dekabrın 31-nə : 6.909.754 (altı milyon doqquz yüz doqquz min yeddi yüz əlli dörd manat) məbləğində əks etdirilmiş qalıq üzrə təqdim edilmiş audit sübutları həmin aktivlərin tanınması, qiymətləndirilməsi və maliyyə hesabatlarında düzgün əks etdirilməsinin bütün əhəmiyyətli aspektlər üzrə təsdiq edilməsi üçün kifayət və münasib olmamışdır. Bu səbəbdən qeyd olunan maddə üzrə hər hansı düzəlişin zəruriliyi və mümkün məbləğini müəyyən etmək mümkün olmamışdır.

Bu məsələlərin əlavə olunmuş Konsolidə edilmiş maliyyə hesabatlarına təsiri nüfuzedici deyildir. Bizim rəyimiz yuxarıda qeyd edilən məsələlərlə bağlı şərtlənir.

Biz auditi Beynəlxalq Audit Standartlarına (“BAS”-lara) uyğun olaraq apardıq. Bizim həmin standartlar üzrə öhdəliklərimiz hesabatımızın “Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti” bölməsində təsvir olunur. Bizcə, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

**Konsolidə edilmiş maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik, konsolidə edilmiş maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə, habelə saxtakarlıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflərin olmadığı konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasına zəmin yaradan zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Rəhbərlik, cəmiyyətin fəaliyyətinin fasiləsiz davam etdirilməsinin qiymətləndirilməsi və fəaliyyətin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanmasına, habelə fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

**Konsolidə edilmiş maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti**

Bizim məqsədimiz ümumiyyətlə konsolidə edilmiş maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olmamasına kifayət qədər əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik, əminliyin yüksək dərəcəsini ifadə edir, lakin BAS-lara uyğun aparılmış audit nəticəsində mövcud olan bütün təhriflərin üzə çıxarılmasına zəmanət vermir. Təhriflər, fırıldaqçılıq və ya səhvlər nəticəsində əmələ gələ bilər və fərdi və ya məcmu halda götürülməklə hazırkı konsolidə edilmiş maliyyə hesabatlarının əsasında istifadəçilərin qəbul edəcəkləri iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı halda əhəmiyyətli hesab edilir.

BAS-lara uyğun olaraq aparılmış auditin bir hissəsi kimi biz audit zamanı peşəkar mühakimə və peşəkar skeptisizm tətbiq edirik. Biz həmçinin:

• Konsolidə edilmiş maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edir və qiymətləndirir, həmin risklərə cavab olaraq audit prosedurlarını layihələndirir və həyata keçirir, eləcə də rəyimiz üçün əsas yaratmaq məqsədilə kifayət və münasib olan audit sübutunu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhvlər nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir, çünki fırıldaqçılığa gizli sözləşmə, saxtakarlıq, bilərəkdən səhv buraxma, yanlış təqdimat və ya daxili nəzarət qaydalarına əməl edilməsidaxil ola bilər.

• Müəyyən şəraitdə münasib olan audit prosedurlarının işlənib hazırlanması məqsədilə auditə aid olan daxili nəzarət elementləri haqqında anlayış əldə edir, lakin bu zaman cəmiyyətin daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədini güdmürük.

• Rəhbərlik tərəfindən istifadə edilmiş uçot prinsiplərinin münasibliyini, uçot təxminlərinin və əlaqəli açıqlamaların əsaslılığını qiymətləndiririk.

• Rəhbərlik tərəfindən mühasibat uçotunun daim fəaliyyətdə olan müəssisə konsepsiyasının tətbiqinin münasibliyi və əldə edilmiş audit sübutlarına əsaslanaraq cəmiyyətin daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməsi ilə bağlı əhəmiyyətli şübhə doğuran hadisə və ya şəraitlərlə əlaqədar mühüm qeyri-müəyyənliyin olub-olmaması haqqında nəticə çıxarırıq. Mühüm qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gələcəyimiz halda, biz auditor hesabatımızda konsolidə edilmiş maliyyə hesabatlarındakı əlaqəli açıqlamalara diqqəti yönəltməliyik və ya əgər bu cür açıqlamalar qeyri-münasib olarsa, rəyimizə düzəliş etməliyik. Lakin gələcək hadisə və ya şəraitlər cəmiyyətin daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməməsinə gətirib çıxara bilər.

• Məlumatların açıqlanması da daxil olmaqla konsolidə edilmiş maliyyə hesabatlarının ümumi təqdimatı, strukturu və məzmununu, eləcə də konsolidə edilmiş maliyyə hesabatlarının müvafiq əməliyyat və hadisələri düzgün təqdim edib-etmədiyini qiymətləndiririk.

Biz cəmiyyətin idarə olunmasına cavabdeh şəxslərin nəzərinə digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış əhatə dairəsi, vaxtı və əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarətdə müəyyən etdiyimiz hər hansı əhəmiyyətli çatışmazlıqları çatdırırıq.

Biz, həmçinin cəmiyyətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat veririk ki, müstəqilliyə və müstəqilliyimizə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimizə dair müvafiq etik normalara riayət etmişik. Cəmiyyətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən biz cari dövr üzrə konsolidə edilmiş maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirik. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat verməninn mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmş şəkildə güman edildiyinə görə biz bu məsələ haqqında hesabatımızda məlumatın verilməməsini qərara almadığımız halda, bu məsələləri auditor hesabatımızda təsvir edirik.

**“HESABAT” MMC-nin direktor (auditoru) Məmmədov Rüfət Azad oğlu**

**25 iyun 2026-cı il Bakı, Azərbaycan**

*Yeniliyin ünvanı*

# Dəryada balıqçılıq layihələri

## *Gərək torpaq kimi, suyu da becərəsən*

**Lənkəran rayonunun Balıqçılar qəsəbəsi mavi Xəzərin sahilində yerləşir. Bu yerlər əsrarəngiz təbiəti, zəngin bitki örtüyü, saf dəniz havası, zirək, işgüzar insanları ilə seçilir. Rayon mərkəzindən qəsəbəyə 36 kilometrlik rahat asfalt yol uzanır.**



Qəsəbədə ilk həmsöhbətimiz **Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının Balıqçılar qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Məlik Abışov** deyir ki, bu yol Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə yol əsaslı şəkildə təmir olunub.

Qəsəbədə 2 min 575 nəfər əhali, 518 ailə təsərrüfatı var. Rayonun kəndlərində əhalinin çörəyi torpaqdan, bizdə isə dənizdən çıxır. Sakinlər ata-babadan balıqçılıqla məşğul olurlar. Bu çətin, şərəfli peşə atadan-oğula, nəvəyə, beləcə nəsildən-nəslə ötürülür. Dövlətimiz və rayon rəhbərliyi balıqçıların iş şəraitinin yaxşılaşdırılmasına, çətinliklərinin həllinə yüksək qayğı göstərir.

Qeyd edək ki, Lənkəranda balıqçılığın zəngin tarixi, özünəməxsus ənənələri var. Tarixi mənbələrdə hələ eramızdan 8 əsr əvvəl Xəzər sahillərində yaşayanların balıqçılıqla məşğul olduğu qeyd edilib. 1828-ci ildən başlayaraq Lənkəranda kütləvi surətdə balıq ovu, kürü istehsalı, balıq qurudulması və satışı həyata keçirilib.

XIX əsrin ikinci yarısında Lənkəran qəzası təkcə Azərbaycanda deyil, hətta Zaqafqaziyada balıq istehsalında birinci yeri tutub. Qumbaşı və Sarı adasında Mir Əhməd xan Talışinski və Hacı Zeynalabidin Tağıyevə məxsus balıq vətəgələri fəaliyyət göstərib. 1929-cu ildə Lənkəranda ilk balıqçılıq kolxozları yaradılıb. Haqqında söhbət açdığımız Balıqçılar qəsəbəsində də elə o vaxtdan balıqçılıq başlıca fəaliyyət sahəsinə çevrilib.

Kiçik Qızılağac Balıqartırma MMC qəsəbədə yeganə istehsal müəssisəsidir. 1956-cı ildən zavod kimi fəaliyyət göstərib. İlk vaxtlar təbii yolla çəkikimi balıq körpələri yetişdirilərək dənizə buraxılıb. 1980-ci ildə Xəzərin və ölkənin daxili su hövzələrində balıq ehtiyatlarını artırmaq məqsədilə təsərrüfatda inkubasiya sexi istifadəyə verilib. Son illər zavodun fəaliyyəti daha da genişləndirilib.

Müəssisəyə 10 ildən çoxdur ki, təcrübəli mütəxəssis Dadaş Abbasov rəhbərlik edir. O, 1989-cu ildə Həştərxan Balıq Sənayesi və Təsərrüfatı İnstitutunu balıq məhsullarının texnologiyası ixtisası üzrə bitirib. Uzun illər Lənkəran rayonundakı Nərimanabad qəsəbəsindəki balıq kombinatında sex rəisi işləyib. **Dadaş Abbasov balıqçılığın inkişafına göstərilən dövlət qayğısından, təsərrüfatın fəaliyyətindən söhbət açaraq deyir:**

– Mayın 25-də Prezident İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə balıqçılığın inkişafı ilə bağlı qarşıya konkret vəzifələr qoyulub. Qeyd olunub ki, son 10 ildə ölkəmizdə balıqçılıq məhsullarının istehsalı 2,7 dəfə artıb. Balıqçılıqla əlaqədar akvakulturanın inkişaf etdirilməsi əsas hədəflərdən sayılır. Akvakulturada istehsal olunan balıq həcminin 2030-cu ilə qədər iki dəfədən çox artırılması, eyni zamanda, ilk dəfə balıqçılıq sahəsində subsidiyaların və dövlət güzəştlərinin verilməsi, balıqartırma zavodlarının inşası nəzərdə tutulur.

Həmçinin dövlət başçısının Sərəncamı ilə “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı” qəbul olunub.

**Təcrübəli işçilərdən Sadiq Quliyev** 20 ildir ki, müəssisədə balıqşünas vəzifəsində çalışır. Prezident İlham Əliyevin balıqçılığın inkişafına göstərdiyi misilsiz qayğının kollektivdə çox razılıqla qarşılandığını, böyük ruh yüksəkliyi yaratdığını bildirir.

Müəssisə təkcə cənub bölgəsində deyil, respublikamızın su hövzələrinə balıq körpələrinin buraxılması, balıq ehtiyatlarının tükənməsinin qarşısının alınması istiqamətində fəaliyyət göstərir. İnkubasiya sexində kütümlə yanaşı, çəki, ağamur, enlialın balıqların körpələri artırılır, 10-40 qram çəkidə yetişdirilərək suya buraxılır.

Ötən illərdə müəssisədə istehsal olunmuş balıq süfrələri Xəzər dənizinə, Mingəçevir, Şəmkir su anbarlarına, Kür çayına, Xanbulançay və Viləşçay dəryaçalarına, işğaldan azad edilmiş Xaçınçay, Həkəriçay, Suqovuşan, bu il isə Qaxdakı su hövzələrinə buraxılıb. Həmçinin Xəzər dənizində və təbii su hövzələrində ovlanmış kütüm balıqlarından inkubasiya olunmuş 2 milyon 92 min kütüm süfrəsi körfəzə və dənizə buraxılıb. 2026-2027-ci illərdə 2 milyon 50 min çəkikimi balıq süfrəsinin su hövzələrinə buraxılması həyata keçriləcəkdir.

Müəssisənin 18 nəfərdən ibarət qabaqcıl, işgüzar kollektivi var. Mövsüm ərzində ana balıqların kürüsü sağılaraq inkubasiya olunur və təbii su hövzələrinə buraxılır. İşçilər qarşıya qoyulmuş vəzifələri bacarıqla, peşəkarlıqla icra edirlər. Müəssisədə çalışanların orta aylıq əməkhaqqı 565 manata çatır.

Qəsəbədə olarkən qocaman, təcrübəli balıqçılarla görüşdük. Onlar balıqçılığın indiki vəziyyətindən, mövcud çətinliklərdən söhbət açdılar. **Qəsəbənin yaşlı sakini Tofiq Abdullayev dedi:** “Bütün ömrümü balıqçılığa həsr etmişəm. Uzun illər Qızılağac Dövlət Təbiət Qoruğunda işləmiş, dənizdə balıq ovu ilə məşğul olmuşam.

Əvvəllər balıq daha çox olardı. Müəyyən səbəblərdən azalma baş verib. Mühərrikli gəmilərin səs-küyü, dənizin çirklənməsi, şirin su mənbələrinin azalması, balıq ovunda istifadə olunan sintetik torlar balıqçılığın inkişafına təsirsiz ötüşməyib. Bəzi balıqların hətta nəsli kəsilib. Nərə cinsli balıqlar qəhətə çıxıb.

Əvvəllər dənizin sahil hissəsinə yaxın ərazilərdə qamış, yosun bitərdi. Pulcuqlu balıqlar orada qidalanar, kürü tökərdi. Dəniz çirkləndiyindən qamışlıqlar quruyub, balıq daha uzaqlarda özünə yem axtarır. Möhtərəm Prezidentimizin Sərəncamı ilə təsdiq olunmuş Dövlət Proqramı ümidlərimizi artırıb. İnanıram ki, rayonumuzda balıqçılığın əvvəlki şöhrəti yenidən qayıdacaq”.

**Qocaman balıqçı Ağarza Həsənov** qəsəbədə boya-başa çatdığını, əhalinin güzəranının balıqçılıqdan asılı olduğunu deyir. Şirin su hövzələrindən Qumbaşıçay, Boladiçayın mövsüm ərzində quruduğunu, balıqların ərazidən perik düşdüyünü bildirir. Dövlət Proqramının icrası sayəsində balıqçılığın yenidən dirçələyəcəyini, balıqçıların rifah halının daha da yaxşılacağını əminliklə qeyd edir.

“Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı” balıqçılığın inkişafı ilə əlaqədar konkret vəzifələr, yeni perspektivlər müəyyənləşdirib. **Kənd Təsərrüfatı Nazirliyinin Balıqçılıq və Akvakultura Mərkəzinin balıq və su bioresurslarının idarə edilməsi və balıqartırma şöbəsinin müdiri Elşad Əhmədov proqramda qarşıya qoyulan vəzifələrdən, gələcək perspektivlərdən danışdı:**

– Balıqçılıq və akvakultura sektoru ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması, əhalinin keyfiyyətli zülal mənbələrinə çıxış imkanlarının genişləndirilməsi, regionlarda məşğulluğun artırılması və ixrac potensialının inkişaf etdirilməsi baxımından böyük əhəmiyyətə malikdir. Son illərdə həmin sektorda inkişaf imkanları genişlənsə də, balıq ehtiyatlarının qorunması, ekoloji tarazlığın saxlanılması və digər vacib məslələrin həlli istiqamətində əlavə tədbirlərin görülməsinə ehtiyac var. Dövlət Proqramında balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahəsində qarşıya çox mühüm vəzifələr qoyulub.

Proqramın icrası ilə əlaqədar ölkəmizin su hövzələrində balıq ehtiyatlarının artırılması və biomüxtəlifliyin qorunması məqsədilə il ərzində ümumilikdə 500 min ədəd körpə nərə cinsli, çəkisi 2-10 qram arası olan balıqların təbii mühitə buraxılması nəzərdə tutulur. İlkin mərhələdə 200 min ədəd dövlət-özəl tərəfdaşlığı sayəsində, 300 min ədəd balıq körpəsinin isə dövlətə məxsus Xıllı balıq MMC tərəfindən təbii su hövzələrinə buraxılması planlaşdırılıb.

Layihə dövlət və özəl sektorlarının tərəfdaşlığı çərçivəsində həyata keçirilir. Artıq 50 min ədəd nərəkimilər fəsiləsinə aid balıq körpəsi Neftçala rayonu ərazisində, Kür çayının Xəzər dənizi ilə qovuşduğu hissədə təbii mühitə buraxılıb. Yaxın mərhələdə ümumilikdə 150 min ədəd balıq körpəsinin buraxılması, işlərin ilboyu davam etdirilməsi nəzərdə tutulub. Həyata keçirilən tədbirlər nəsli kəsilməkdə olan nərəcinsli balıq ehtiyatlarının bərpasına, ekoloji tarazlığın qorunmasına və su hövzələrinin biomüxtəlifliyinin zənginləşdirilməsinə mühüm töhfələr verəcək.

Dövlət Proqramı çərçivəsində mövcud qanunların təkmilləşdirilməsi, maddi-texniki bazanın modernləşdirilməsi, Xəzərdə və daxili su hövzələrində ekspedisiya su bioresurslarının qiymətləndirilməsi, yerli və xarici mütəxəssislərlə balıq ovuna nəzarət prosesi həyata keçiriləcək. Həm əmtəəlik məhsula, həm də avadanlıqların alınmasına subsidiyalar veriləcək, kadr potensialı, beynəlxalq və yerli qurumlarla əməkdaşlıq daha da gücləndiriləcək.

Bundan əlavə, proqram çərçivəsində iki balıqartırma zavodunun yenidən qurulması, daha ikisinin isə əsaslı təmiri nəzərdə tutulub.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Xarici xəbərlər



## Britaniya və Omanın Hörmüz müzakirəsi

**Böyük Britaniyanın xarici işlər naziri İvette Kuper Omanın xarici işlər naziri Seyid Bədr Əl-Busaidi ilə görüşdüyünü açıqlayıb. O, bu barədə “X” sosial şəbəkəsində paylaşım edib. Kuper yazıb: “Dünən Omanın xarici işlər naziri Seyid Bədr Əl-Busaidi ilə görüşməkdən məmnun oldum. Böyük Britaniya və Oman sıx və uzunmüddətli tərəfdaşlığa malikdirlər”.**

İ.Kuper onu da qeyd edib ki, tərəflər Hörmüz boğazında əməliyyatların tam bərpası, mina təmizləmə səylərinə dəstək və regionda sabitliyin və təhlükəsizliyin gücləndirilməsi məsələlərini müzakirə ediblər.

## NATO-nun Ankara sammitinə ümidlər böyükdür

“Ümid edirəm ki, gələcəkdə Ankara sammitinə nəzər salan insanlar onu verilən öhdəliklərin həyata keçirildiyi sammit kimi xatırlayacaqlar. Haaqa sammitində vədlər verildi, Ankara sammiti isə bu vədlərin icra olunduğu sammit olmalıdır”. Bu sözləri “Reuters”ə NATO-nun Baş katibi Mark Rutte deyib. “Müdafiə xərcləri həm Haaqa sammitində müzakirə olunub, həm də Ankara sammitinin gündəliyində yer alan üç əsas mövzudan biridir. Bu sahədə avropalı müttəfiqlərin və Kanadanın cəmi 2 il ərzində müdafiəyə əlavə 250 milyard dollara qədər vəsait ayırması həqiqətən təsiredicidir. İkinci prioritetimiz Ukraynaya dəstəyin davam etdirilməsidir. Üçüncü prioritetimiz isə NATO daxilində daha güclü Avropa demək olan "NATO 3.0" konsepsiyasını formalaşdırmaqdır. Bunun üçün müdafiə sənayesinin istehsal gücünü əhəmiyyətli dərəcədə artırmalıyıq”, – deyə Rutte vurğulayıb.

## Xamenei ilə vidalaşmağa 100 ölkədən nümayəndə gələcək



İİR rəsmiləri cümə günü ölkənin mərhum Ali Rəhbəri Əli Xameneinin vida mərasimində iştirak etmək üçün 100 ölkədən nümayəndə heyətinin gəlməsini gözləyirlər. Bu barədə İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmayıl Baqai məlumat verib. O, dövlət televiziyasına msahibəsində bildirib ki, vida mərasimində, təxminən, 100 ölkədən rəsmi qonağın – siyasi xadimlərin, dövlət başçılarının, parlament spikerlərinin, xarici işlər nazirlərinin və ya xüsusi hökumət nümayəndələrinin, eləcə də çox sayda ictimai xadimin iştirakı gözlənilir.

Qeyd edək ki, Əli Xamenei ilə vida mərasimi iyulun 3-də başlayacaq, dəfn isə iyulun 9-da olacaq.

## Kallas Rusiyaya sanksiya tələb edir

Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas Rusiyanın Kiyevə son hücumunu şərh edərək bildirib ki, təkcə qınaq ifadələri kifayət deyil. O, bu barədə “X” sosial media platformasında yazıb: “Kiyevə hücumları dayandırmaq üçün təkcə qınaq sözləri kifayət deyil. Bunu yalnız Ukraynaya davamlı hərbi dəstək və Moskvaya artan təzyiq edə bilər. Bu həftə Aİ Kiyevin müdafiə qabiliyyətini gücləndirmək üçün 90 milyard avroluq dəstək kreditinin bir hissəsi olaraq 6 milyard avro ayırmağa başladı. Bu gün bu tətillərə cavab olaraq, Rusiya hərbi-sənaye kompleksini dəstəkləyən daha çox sayda quruma sanksiya tətbiq etməyi təklif edəcəyəm”.

## Pekin: İrana qarşı sanksiyalar ləğv edilsin!

Çin İrana qarşı birtərəfli sanksiyaların tezliklə ləğv edilməsinin tərəfdarıdır və Tehranla Vaşinqtonun danışıqları davam etdirməsini gözləyir. Bu



barədə Çin Xarici İşlər Nazirliyinin sözçüsü Qo Syakun keçirdiyi brifinqdə bildirib. Diplomat vurğulayıb ki, “Çin İrana qarşı birtərəfli sanksiyaların mümkün qədər tez bir zamanda ləğv edilməsinin tərəfdarıdır”. Onun sözlərinə görə, rəsmi Pekin ABŞ, İran və digər tərəflərin artıq imzalanmış anlaşma memorandumunu birgə həyata keçirəcəyinə və danışıqları davam etdirəcəyinə ümid edir.

## Neft tankeri boğazda saya oturub



İran dövlət televiziyasının verdiyi məlumata görə, xarici ölkələrdən birinin konteyner daşıyan gəmisi Hörmüz boğazında saya oturub. Bunun səbəbi kimi tankerin İran tərəfindən təsdiqlənməmiş marşrutla üzdüyü göstərilir.

Rəsmi Tehran bildirib ki, gəmilər yalnız İranın Larak adasının cənubunda yerləşən Hörmüz boğazından keçən marşrutlardan istifadə etməli və hərəkətlərini İran silahlı qüvvələri ilə əlaqələndirməlidirlər.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 115 (31084) 3 iyul 2026-cı il, cümə

İDMAN

## COP10 çərçivəsində görüşlər



**Dünən Bakıda UNESCO-nun İdmanda Dopinqə Qarşı Beynəlxalq Konvensiyasına Tərəf Dövlətlərin 10-cu konfransı (COP10) Bürosunun ikinci rəsmi iclası keçirilib.**

COP10 Bürosunun sədri, Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbovun sədrliyi ilə keçən iclasa Beynəlxalq Olimpiya Komitəsinin, Ümumdünya Antidopinq Agentliyinin (WADA), həmçinin WADA üzrə Avropa Şurasının "Ad Hoc" Avropa Komitəsinin nümayəndələri, müşahidəçi dövlətlər və büronun digər vitse-prezidentləri onlayn formatda qoşulublar.

İclasda konvensiyanın icraçı katibi, UNESCO-nun Elm sektorunun Sosial siyasətlər və inklüzivlik üzrə direktoru Qustavo Merino, Təsdiq Komitəsinin sədri Lyuk McCann, həmçinin COP10 Bürosunun sədri Fərid Qayıbov çıxış ediblər.

Qeyd edək ki, iyulun 1-də Bakıda UNESCO-nun İdmanda Dopinqə Qarşı Beynəlxalq Konvensiyası çərçivəsində İdmanda Dopinqin Aradan Qaldırılması Fondunun Təsdiq Komitəsinin üçüncü rəsmi iclası keçirilib.

## Bakı–Xankəndi velosiped yarışı hesabatı




**Beynəlxalq Velosipedçilər İttifaqı (UCI) Azərbaycan Velosiped İdmanı Federasiyasına Bakı–Xankəndi Azərbaycan velosiped yarışının nəticələri ilə bağlı yekun qiymətləndirmə hesabatı göndərib.**

Hesabatda bu yarış "Gələcək üçün böyük potensiala malik, yaxşı təşkil olunmuş tədbir" kimi qiymətləndirilib. Belə ki, beynəlxalq qurumun gəldiyi qənaətə görə, yarış zamanı təhlükəsizlik, polis və tibb işçiləri yüksək peşəkarlıq nümayiş etdiriblər. Böyük tamaşaçı marağı, uyğun məsafələr və yarış profili, əlverişli hava şəraiti və gözəl mənzərələr idmançılarda xoş təəssürat yaradıb.

Hesabatda, həmçinin yüksək keyfiyyət və yaxşı təşkilatçılıq xüsusi vurğulanır. Qeyd olunur ki, bütün iştirakçılar yerləşdirmə, qidalanma və təmin edilən şəraitdən razı qalıblar.

Bundan əlavə, yarışların TV yayımı "qənaətbəxş fəaliyyət, peşəkar, təcrübəli və yaxşı təciz olunmuş heyət" kimi qiymətləndirilib.

Ümumilikdə, bütün aspektlər üzrə təşkilatçılıq yaxşı səviyyədə olub, bununla yanaşı, bəzi məqamların təkmilləşdirilməsi yaxşı olardı.

## Yeni fiqurlu konkisürmə ustası

**Azərbaycanın fiqurlu konkisürmə üzrə heyətinin sıralarına daha bir yeniyetmə idmançı cəlb olunub.**



Azərbaycan Qış İdman Növləri Federasiyasının Beynəlxalq Fiqurlu Konkisürmə Birliyinə yeniyetmə fiqurlu konkisürən Veronika Jilina ilə bağlı ünvanladığı müraciət müsbət dəyərləndirilib və idmançının tək konkisürmə dissiplini üzrə Azərbaycanı təmsil etməsinə rəsmi icazə verilib.

Veronika Jilina 2026-2027 mövsümündən etibarən beynəlxalq yarışlarda buz üstünə çıxaraq Azərbaycan adına mübarizə aparacaq.

*Qabil YUSİFOĞLU*
*XQ*

## BİLDİRİŞ

"Xalq qəzeti"nin 2 iyul 2026-cı il tarixli nömrəsində dərc olunmuş "Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" Publik Hüquqi Şəxsin 2025-ci il dekabrın 31-nə Maliyyə Vəziyyəti Haqqında Hesabatı "PRINCIPAL" MMC tərəfindən audit olunmuşdur.

***✓ Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən Yusifov Nəsib Məhəmməd oğlunun adına verilmiş müharibə veteranının M/V seriyalı, 163298 nömrəli vəsiqəsi itdiyi üçün etibarsız sayılır.***

*Dünya çempionatı – 2026*

# Mundialın möhtəşəm kambeki

### *Belçika Seneqal sensasiyasına imkan verməsə də, özü möcüzə yaratdı*

**2026-cı il Dünya çempionatının pley-off mərhələsi davam edir. İyulun 1-i axşamı və iyulun 2-i gecəsi bu mərhələnin daha 3 oyunu keçirildi. Favoritlər kimi tanıdığımız komandalar ciddi çətinliklə qarşılaşdılar - Belçika Seneqala qarşı matçın sonlarında məğlubiyyətdən xilas oldu və əlavə vaxtda 3-2 hesablı qələbə qazandı, İngiltərə isə Konqo Demokratik Respublikasına qarşı uzun və gərgin mübarizə apararaq 2:1 hesablı çətin bir qələbə qazandı. Yalnız ABŞ–Bosniya və Herseqovina qarşılaşması ev sahiblərinin müşküllə qarşılaşmadığı bir oyun oldu və onlar 2:0 hesablı qələbə qazanıb 1/8 finala vəsiqəni təmin edə bildilər.**

Mən isə bu icmalımda əsasən Belçika – Seneqal matçından bir qədər geniş söhbət açmaq istərdim. Matçı necə təsvir edəcəyimi belə bilmirəm: dram, komediya, triller? Bir sözlə, ssenarisini təsadüfi insanlar yazan 130 dəqiqəlik gərgin anlar yaşadan bir film.

Kim düşünərdi ki, matçın əsas vaxtının 85 dəqiqəsi ərzində 0:2 hesabı ilə məğlubiyyətin bir addımlığında olan Belçika oyunun bitməsinə cəmi üç dəqiqə qalmış bu mundialın, bəlkə də, ən möhtəşəm kambekinə (geri dönüşə) imza ata bilər? Və sonra hamı, komandaların, bu turnirin ən yeni tarixində olduğu kimi, penaltilər seriyasına gedəcəyini düşündüyü zaman belçikalılar matçı qazanacaqlar.

Seneqal - Belçika matçının ilk 85 dəqiqəsi seneqallıların əzmkar və möhtəşəm oyunu ilə yadda qaldı. Xüsusilə matçın ilk yarısını Seneqal millisi əla oyun nümayiş etdirdi. İlk qollarını da bu hissədə vurdular.

Cinah yarımmüdafiəçiləri Sadio Mane və İliman Ndiaye meydanın mərkəzində çevik yerdəyişmələri ilə Belçikanın müdafiəçilərini çaşdırır, cinah müdafiəçiləri isə mövqelərində boşluqlar buraxmağa məcbur olurdular. İlk qol bir neçə dəfə sağdan və soldan sürətli hücuma keçən seneqallıların klassik kombinasiyasından sonra gəldi.

İkinci qoldan yarım dəqiqə əvvəl isə Belçikanın dayaq müdafiəçiləri arasında, təxminən, 30 metr məsafədə müdafiənin bir geniş boşluğu yarandı. Seneqal hücumçuları qapı xəttinə məhz bu boşluqdan şığıdılar və bir göz qırpımında avropalılar növbəti qolu qapılarında gördülər. Bu artıq Belçikanın Almaniya və Niderlanddan daha rüsvayçı məğlubiyyətlə evə dönəcəyinin ciddi işarəsinə bənzəyirdi.

80 dəqiqə ərzində Belçika son dərəcə monoton hücumlar edir və demək olar ki, rəqib qapısına zərbə belə endirməyə fürsət tapmırdı. Zəif ötürmələr, fərdi keçidlərin olmadığı sönük bir tamaşa nümayiş etdirirdilər. Bəzən hücum xəttində olan Leandro Trossard topu irəli aparmaq üçün mərkəz müdafiəçilərinin yanına qədər gəlməli olurdu.

İkinci hissədə ağır və elə bu səbəbdən də sürətli olmayan Romelu Lukaku meydana çıxsa da, 84-cü dəqiqəyə qədər heç nə ilə yadda qalmır və hətta bəzən rəqib meydanında topu belə özündə saxlaya bilmirdi. Hesabın 0:2 olmasına baxmayaraq, belçikalılar o qədər çox səhv edirdilər ki, onları iradəsizlikdə, arxaizm və mənən köhnə düşüncəli komanda olmaqda günahlandırmaq daha doğru olardı. Seneqal isə demək olar ki, 80 dəqiqə ərzində daha yaxşı və daha inamlı təsir bağışlayırdı. Lakin bundan sonra seneqallılarda arxayınçılıqdan irəli gələn bir sönüklük yarandı.

Məhz bundan sonra, matçın 86-cı dəqiqəsində Belçikanı mundiala qaytaran qol seneqallıların qapısında göründü. Rəqibin cərimə meydançasının kənarında seneqallı oyunçuya dəyib Menyenin qarşısına düşən top bir andaca Lukakuya ötürüldü. Bu cüssəli və ağır hərəkətli oğlan isə belə məqamları çox nadir hallarda boşa verir. Bu dəfə də fürsəti qiymətləndirməyi bacardı. Qol- 1:2.

Bu qoldan sonra Belçikanın çevrilişə nail olduğunu qəbul etmək lazım gəldi. Hətta sürətli qrafiklə gələn gözlənilənilməz qolla. Axı, Belçika ikinci hissənin sonuna bir neçə dəqiqə qalmış ölümün astanasında idi. Çempionatın Belçika möcüzəsi necə mümkün oldu? Ən əsası: bunu proqnozlaşdırmaq mümkün idimi?

Necə ola bilərdi ki, ikinci hissənin su içmək fasiləsində az qala yumruq davasına çıxan Trossard və Tielemansın səyləri ilə 4 dəqiqədən də az bir vaxtda Belçika xilas olsun? O anda elə görünürdü ki, kapitanın komanda yoldaşı ilə bu mübahisəsi Belçikanın Dünya çempionatından kənarlaşdırılmasını simvolizə edəcək. Amma yox, belə olmadı. Əvəzində Belçikanı möhtəşəm kambekə daşıyan ikinci qolunu məhz Tielemans-Trossard dueti vurdu.

89-cu dəqiqədə Leandro Trossard Yuri Tielemansa hava ötürməsi etdi. Kapitan rəqib müdafiəçini və bərbad çıxışı ilə komandasını aciz duruma salan seneqallı qapıçı Mori Diavanı qabaqlayaraq başının ecazkar toxunuşu ilə topu qapıdan keçirdi–2:2. Belçika 3 dəqiqədə məğlubiyyət quyusundan qurtulub vəziyyəti dəyişdi. 80 dəqiqə möhtəşəm oyun sərgiləyən Seneqal isə 89-cu dəqiqədən sonra çox aciz görünməyə başladı.

Oyun əlavə vaxta keçdi. İndi artıq qələbənin ətrini almış belçikalılar daha əzmkar oyun nümayiş etdirirdilər. Seneqallıların isə əvvəlki çevikliyindən və sürətindən əsər-əlamət belə qalmamışdı.

117-ci dəqiqədə Belçika son hücumu zamanı sol kənardan Dieqo Morieyra rəqib qapısına kəskin ötürmə etdi. Müdafiəçi belçikalıların kapitanına topa toxunmağa imkan vermədi. Sağ cinah hücumçusu Dodi Lukebakio, seneqallı müdafiəçilər qarşısını kəsməyə macal tapmamış bir neçə metrlik məsafədən topu cüzi fərqlə çərçivədən kənara vurdu. Bu uğursuz zərbədən əvvəl isə Timoti Kastane hakim Said Martinesə yaxınlaşıb kapitanı Tielemansa qarşı qayda pozuntusunu bildirdi: Lamin Kamara həqiqətən topu uzaqlaşdırmağa çalışarkən sağ ayağı ilə belçikalı oyunçunun sol ayağına təpik vurub onu yerə yıxmışdı.



Hakim əvvəlcə Yuri Tielemansın yıxılmasını görməzdən gələrək cərimə zərbəsi təyin etmədi və bunun əvəzinə qapıdan zərbəyə işarə etdi. VAR işarə verəndən sonra Martines hadisəni müxtəlif aspektlərdən araşdırmaq üçün xeyli vaxt sərf etdi. Qərar video-köməkçi hakimlərin müdaxiləsindən sonra verildi.

Nəhayət, hakim razılaşdı və qərarı elan etdi: bu təmas penaltidir.

Əvvəlcə penalti zərbəsini Lukakunun yerinə yetirəcəyi görünürdü. Yayım direktoru hətta hücumçunun son beş penaltini hansı istiqamətdən vurduğunu belə göstərdi. Lakin son anda penalti zərbəsini rəqibin cərimə meydançasında həlledici qayda pozuntusuna məruz qalan Tielemansın yerinə yetirəcəyi məlum oldu.

Bu, belçikalıların çox ağıllı taktikası idi. Əvvəlcə bir oyunçu penalti vurmaq iddiasında olur və rəqib onu bloklamağa çalışır. Əsl penalti vuran oyunçu isə sakitcə kənarda dayanır, nəfəsini dərərək ürək döyüntüsünü azaldır və matçın əsas zərbəsini vurmağa hazırlaşır. Sonda bu işə yaradı və tabloda vaxt saniyəölçən 124:44 göstərərkən Tielemans nöqtədən mükəmməl qol vurdu. Bu, Dünya çempionatı tarixində ən gec vurulan qol idi, amma belçikalılar üçün onun misli yox idi!

Seneqal üçün asan və sadə bir matç, Tielemansın penaltisi qarşısında cadugərlik ritualı və acizliklə bitən bir drama çevrildi. Bu dram, Dünya çempionatlarının və ümumiyyətlə, idmanın sehrini çox gözəl əks etdirir. Kritik vəziyyətlərdə insanlar dəyişir. Yaxşıya və ya pisə doğru: bir dəqiqədən sonra qəhrəmanlarımızı tanımaya bilərik. Maraqlı və sadəlövh Seneqal, yuxarı sinfin idmançı şagirdindən qorxduğu üçün sevgilisini bir dəstə xuliqanın əlində qoydu. Başqa bir şansın olmayacağını anlayan ümidsiz Belçika hamı üçün gözlənilməz olan qurtuluşa tələsdi və bu pley-offun möhtəşəm geri dönüş - KAMBEK tarixini yazdı. Doğrudur, İngiltərə də kambek etmişdi, amma o, buna əsla bənzəmirdi. Əhsən, Belçika!

***

İyulun 2-i səhərə yaxın keçirilən ABŞ–Bosniya və Herseqovina matçı da pley-offun maraqlı qarşılaşmalarından biri kimi yadda qaldı. Əslində, turnirin əsas ev sahibi üçün Bosniya və Herseqovina ilə qarşılaşma ciddi və hətta əsəbləri sarsıdan bir sınaq idi. Amerikalılar tarixən Avropa rəqiblərinə qarşı çox zəif oynayıblar. Statistika dəhşətli olsa da, dediklərimizi təsdiqləyir: son 18 matçda ardıcıl 10 məğlubiyyət və 1 qələbə. Dünya çempionatının finallarında isə amerikalılar Avropa komandalarını yalnız iki dəfə – 2002 və... 1950-ci illərdə məğlub ediblər. Buna görə də bu matçda ev sahiblərinin əsəbiləşməsinə ciddi səbəb var idi.

Təsadüf elə gətirmişdi ki, ABŞ milli komandası Bosniya ilə 1/16 final matçını ölkənin ən vacib bayramlarından biri – 4 iyulda qeyd edilən Müstəqillik Günündən 2 gün əvvəl keçirirdi. Şübhəsiz ki, bu, amerikalıların 1/8 finalda Braziliya ilə qarşılaşdığı 1994-cü il Dünya çempionatı qədər simvolik deyildi, amma mühüm bir vaxta təsadüf edirdi. Zarafat deyil, ölkə dövlətçiliyinin 250 illik yubileyinə qızğın şəkildə hazırlaşır.

Gözlənildiyi kimi, ABŞ-ın 1/8 final mərhələsinə gedən yolu çətin başladı - bosniyalılar dərhal ciddi təzyiq göstərdilər və iki dəfə az qala hesabı açacaqdılar. Bosniyalılar əvvəlcə Birləşmiş Ştatların qapıçısı Metyu Frizi cərimə meydançasının kənarından zərbə ilə məyus etməyə çalışdılar. Buna nail ola bilmədilər. Bir neçə dəqiqə sonra isə Kərim Alaybeqoviç künc topu qövsvari zərbə ilə düz çərçivəyə vurdu, lakin Friz əla reaksiya nümayiş etdirərək topu qapı xəttindən uzaqlaşdırmağı bacardı.

Bosniya matçda 5-3-2 sxemi tətbiq etmişdi, maksimum kompaktlığı qoruyaraq həm mərkəzi zonanı, həm də cinahları səmərəli şəkildə bağlaya bilirdi. Uzun müddət amerikalılar bu konstruksiyanın necə dağıtmaq lazım gələcəyini anlaya bilmədilər. Onların yeganə ümidi hücuma keçid fazasında bosniyalıları haqlamaq və ya hansısa məqamda onları pressinqlə sıxışdırıb qol vurmaq idi. Əslində, fasilədən əvvəl ev sahiblərinin şansları məhz belə yarandı.

Rəqiblərinə ciddi müqavimət göstərən Maurisio Poçettinonun yetirmələri ilk hissənin sonuna az qalmış Folarin Baloqunun qolu ilə hesabı açdılar. 24 yaşlı hücumçu cərimə meydançasında müdafiəçilərə çarpıb qayıdan topu ələ keçirdi və dərhal qapıya zərbə endirdi – 1:0. Lakin Baloqunun qəhrəmanlığı uzun sürmədi. İkinci hissənin ortalarında amerikalı, təsadüfən olsa da, rəqibin topuğunu basdı. VAR-ın müdaxiləsindən sonra qarşısında qırmızı vərəqə gördü və komandasını çətin duruma saldı.

Elə görünürdü ki, ABŞ millisi azlıqda böyük çətinliklərlə üzləşəcək, amma belə olmadı. Bosniya bu üstünlüyündən yararlana bilmədi. Üstəlik, ev sahibləri final fitindən bir neçə dəqiqə əvvəl Malik Tillmanın vurduğu möhtəşəm cərimə zərbəsindən sonra üstünlüyünü 2 topa çatdırdı.

ABŞ komandası son 20 ildə dördüncü dəfə qalib gələrək 1/8 finala vəsiqəni təmin etdi. Bu, ölkə üçün qarşıdan gələn Müstəqillik Gününə ən gözəl hədiyyə idi. İndi çempionata ev sahibliyi edən ABŞ növbəti mərhələdə bu turun möhtəşəm kambekinə imza atan Belçika ilə qarşılaşacaq. Futbol Tanrısı kimi, tərəfində olacaq, bunu iyulun 7-də görəcəyik.

*İlqar RÜSTƏMOV*
*XQ*

HAVA

# Aranda yağmursuz, dağlarda yağış, dolu...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraiti yağmursuz olacaq. Mülayim cənub küləyi əsəcək. Atmosfer təzyiqi 758 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 55-60 faiz təşkil edəcək.**



Havanın temperaturu gecə 20-23, gündüz 30-35 isti olacaq.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 19-24, gündüz 31-36, dağlarda gecə 9-14, gündüz 20-25, bəzi yerlərdə 27-32 dərəcə isti olacağı ehtimal edilir.

*Q.ƏLİYEV*
*XQ*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2424
SİFARİŞ 816
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00